ŞÖHLƏT ƏFŞAR AXUNDOV

# Dodaqdan könüllərə



"Nurlan"
BAKI

Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

***Redaktor:*** **İlyas TAPDIQ**
*xalq şairi*

**Şöhlət Əfşar Axundov. Dodaqdan könüllərə.**
**Bakı, «Nurlan», 2008. – 236 səh.**

***Şairin «Dodaqdan könüllərə» şeirlər kitabı «Sükutdan asılmışam» (2007) kitabından sonra oxucularla ikinci uğurlu görüşdür. Oxucular arasında böyük rəğbət qazanmış Şöhlət Əfşar Axundov bu kitabında da öz söz mülkünün ecazı ilə oxucularının könüllərinə yol tapmağa çalışır.***

***Kitabda yaş senzindən asılı olmayaraq (7-dən 77-yə qədər) oxucuların duyğularını mənəvi-əxlaqi cəhətdən zənginləşdirən şeirlər vardır – Vətən sevgisi, Qarabağ həsrəti, dünyanın fəlsəfi-dini dərki, ülvi məhəbbət, insanı maraqlandıran, duyğulandıran, mənən qidalandıran hər nə hiss, fikir varsa bu kitabda tapmaq olar…***

$A\frac{4702000000}{N-098-2008}$ ***Qrifli nəşr***

**© «Nurlan», 2008**
**© Axundov, 2008**

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# ƏNƏNƏVİ ÜSLUBUN MÜASİRLİK LADI…

Hər bir insanın öz dünyası var, özü də sirli-soraqlı, mübhəm bir dünya, o ki, qaldı söz adamının dünyası… Bu dünya deyəsən heç bir coğrafi ərazi tanımır, hüdudsuzluğu ilə; sərhəd dirəkləri, məftilləri burada heç nəyə yaramır… Çünki bu ruhun ehtiva etdiyi mənəvi ərazidir, sözün ərazisidir və bu sərhədsiz bir mülkdür və bu söz mülkünün sahibi isə istedadı miqyasında hökmü çatan şairdir, yazıçıdır, qələm əhlidir…

Öz istedadı miqyasında «söz mülkü» yaratmağa çalışan, getdikcə sabitləşən və söz dünyasında şölələnən qələm əhlindən biri də Şöhlət Əfşardır…

Şöhlət Əfşarla mənim tanışlığım hamımızın mənəvi və ədəbi ocağımıza çevrilən «Kredo» qəzeti redaksiyasında baş verdi. Uca boylu, xoş sifətli, şümal duruşundan, şirin danışığından ziyalılıq yağan bu insanı mənə qəzetin baş redaktoru, şair-publisist Əli Rza Xələfli və yazıçı-publisist Elçin Kamal xüsusi bir şövqlə təqdim etdilər. Təqdimatsız qarşılaşsaydıq, başında şlyapa, əda xatirinə əlində əsa, qolunun üstündə plaşı olsaydı onu Amerikan yazıçılarına bənzədərdim, xüsusən Martin İdenə…

Şirinliyi, istiqanlılığı, yapışıqlılğı ilə bu tanışlıq könlümcə oldu, xüsusən öyrənən də ki, Əfşarlar tayfasındandır, Ağcabədi mahalındandır Qarabağ istiliyi, doğmalığı ürəyimə hopdu…

Həyatda elə xoşbəxt adamlar var ki, onlar ilk görüşdəcə, ilk baxışdaca gözü-könlü doydurur, adama elə gəlir ki, illərcə tanıdığın bir insanla təkrar görüşürsən və ya illərcə axtardığın bir insanı, dostu, həmkarı indicə tapmısan. Şöhlət Əfşar da belələrindəndir və ilk tanışlıqdanca məni əhanuruba kimi özünə çəkdi… Xüsusən mənə bağışladığı «Sükutdan asılmışam» şeirlər kitabını, «Kredo» qəzetində dərc olunan «Yuxu», «Əhsən, Molla Nəsrəddin yenə kara gəldi», «Goreşən», «Novruzəlinin yeni sərgüzəştləri» pamflet-novellalarını oxuyandan sonra ona bağlılığım, hörmətim daha da artdı. Gördüm ki, söz yanğısına düşüb yanan, torpağının, xalqının, millətinin, ətrafının, mühitinin qayğıları ilə qovrula-qovrula yaşayan bir könül, bir qəlb sahibidir Şöhlət Əfşar… Qəlbinin, könlünün duyğularını, müşahidələrini içində saxlaya bilməyən onu sözə çevirib kağıza tökən, ifadə etməyə, ətrafına təqdim etməyə çalışan, sözlə qürur duyan, qələminə sığınan iman, inam, məhəbbət əhlidir Şöhlət Əfşar…

Onun bu adlarını çəkdiyim kitabı, yazıları barəsində söhbət-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

lərimiz oldu, təqdirimi, tənqidimi, iradlarımı da bildirirdim bu söhbətlər əsnasında və beləliklə aramızda bir ədəbi ünsiyyət də yaranmağa başladı…

Və günlərin bir günü, bir az ərkiyana, bir az da təmkinlə mənə bir qovluq təqdim etdi, bu «Dodaqdan qəlbə» adlandırdığı yeni şeirlər kitabının əlyazması idi. Tanınmış şair, peşəkar redaktor İlyas Tapdığın redaktəsindən sonra oxuyub fikritmi bildirməyi, hətta mümkün olarsa bu ikinci kitabına ön söz yazmaq istəyini bildirdi…

Və beləliklə bu yazı, «Ənənəvi üslubun müasirlik ladı» məqaləsi meydana gəldi… Məqalənin bu mövzuda yazılma səbəbinə toxunmazdan əvvəl mühitinin, ətrafının, dostlarının, həmyerlilərinin tanıdığı Şöhlət Axündovla oxucularımı da tanış etmək istərdim.

Şöhlət Axundov 1949-cu ildə Ağcabədi rayonunun Əfşar kəndində anadan olmuşdur. Orta təhsilini Əfşar kəndində Nizami adına orta məktəbdə almışdır və mənə elə gəlir ki, Nizami Gəncəvi yaradıcılığına marağı və məhəbbəti də buradan mayalanmışdır…

Cisminə gənclik odu düşəndən misralar pıçıldamağa başlamış, pıçıltılarını kağıza köçürsə də, dərc etdirməyə tələsməmişdir. Torpağa, torpaq adamlarına bağlılığı onu kənd təsərrüfatı işçisi etmişdir və filoloji təhsilə meyli olsa da, torpaq istəyi onu üstələmiş, Şöhlət Gəncədə S.Ağamalıoğlu adına Azərbaycan Kənd Təsərrüfatı Akademiyasında təhsil almış, uzun müddət Ağcabədidə təsərrüfat rəhbəri işləmiş, müxtəlif rəhbər vəzifələrdə çalışmışdır. Bu fəaliyyət siferası ona həyatı dərindən öyrənməyə imkan yaratmış, həyat bilgisi və təcrübəsini artırmışdır ki, bu cəhət onun poetik və publisistik yaradıcılığında səmərəli bir şəkildə özünü biruzə verir…

Şöhlət Axundov sovet dönəminin idarəetmə etikasına uyğun olaraq yazdığı şeirləri üzə çıxarmasa da təsərrüfatın və idarəetmənin bir sıra aktual problemləri barəsində məqalələrlə mətbuatda müntəzəm çıxışlar edir ki, bunlar onu fikir adamı kimi ictimai mühitdə tanıdır.

Şöhlət Axundov həyatın dinamikasından geridə qalmağı xoşlamayan bir insandır və yeniləşməyə, mübarizəyə meyil onun xarakterindədir. Elə ona görə də müstəqillik dövründlə o ikinci ali təhsil alır. Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasını fərqlənmə diplomu ilə bitirərək idarəetmə sistemində müxtəlif vəzifələrdə çalışır…

Görünür, Qarabağ itkisi, zəmanənin müxtəlif haqsızlıqları və təzyiqləri bu incə, kövrək qəlbli, şair ürəkli insanı elə sıxmışdır ki, «Ürəyim» adlı şeirində yazdığı kimi Şöhlət Əfşar insanın mənəvi



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ağrılarını, sosial-psixoloji əzablarını, Azərbaycan adlı bir məmləkətin «infakt vurmuş» ürəyi olan Qarabağın ağrılarını bütövlükdə öz ürəyinə köçürmüşdür:

Bədnəzərin nizəsinə tuş oldu,
Tərlan kimi yaralandı ürəyim.
Ömrün yazı dönüb qarlı qış oldu,
Şanə-şanə paralandı ürəyim.

Qaysaqlanıb çapıq-çapıq bitişdi,
Xudam nicat verdi, əcəl ötüşdü.
Təbib-loğman mat qaldılar, nə işdi?!
Aram-aram sayalandı ürəyim.

Olumla ölüm arasında vuruş gedir, zəmanənin təzyiqlərindən «şanə-şanə paralanan», «şüşə kimi çiliklənən», «oyum-oyum oyalanan», «hal əhli, irfan sahibi» olan Ürək-İnsan ölümə-itimə, haqsızlığa, nadanlığa qələbə çalır, həyat uğrunda mübarizəsini davam etdirir, sosial-psixoloji pərişanlığa, təlatümlərə sinə gərir, yaralı quş təkin çrpınır:

Ömr edirəm mən yaralı ürəklə,
Göz-göz olub fərqi yoxdur ələklə,
Can çəkişir Şöhlət qanlı fələklə,
Təlatümdə, pərişandı ürəyim.

Beləliklə, Şöhlət Axundov dönüb Şöhlət Əfşar olur sözə sığınır, sözü məlhəmə çevirib ürəyinin və mühitinin yaralarına qoymağa çalışır, «Zamanın nəbzi» Beynəlxalq ictimai-siyasi qəzetinin baş redaktoru olur, son beş ildə şeirləri və publisistikası ilə mətbuatda ardıcıl, sıx-sıx dərc edilir, ürəkdən gələn söz sahibi kimi tanınmağa başlayır, «Qızıl Qələm» mükafatına layiq görülür, istedadlı şair-alim Oktay Rzanın redaktorluğu, professor, filologiya elmləri doktoru Akif Bayramovun «Səmimi hisslər şairi» ön sözü ilə «Sükutdan asılmışam» (2007) ilk şeirlər kitabını nəşr etdirir. Yaradıcılığı və rəftarı ilə ədəbi ictimaiyyətdə yaxşı fikir yaratmağa nail olur…

Akif müəllimin sözünün qüvvəsi, şair sözünün səmimiyyətindən doğulur, V.Q.Belinski demiş: «Şeirin bütünlüklə mayasını səmimiyyət təşkil edir». Şöhlət Əfşar da beləcə öz səmimi hisslərini, duyğularını öz



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ampulasında ifadə etməyi bacarır, ona ictimai-sosial məzmun aşılmaq istəyir və müəyyən mənada buna nail ola bilir və «Sükutdan asılmışam» kitabında dərc olunmuş başqa bir «Ürək» şeirində özünü belə ifadə edir:

Sən çəkənə dağ da dözməz, əriyər,
İşıqlı dünyamı zülmət bürüyər.
Dəmir tab gətirməz vallah çürüyər,
Mənim qəm yükümü daşıyan ürək.

– deyərək, qəm yükünü daşımaq səlahiyyətini boynuna götürmüş olur, «Köçkün qızı» şeirində olduğu kimi görümlü, duyumlu, canlı heykələ bənzər, milli dərdi fərdilik tellərindən keçirib göstərən poetik obraz yarada bilir. Əslində bu həyatın özünün yaratdığı real obrazdır.

Şöhlətin təqdimatında şeirə gəlir:

Axşamlar çıxaraq bir boz təpəyə,
Boylanır dağlara bir köçkün qızı.
Dolur bulud kimi leysan səpməyə,
Hey baxır yollara bir köçkün qızı.

Elə bil təpədə pir ağacıdır,
Fikirlər içində xəyala dalıb.
Sanki, dərdi ona dar ağacıdır,
Məhkum tək dayanıb dərddən asılıb.

Dərdin, hicranın, vətənsizliyin, itirilmiş məhəbbətin, bütöv Qarabağın bir qız qəlbində tüğyan edən real hönkürtüsüdür. Dərdin dar ağacından asılı qalan, bütöv Qarabağ köçkünlərinin «pir ağacına» çevrilmiş və ümumiləşdirilmiş poetik heykəlidir bu köçkün qız… Elə buradaca onu vurğulamaq istərdim ki, Şöhlət Əfşar reallığa, həyat hadisələrinə, gerçəkliyə, bunlardan yaranan detallara varanda onun şeirləri alınır, şeirin gerçəkliyə söykənən emosional təsirliliyi hesabına poetik modeldə özünü göstərən kəm-kəsirlər pərdələnir.

«Allah, qaldı yaylaqlarda…» şeirində olduğu kimi … Şöhlət Əfşar qəvi düşmənə əsir olmuş dağlarda qalan milli növrağımızı, təmtərağımızı, ağızlardan yox olan tam-dadımızı, qəribsəyən yolları, qantəpərli gülüstanları, cahılların şınqırığını xatırlayır, insan amilinə daha çox üstünlük verir və sübut etməyə çalışır ki, biz təkcə torpağı, Vətəni,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qarabağı yox insanlığa, Qarabağlılığa, kişiliyə məxsus olan gözəlliyimizi də itirmişik, «ömrümüzün naxışını itirmişik» və bu cür itkinin nisgili, ağrısı daha ağırdır, elə o Dəlidağ təkin, Üçtəpə yaylaqları qədər ağırdan-ağırdır, dərdin dərinliyi də buradadır, dərdin üç misli qədər təpə-təpə təpələnən yanğısı da burdadır…

«Sükutdan asılmışam» kitabındakı başqa bir fraqment də diqqətimi çəkdi, elə həmin bu şeirin özünün ictimai məzmunu, çoxdan unutduğumuz bəşəri dərdlərə şəriklik missiyası. Dərd çəkən dərdin ağırlığını, çəkisini daha yaxından, dəqiqliyi ilə bilər. Bizim xalqın başına gələn dərd və bəlalara dünya birliyinin biganəléyi, ikili standartlarla yaşanması bizləri həmişə yandırıb-yaxıb. Amma dünyada, elə Yaxın Şərqdə baş verən bəşəri bəlalara biz özümüz də haradasa «biganə»yik, amma həmdinlərimizin total qırğınlara məruz qalması Şöhlət Əfşarı düşündürür, Qarabağ və Xocalı faciəsinin dünya miqyasında baş verən faciələrlə müqayisə edir və bizim faciəmizin də dünyavi miqyasını müəyyənləşdirmiş olur:

Gecə yarı, sükunət, hücrəmdə tək qalmışam,
Dərd əlindən məhkum tək sükutdan asılmışam.
Fikirlər dəryasında təlatümlü, dalğınam,
Kimsə yox, bir sahilsiz burulğanda bayğınam.
Andırıram səhrada susuz, yorğun dəvəni,
Hey çəkirəm dünyanın, insanlığın dərdini.
Hər tərəf qan ləkəsi, aclıq, ölüm, faciə,
Adam özü utanır mən insanam deməyə.

Şöhlətin bu misralarını oxuyanda yaddaşımzda bəlkə də dəqiqliyi ilə qalmayan tanınmış rus şairi V.Nabokovun bu misraları çözələndi:

Vo ves mir,
Şaqayet krovavıy XX Vek.
Ne xoçu pravo çeloveka,
Potomu, ə davno ne çelovek.

İnsanı insanlıqdan çıxaran əsrimizin siyasi-sosial kataklizmləri, təcavüzləri, «insan haqları», «demokratiya» pərdəsi altında hegemon dövlətlərin məkrli «səlib yürüşləri» qan gölləri, aclıq, səfalət, faciələr törədir, dünya sivilizasiyasının beşiyi olan iki çay arası mədəniyyətini var-varcasına dağıdır və bütün bunlar humanist ideyalarla ürəkləri döyünən iki



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

şairi bir-birindən xəbərsiz şəkildə eyni ladda birləşdirir, dünyanın əşrəfi kimi tanınan Tanrı tərəfindən yaradılan İnsan özünə insan deməyə utanır, müqəddəs insan adından imtina edir. «Ya davno ne çelovek» – deyə hayqırır, anadil quşuna dönüb sükutdan asılı qalır.

Şöhlət Əfşarın yaradıcılığında ənənəyə, ənənədən gələn normativ şeir poetikasına bir bağlılıq, üstün meyil, daha dəqiq, səmimi bir sədaqət, hətta unudulmuş bəzi poetik janrların bərpaçılığına cəhd müşahidə etdim…

Klassik, xüsusən orta əsrlər ədəbi ənənələrindən məlumdur ki, şairlər poemalarının, divanlarının, məsnəvilərinin başlanğıcında tövhid / Allahın birliyinin tərənnümü, /münacat/ Tanrıya yalvarış, buna tövbənamə də deyərlər/, nəət /peyğəmbərin tərifi, /meracnamə/ peyğəmbərin meraca getməsi, fərd, fəxriyyə qəbildən poetik şəkillərdən istifadə edirdilər və bu həmin dövrün mühüm yaradıcılıq tələblərindən biri idi. Sonrakı mərhələlərdə, xüsusən sovet dönəmində ideoloji xəttə görə bunlar işlədilmədi, demək olar ki, qadağan edildi…

Şərq ədəbiyyatında məşhur olan bu gələnək müəlliflərin dini-tarixi məsələlərə, təriqətlərə inam və etiqada, şəriətin mənəvi-əxlaqi saflığa çağıran qanunlara münasibətlərini, etiqadlarını, bağlılıqlarını nümayiş etdirməklə yanaşı, insanı islamdan şəriətdən gələn düzlüyə, əqidəliliyə, xeyirxahlığa, nəfisdən uzaqlaşmağa çağrış vasitəsi idi və insanın Allah qarşısında humanist, demokratik inam və etiqad vasitəsilə bərabərliyini daha çox önə çəkməyə xidmət edən bədii forma idi…

Şöhlət Əfşar bu böyük ənənəyə indiki zaman məsafəsindən qayıdış edərək müasir şeirimizdə çoxdan unudulmuş bu formalara özünəməxsus bir tərzdə müraciət edir, klassik tövhid və münacat tipini müasir ladda necə deyərlər, öz ampulasında, bacarığı ifa və ifadəsində şeirə gətirir. Onun «Sükutdan asılmışam» kitabı «Başlayıram Böyük Allahın adının və özünün köməyi ilə» məşhur İslam dini postulatı olan «Bismillahir – Rəhmanir - Rəhim» (Bağışlayan və Rəhman Allahın adı ilə) sözəlrinə uyğun bir tərzdə təfsir olunan cümlə ilə başlayır və «Allah» sərlövhəli «Tövhid» məsnəvi formasında oxucuya belə təqdim edilir:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Dinlə, deyim Allah kimdir, nəçidir?
O, bütün varlığın cəmi, gücüdür!
Bu yeri, göyləri xəlq etdi yoxdan,
Adəmlə Həvvaya gildən verdi can.
«İxlas» surəsində bu əyan oldu,
Cümleyi-aləmə bir bəyan oldu.
Yaradan tək odur, qeyrilər yalan,
O, həm can verəndir, həm də canalan,
Ona şərik yoxdur, haqdır yaradan,
Özüdür hökm edən, odur hökmran.

Və bu minacat tövhidin hamıya məlum şəriət postulatları şeirin sonuna qədər davam edir və klassik janrın müasir ladda bərpasına cəhd olunur. «Dodaqdan könüllərə» kitabı da beləcə başlayır, burada kitab «Dayandım ehrama» və «Haqqdan aldım bəsirəti» şeirləri ilə açılır.

Bu şeirlərdə Şöhlətin bir müəllif kimi dinə münasibəti, inamı, etiqadı, islamın şairə və şəxsə verdiyi mənəvi-əxlaqi dəyərlərin mahiyyəti, islamçılıqla –türkçülüyün qovuşuğunun mədəni layla yaratdığı qiymətli çevrilmələr əks olunur.

Kalssik mövzuya burada Şöhlət formaca yenilik gətirir, məsnəvi əruz stilindən hecaya keçir, hətta qoşma formasında fikrini ifadə etməyə üstünlük verir. Şeirdə Allahın «Qurani-Kərim»də əks etdirilən adları, sifətləri, qüdrət və ülviyyəti, kainatın yaradılması, islami-dini ehkamlar, insanın şəriətdən əxz etdiyi mənəvi-islami saflığı, islami şəxsiyyətlərə, əsasən peyğəmbərə, onun əhli-beyitinə məhəbbətdən söz açılır. Adətən bu qəbildən olan nümunələrdə müəllifin şəriət və dini islami atirbutlara hədsiz məhəbbəti, inamı, əqidəsi, münasibəti yüksək bəlağətlə, hədsiz mübaliğəli təşbihlərlə, dəbdəbəli üslubla ifadə üstünlük təşkil edir ki, bu Şöhlətin belə mövzuda yazdığı şeirlərində də müşahidə olunur:

Əli mənə açdı elmin qapısın,
Məhəmməd göstərdi şəhrin, qalasın.
Hünəri öyrəndim Hüseyni-Şahdan,
Saflığı əxz etdim Xanım Zəhradan.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

«Quran»la yetişdim ürfana, elmə,
İman zinət vurdu mənim qəlbimə.
Şöhlətəm, ün saldım küllü-aləmə,
Aldım şairliyi Ərşi-Əladan.

«Haqqdan aldım bəsirəti» şeiri klassik üslubda yazılan «fərd», «fəxriyyə» poetikasına uyğundur. Əslində fəxriyyələr müasir avtoportretlərə oxşayır və müəllif burada öz xarakterini, xislətini, mənəvi təkamülünü, estetik maraq dairəsini ritorik bir dillə bəri-başdan bəyan edir, dastanlarımızdakı «öyküləri» xatırladır, bir növ özünü oxucularına təqdim edir:

Ulu babam Dədə Qorqud –
Yol gəlirəm qədimlərdən.
Atam böyük Nizamidir –
Xatirəm var əsrlərdən.
Füzulidən dərs almışam,
Hikmətinə qul olmuşam.
Nəsiminin tilsimində
Sac içində qovrulmuşam.
Haqqı deyib, söz üstündə
Diri-diri soyulmuşam.
Özüm Məhəmməd ümməti,
Haqqdan aldım bəsirəti.
Ehramına dayanmışam,
Yaradandan güc almışam.
Yoğrulmuşam dərgahında,
Odur ki, şair olmuşam!
Dönmüşəm şeyda bülbülə,
Sevgi, məhəbbət dilimdə.
Ətir çəkib, bal süzürəm,
İnci yatır qələmimdə!

Ümumiyyətlə, Şöhlətin yaradıcılığında dini ürfani mövzulara, obrazlara meyil qabarıqdır, hətta klassik-aşıqsayağı tərzdə qələmə aldığı «Qıfılbənd»i dini mistik məzmuna əsaslanır. Əslində, Şöhlət Əfşar bununla dini biliklərinə, şəriət qanunlarına qismən bələd olduğunu nümayiş etdirir, oxucusunu da bu bilgiləri bilməyə sövq etməyə çalışır:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Söylə, kimdir cəhənnəmdə gözətçi?
Hansı kitab orda kimi gözləyir?
Hansı kitab qərar tutub Cənnətdə?
Bu dünyada kimlər haqqı bilməyir?

Bu qəbildən suallarla qıfılbənd yaratmaq mümkündür, amma bunları müasirliklə, müasir insanın düşüncə tərzi ilə əlaqələndirmək daha çox vacibdir. Ənənədən, ənənəvi forma və üslublardan bəhrələnməni heç bir tənqidçi, heç bir şairə, yazıçıya nöqsan tuta bilməz və belə bir qadağa zolağı yoxdur. Lakin, tanınmış rus nəzəriyyəçisi J.Mineralov «Fərdi üslubun poetikası» kitabında yazdığı tövsiyyəni mən həm Şöhlət Əfşarın, həm də digər qələm dostlarımın nəzərinə ciddidən-ciddi çatdırmaq istərdim.

J.Mineralov yazır: «Əgər köhnə sənət nümunələrindən, ənənəvi poetikadan özünəməxsus yaradıcı bir şəkildə istifadə edə bilirsə, belə bir müəlif öz əsərində ən zəngin imkanlara malik məna kondensatı tapa bilər». Bax həmin bu «məna kondensatı» əsərin ədəbi-estetik mahiyyəti və ictimai-tərbiyəvi əhəmiyyəti, müasir insana nə dərəcədə lazımlılığı ilə ölçülür.

Klassik Şərq ədəbiyyatında çoxdan unudulmuş, lakin XX əsrin sonlarında bizim ədəbiyyatda yenidən qayıtmış lirik janrın TƏXMİS adlanan bir şəkli var. Təxmis əslində, özündən əvvəlki güclü bir klassikin fikrinə qoşulma əməliyyatıdır. Müxəmməs şəklində qafiyələnən axırıncı iki misrası, beyiti əvvəlki ustaddan olduğu kimi götürülüb təkrarlanır, əvvəlki üç misra isə poetik fikrə orijinal bir tərzdə qoşulur. Füzuliyə minlərlə təxmislər yazılıb, başqa ustadlara da yazılan təxmislər, Füzulinin özünün də təxmisləri mövcuddur.

Xalq yazıçısı Anar bu təxmis şəklinə özünün şeir yaradıcılığında sərbəst bir yenilik gətirdi, adını da «Klassik şairlərlə səsləşmə» qoydu… Bunlar ustadlardan ustadyanə bəhrələnmələrdir…

Ədəbiyyat tarixində belə ustadlardan ustadyanə bəhrələnməyə çoxlu misallar, faktlar mövcuddur. Elə dahi Nizami Gəncəvinin «Xəmsə»sinə neçə-neçə oxşar «Xəmsə»lərin yaranmasını yada salaq. Yaxud Avropa ədiyyatında da belə faktlar vardır. Maksim Qorki bu cür bəhrələnməni nəzərdə tutaraq yazırdı: «Burada iş yalnız formal, zahiri əlaqədə deyildir: iş onda deyil ki «Ölü canlar» əsərinin mövzusunu Qoqola Puşkin vermişdir. Puşkin özü də bu mövzunu ehtimal ki, ingilis yazıçısı Sterinin «Sentimental səyahət» kitabından almışdır. «Ölü canlar» əsərinin mövzuca



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Dikkensin «Pikvik klubu qeydləri» ilə bir olması da əhəmiyyətsizdir». Bəs, M.Qorki üçün əhəmiyyətli olan nə idi? Əhəmiyyətli olan o idi ki, «Ölü canlar», o dövrün rus həyatını doğru-düzgün əks etdirmişdi, dövrü üçün lazımlı, əhəmiyyətli, vacib milli probleminə, ictimai məsələsinə həsr olunmuşdu. Görürsünüzmü, rus ədəbiyyatının Qoqol kimi mütəfəkkirinin və onun «Ölü canlar» eləcə də «Müfəttiş» kimi dünya ədəbi şedevrləri olan əsərlərinin sujetləri, mövzuları alınma olsa da, elə bir qüdrətli sənətkarlıqla işlənmişdir ki, orijinallığı heç bir şübhə doğurmur. Söhbət sənətkarlıqla, bacarıqla bəhrələnmədən gedir. A.M.Qorki klassiklərdən öyrənmənin və necə öyrənmənin formulasını belə verir, özü də N.Tixonov, A.Fadayev kimi istedadlara: «Mənim fikrimcə yalnız klassiklərdən deyil, hətta düşmən ağıllı isə ondan da öyrənmək lazımdır. Öyrənmək demək nəyi isə təqlid etmək deyil, bəlkə ustadlıq üsullarını mənimsəmək deməkdir. İş üsulunu mənimsəmək, heç də ömür uzunu özünə götürmək deyildir, onu zənginləşdirmək və inkişaf etdirmək deməkdir».

Bu məsələnin üzərində belə təkidlə, bir az geniş dayanmağa səbəb Şöhlət Əfşarın çox ciddi bir yaradıcılıq axtarışı istiqamətinə düşməsi və vaxtilə «tabu» qoyulmuş, unutdurulmuş mövzulara qayıdışını təqdir etmək istəyindən doğur. Bir çoxları bu mövzuları müasir şeir üçün, bəlkə də lazımsız hesab edər. Məncə belə deyildir. Ən azı-ən azı Nizami Gəncəvi kimi dahi heç bir lazımsızlıq etməzdi. Məsələ vacib mövzunu, vacib mərtəbəyə, lazımlılıq əmsalı yükünə çatdırmaqdan gedir. Şöhlət hələlik bu ciddi məsələnin təfəkkür tərzində ifadəsində çətinliklə qarşılaşır, bunları müasirliklə, müasir insanın intellektual düşüncə tərzi ilə uzlaşdırmaqla yollar arayırsa, da buna tam müvəffəq olmur, ənənəvi klassik üslubun ahəng və ritmi onun fərdi üslubunu üstələyir. Bu «beyinə qoşulmalar», «klassiklərlə səsləşmələr» hələlik onda ənənəvi üslubun şəkli bərpasına xidmət edir, daha çox arxaik linqivistik vahidləri müasir şeirə gətirilir, qədim poeziyanın leksik-semantik obrazlarından sıx istifadə edilir.

Əlbəttə, Şöhlət Əfşar bir tərəfdən poetikada tarixiliklə müasirliyin arasında mənəvi körpünün sınmağa, qırılmağa qoymayan məqsədə xidmət edir, unudulmuş poeziya mövzusunu, irreal dini mistik mövzular vasitəsi ilə paralel dünya konsepsiyasına özü də bilmədən meyillənir və bununla da klassik, ənənəvi poetikanın imkanları hesabına müasir şeirimizin hüdudlarının genişləndirilməsinin mümkünlüyünü, bir növ, yada salır… Bütün bunlar yaxşıdır, bədii niyyətin və məqsədin özü mənalıdır, xeyirlidir…

Amma, Şöhlət hələlik klassik poeziyada istifadə olunmuş fikir və



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

düşüncə qəliblərindən müqavimətsiz istifadə edir; şeirlərində orta əsrlər metaforik estetik ölçülərinə boy verir, ənənəvi standartlara daha çox uyğunlaşmağa meyillənirsə də, bu qəliblə ifadə olunan amacı və amalı müasirliyə xidmətə yönəlikdir. Onun sovet dövrü ədəbiyyat funksionerlərinin qadağa zonasına düşüb unutdurulan münacatı, poetik tövhidi, nəəti, meracnaməni, tövbənaməni, fərd və fəxriyyələri öz şeirində bərpa etməyə çalışması, şəksiz ona paritet qazandırır… Hələ bu missiya ilkin halındadır, zəifdir uyuşmaq üzrədir, amma müasir oxucu üçün maraqlıdır milli mənəvi-əxlaqi və islami inam dəyərlərinə məhəbbət oyadır… Güman edirik ki, Şöhlətin müasir şeirə ənənədən götürüb gətirdiyi bu xətt getdikcə öz siqlətinə çatacaq, axtarışları ilə orijinallıq kəsb edərək müasir düşüncə tərzinə uyğunlaşacaqdır… «A dağlar», «Sızlayıram Qarabağ», «Hara getdi maralımız?», «Nadir Şah Əfşar», «Ya Rəbb», «Eşit məni», «Yalvar Allahına», «Sazın sehri», «Ürək dostlarım», «Ürəyim» şeirlərində olduğu kimi…

Prof.Akif Bayramovun «Səmimi hisslər şairi» məqaləsindən: «Şair Şöhlət Axundovun yazdığı şeirlər özünün səmimiliyi, aydın təfəkkür tərzi, lirikliyi ilə diqqəti cəlb edir. Onun qələmə aldığı hər bir mövzuda lirik şeirlərdə məfkurə aydınlığı bariz şəkildə özünü göstərir». Müəllifin dəqiq müşahidəsinin digər cəhətlərini təqdir etməklə, onun «məfkurə aydınlığı» tezisinin üzərində dayanmaq istərdim.

Müasir şeirimizdə «məfkurə tənginəfəsliyi», «məfkürə asması» xəstəliyi açıq şəkildə duyulmaqda, hiss olunmaqdadır. Məfkurə bir tərəfdən müəllifin ideya estetik qayəsi olduğu kimi, digər tərəfdən həyat hadisələrinə, sosial problemlərə ziyalı münasibətidir. Sovet dönəmində sosialist ideologiyasına, kommunist məfkurəsinə xidmət edən çox güclü bir ədəbiyyat yaranmışdı. Bu o quruluşun tələbi olsa da, bunun özünün də öyrəniləsi çox mühüm ənənələləri, örnəkləri və vacib olan təcrübi cəhətləri var ki, indinin özündə milli idologiyaya xidmət etmək üçün bundan bacarıqla və sənətkarlıqla istifadə etmək lazımdır. Məfkurəsiz bədii əsər, Füzuli babamızın təbirincə desək, «özülsüz divara» bənzəyir. XIX əsr rus demokratlarından biri demişdir: «Şair olmaya bilərsən, amma Vətəndaş - Vətənpərvər olmağa borclusan!» Müasir poeziyamızda süni estetikçilik xatirinə məfkurəliliyi poeziyanın siyasiləşməsi adı altında uzaqlaşdırmağa cəhd edən təmayül yaranıbdır. Poeziya siyasiləşməməlidir, biz də bunun tərəfdarıyıq amma, «milli ideelogiyasız», «milli məfkurə» xəttindən, estetik qayəsindən uzaq düşmüş poeziya heç bir səmərə verməz, təsir gücündən məhrum olar. Şair vətəndaş, vətənpərvərlik hissinin tərənnümünə,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

humanist ideyaların vəsfinə xidmət etməlidir ki, biz Şöhlət Əfşarın yaradıcılığında «Sükutdan asılmışam» və «Dodaqdan könüllərə» kitablarında bu xəttin aydın, aşkar mövqeyini görürük. Bu cəhətdən bu mövzuya, «milli ideologiyaya», «milli məfkurəyə», vətəndaşlığa və vətən-pərvərliyə, yurdsevərldiyə həsr olunan «poetik sözə sövdalanır» Şöhlət Əfşar… Ona görə də «Sükutdan asılmışam» kitabındakı mühüm bölmələr-dən birini «Canım Azərbaycan, qəlbim Qarabağ», «Dodaqdan könüllərə» kitabında isə «Azərbaycan- ürəyim, məmləkətim» adlandırılması ritorik səslənmir, inandırır və bu başlıqlar altında təqdim olunan şeirlərin əksəriyyəti bu sevdanın şölələrindən xəbər verir. Şöhlət «Ey vətən» şeirindəki motivi, vətənpərvərlik hisslərini bütün şeirlərində, hətta sırf məhəbbət mövzusunda yazdığı şeirlərin ovqatına da qata bilir, dəfələrlə qarşılaşdığımız obrazların gücü ilə özünün böyük Azərbaycana olan məhəbbətini poetik şəkildə izhar edir:

Şiş qayalar, məğrur dağlar, güllü yaz,
Azərbaycan, al-əlvansan, ey Vətən!
Bir gözəlsən-hörüklərin Kür-Araz,
Azərbaycan, sən canımsan, ey Vətən!

Qəsbkarlar əl atdılar qılınca,
Vuruşdular qılıncları sınınca.
Teymurləngə bir dağ çəkdi Əlincə,
Xaqanlardan öc almısan, ey Vətən!

Yer üzünün əzəməti Qobustan,
Çıraqqala, Qızqalası, Gülüstan,
Qızıl qanlı şəhidlərin yurdusan,
Əyilməyən vüqarımsan, ey Vətən!

Bu şair Şöhlət Əfşarın qəlbinin, vətənpərvər ürəyinin monoloqu-dur. «Bir gözəlsən hörüklərin Kür-Araz» orijinal bənzətməsi, «qılınca, sınınca, Əlincə» orijinal qafiyələri ilə süslənmiş lirik monoloqu… Belə bir monoloq – yaxşı mənada poetik ovqat «Dodaqdan könüllərə» kitabında «Sən üzülmə, ay ana!» sərlövhəli şeirində Murovdağda düşmənlə sinə-sinəyə dayanan azərbaycanlı döyüşçünün, əsgərin dilindən deyilir və haradasa yenə də Böyük Vətən müharibəsi dövründə yazılmış şeir ənənələrinin müasir dövrdə yaxşı davamı təsirini bağışlayır:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Murov dağda, səngərdəyəm, ay Ana,
And içirəm şəhidlərin qanına,
Qoymaram ki, düşmən baxsın bu yana,
Sən üzülmə, heç üzülmə, ay Ana!

Öz qanına bələyəcəm «yan»ları,
Barıt ilə doyuracam onları,
Ayaq altda əziləcək canları,
Sən üzülmə, heç üzülmə, ay Ana!

Ağ saçına, o, Kəbəyə and olsun,
Oğlun gərək düşmənlərdən öc alsın,
Əgər ölsəm, Vətən, başın sağ olsun!
Sən üzülmə, heç üzülmə, ay Ana!

Bu müaisr şeirimizdə hələ də qıtlığını çəkdiyimiz hərbi vətənpərvərlik mövzusunda yazılmış milli əsgərin döyüş andıdır, vətənpərvər ruhlu poetik monoloqudur, döyüş-əsgər marşıdır…

Şöhlət Əfşar oxuculara yeni təqdim etdiyi «Dodaqdan könüllərə» kitabının «Azərbaycan- ürəyim, məmləkətim!» adlandırdığı bölməsində toplanmış «Sızlayıram, Qarabağ!», «Oxuma, bülbül», «Necoldu?», «Hara getdi maralımız?», «Sitəm olub səndən ayrı yaşamaq», «Qəribəm vətəndə», «Qarabağ inləyir», «Bayatılar», «Kəpəzim», «Nadir şah Əfşar» qəbildən şeirlərində xalqımızın, millətimizin düçar olduğu erməni və ermənipərəst düşmənlərimizin torpaqlarımızı talan etdiyi ağrını duyğulu, yanıqlı vətənpərvərliklə içəridən yaşayır, bu dərdin mənəvi, milli, insani, ruhi sirrinə dalmağa çalışır. Millətin daxilindən gələn, hələlik yatmış vulkan kimi uyuyan enerjisini oyatmağa cəhd edir:

Qövr eləyib, yaralarım qan verir,
Günlərimi mən sayıram, Qarabağ.
Bağrım başı göyüm-göyüm göynəyir,
Həsrətindən sızlayıram, Qarabağ.

Sonraki bəndlərdə bu yanıqlı ovqat «Ağı deyib bozlayıram, Qarabağ», «Çadırlarda tozlayıram, Qarabağ», «Şoranlıqda yazlayıram, Qarabağ» tapşırma misraları ilə davam etdirilir, arxaizm olan «bozlayı-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ram» ifadəsinin gətirdiyi «tozlayıram», «yazlayıram» ifadələrinin yerində, orijinallıqla işəldilməsi, ona təzə nəfəs verməsi tamamilə yanıqlı əhval yaradır, «Oxu bülbül, oxu bülbül qoy səsin, Ürəyimdə kaman kimi inlə-sin» məhşur xalq mahnısının motivinə qoşularaq «Oxuma, bülbül» melodik lirizmlə yoğrulmuş dərdli mahnı ovqatına çevrilir. Şöhlət xalq mahnısının yaratdığı ovqata qoşularaq paradoksal hissləri qarşılaşdırır, biri təsdiqdə olan, Şöhlətdə isə inkarda işlədilən dərdli, yanıqlı hisslər tüğyanı əmələ gətirir:

Onsuz da boğullam dərdin əlində,
Belə dərdli-dərdli oxuma, bülbül!
Ürək pərişandı qəmin əlində,
Belə dərdli-dərdli oxuma, bülbül!

Qaçqınam, köçkünəm öz Vətənimdə,
Dərd ilana dönüb gəzir içimdə,
Qalmayıb taqətim, itib gücüm də,
Belə dərdli-dərdli oxuma, bülbül!

Nədən hüzün çöküb gözəl səsinə?
Ah-nalə etməkdə  söylə, qəsdin nə?
Bir dərd də gətirmə dərdim üstünə,
Belə dərdli-dərdli oxuma, bülbül!

Paradoksallıq və lirik hissin dramatizmi oradadır ki, Sarı Bülbüülün oxuduğu mahnı elə təqdim olunur ki, guya indiyə qədər Bülbül «şövqün»dən, «keyfin»dən oxumuşdu, indii isə lirik xarakterin dərdinə qoşulub ah nalə qoparır… Əslində əvvəlki motivdə – Bülbül itirdiyi gülünün, – məhəbbətinin ahi- zarını çəkir, xarın əlindən fəryad qoparır, burada isə lirik xarakter Vətən itirib, Qarabağ təkin gülşənini itirib, Vətəndə Vətənsiz yaşayır...

İki dərdli lirik obrazın dərdləri qarşılaşdırılır, sanki mənəvi hisslər tərəziyə qoyulur, dərd-dərdi qovmur, yüngülləşdirmir, əksinə gücləndirir, daha da dözümsüz edir:

Yoxsa, bir xəbər var Xarı bülbüldən,
Bəlkə bir səda var, Çormandan, Kirsdən,
Niyə zarıyırsan, dan söküləndən?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Belə dərdli-dərdli oxuma, bülbül!

Hətta Şöhlət xalq mahnısından keçən «Bülbül, işin ahı-zardır» misrasının məna yükünü lirik xarakterinin üzərinə köçürür, lirizmini həmin məna tutumuna uyğun kökləyərək yazır:

İşim ahi-zardır, günlərim qara,
Həsrət varlığımı çəkibdi dara,
Vurma ürəyimə sən də bir yara,
Belə dərdli-dərdli oxuma, bülbül

Əslində, Şöhlət Əfşar bu şeirində poetik fənd işlədir – iki dərdlinin daşıdığı dərd yükünü tarazlaşdırmır, üst-üstə qoyur, dərdin ağırlığının dəyərini, qiymətini dərk edir, dərdin ağırlığının yaratdığı, üst-üstə qalandığı ucalığa yüksəlir, xalqının, millətinin keçirdiyi faciəni, fəlakəti özününküləşdirir, xalqının, millətinin dərd, fəlakət, faciə dəyərində olan müsibətini şəxsi müsibəti kimi yaşamağı bacarır, dərd bülbül fəğanına dönüb onun içində «cəh-cəh» vurur, ürəyinin tellərini sızıldadır, itirilmiş vətən dərdinə çarə axtarır, gələcək nəsillər qarşısında mənəvi borcunun siqlətini dərk edir. Həsən Mirzəyə/ filologiya elmləri doktoru, professor, məhşur dilçi alim, millət vəkili, aşıq sayağı –Göyçə ədəbi üslübunda şeirlər yazan Həsən Mirzəyev nəzərdə tutulur/ müraciətlə, ona xitabən «Nə deyəcək» şeirini yazır, müasirlərini özü qarışıq qınağa və sınağa çəkir:

Ata yurdu yol gözləyir illərdi,
Qarabağım, Dərələyəz, həm Vedi,
Miras qoysaq gənc nəsilə bu dərdi,
Nə deyəcək şəhid olub ölənlər?!
Nə deyəcək bizdən sonra gələnlər?!

Bu bədii sualların cavabı oxucu qəlbindən baş qaldırır, xalqımızın XX əsr boyunca düçar olduğu erməni vandalizminə və işğalına, soyqırımına qarşı nifrət hissləri və mübarizə amalı doğurur… Dərd içində qovrula-qovrula bir şaman istəyi ilə sağa-sola dərdə cavab sualları yağdırır, Məcnun səhralarda Leylisini axtardığı kimi, yurd həsrəti ilə həsrət qaldığı yurdları axtarır:

Darda qalıb Kirs ilə, Corman qoşa,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Əsir düşüb Ağdam, Laçın, həm Şuşa,
Füzulidən - Yanıxdakı çal daşa,
Cənnət məkan o diyarlar necoldu?
Tox durmuşuq - sanki xana vəzirik,
Deyib-gülüb, arsız-arsız gəzirik;
Baş açmıram, buna necə dözürük?
Arpa çayı, buz bulaqlar necoldu?

Şöhlət Əfşar yuxarıda qeyd etdiyim kimi, klassiklərə, ənənəvi şeirin ruhuna qoşulduğu kimi oxuduqlarına, ruhuna yaxın olanlara da, ruhən qoşula bilir, həmin dalğada, həmin notda gəzişmələri bacarır və «Hara getdi maralımız?» adlı kədər dolu nəğmə, mahnı, nisgilli poetik melodiya beləcə yaranır. «Qarabağın maralı» şedevr mahnı mətninin havacatı müasir – Şöhlət Əfşar şeirinə bacarıqla, yatımında, yönümündə transformasiya edilir. Şeirin əvvəlində Şöhlət Xan əminin qoşduğu bu məhşur mahnının bəndini epiqraf gətirir:

Turşsu olsun oylağımız,
Gözəl Şuşa yaylağımız,
Sən olaydın qonağımız,
Azərbaycan maralı.

Bu Şuşanın, İsa bulağının, Turşsu yaylağının, Qarabağın lacivərd oylaqlarının çal-çağırlı, qonaq-qaralı, xoşbəxt çağlarıdır, ellərin obaların hər bir bulaq üstündə yurd saldıqları vaxtlardır. Şöhlət bu növrağı dağılmış ellərimizin nisgilini çəkir, nostalgiya onu rahat buraxmır, əfsanələrdə olduğu kimi ürəyindən qan süzülən yaralı maral obrazı sözün sehri ilə beləcə yaranır, ürəklərə dağ çəkir, könülləri göynədir:

Hanı Turşsu oylağımız?
Hanı Şuşa yaylağımız?
Niyə itdi novrağımız?
Hara getdi maralımız?

Əlim yetmir Qırxqızıma,
Cənnət İsabulağıma,
Ağlama, könül, ağlama,
Qara geydi maralımız.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Vurulubdur kürəyindən,
Örpəyi düşüb çiynindən,
Qan süzülür ürəyindən,
Yara yedi maralımız.

İndi Xan əmi kimi bəstəçi istəyirəm bu dərdə, bu yanğıya yanğılı bir melodiya bəstələsin, gözəl istedadlı bir rəssam istərəm bu sözlə yaranan dərdli söz tablosunu fırça ilə çəkib rəsm tablosuna çevirsin…

Bu şeirdə bir bayatı şirinliyi, bir bayatı həzinliyi, bir bayatı lakonikliyi var. Bayatı dedim, yadıma Şöhlətin bayatıları düşdü. Bu kitabda Şöhlət Əfşarın on bir bayatısı təqdim edilibdir. Tarixin sınaqlarından çıxıb günümüzə gələn bu formada da Şöhlət müvəffəq ola bilir və qədim bayatı formasına müasir siyasi-ictimai, sosial məzmun aşılayaraq onu, bir növ təzələyir ictimai-siyasi, sosial məzmunlu bayatılar dəstini oxucusuna təqdim edir:

Əzizim sizdə qaldı,
Dəsmalım sizdə qaldı,
Qəlbim Türkman elində,
Canım Təbrizdə qaldı.

Əzizim dərd yandırır,
Sızladır, bərk yandırır,
Görmüşük su söndürər,
Araz bizi yandırır.

***Yaxud, başqa bir bayatısında:***

Əzizinəm qalası,
Yoxdur dağın lalası,
Təbriz, Təbriz deyirdik,
Hanı Şuşa qalası?

***Yaxud,***

Əzizim Qarabağı,
Dərd sarıb Qarabağı,
Qorxuram ölüb gedəm,
Görməyəm Qarabağı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İzaha ehtiyac məncə yoxdur. Hamısı bir-birindən orijinal, lakonik, ahəngdar, emosional, müasir ladda olan bayatılardır, özü də Qarabağın «nərmə-nazik» bayatısı…

Yeri gəlmişkən, onu da qeyd edim ki, Şöhlət Əfşar hecada olduğu təkin, sərbəst şeirdə də ( «Sən yoxsan» şeirindəki kimi) hissin qoşma, gəraylı şirinliyni saxlayır.

Şöhlət Əfşarın şeir yaradıcılığında bir cəhəti də qeyd etmək istərdim, o da tarixilik və müasirlik kateqoriyası anlamında tarixi obrazlara, mövzulara, adlara sıx-sıx müraciət etməsidir. Şöhlət elə bil bununla itirilmiş, unudulmuş yaddaşı təzələmək istəyir. Xüsusən, Şöhlətin şeirlərində əsir düşmüş o yerlərin mənzərəsi canlandırılır, Azərbacanın demək olar ki, bütün bölgələrinin toponimləri, hidronimləri, oykonimləri sıralanır, xatırlanır, yada salınır, Şöhlətin görümündə və duyumunda bu yerlərin təbiəti təzədən canlandırılır… Əgər, Göyçə, Zəngəzur, Qarabağ mahallarındakı məskənlərimiz, yurd yerlərimiz, dağlarımız, çaylarımız, bulaqlarımız, yaylaqlarımız həsrət dolu bir nisgillə xatırlanırsa, Şöhlətin «Kəpəz», «Daşkəsən», «Xızı», «Ağsu aşırımı» qəbildən şeirlərində müəyyən bədii obrazlar, bənzətmələr təkrar olunsa da, adları çəkilən yerlərin gözəllikləri tərənnüm olunur, şairin bir insan kimi Azərbaycanın təbiətinə vurğunluğu, heyranlığı və məhəbbəti əksini tapır… Əslində bu torpağa məhəbbətdir, torpaq yaddaşının şeirin ruhuna hopdurulmasıdır, həm də yeni nəsil gəncliyə, o yurdlardan perik düşən, hələ də o yurdları görməyən övladlarımıza şeir vasitəsilə itirilmiş yurd yerlərimizin adlarının ötürülməsidir.

Şöhlət Əfşarın oxuculara  təqdim edilən «Dodaqdan könüllərə» bu yeni şeirlər kitabında  10 may 1992-ci ildə yazdığı iki hissədən, on dörd bənddən ibarət olan «Nadir Şah Əfşar» adlı əsəri, mənim xüsusilə xoşuma gəldi. Bunun müəyyən səbəbi var…

Birinci budur ki, Şöhlət bu şeiri Şuşanın ermənilər tərəfindən 08 may 1992-ci ildə işğalından təsirlənərək, bu işğalın gətirdiyi ağrı-acının, dərdin içində qovrularaq qələmə almışdır. Şöhlət şeirin başlığından sonra belə bir epiqraf yazır: «08 may 1992-ci il tarixdə Azərbaycanı acı xəbər sarsıtdı. Qarabağın tacı, qürur qalamız Şuşa şəhəri ermənilər tərəfindən işğal olundu… Vaqifin, Mir Möhsün Nəvvabın, Natəvanın, Cabbarın, Üzeyirin, Bülbülün ruhları nalə çəkdilər…»

Və Şöhlətin də ruhu, bu nalə çəkən ruhlara qoşulub fəğan eyləyir, bu dar, faciəvi məqamda özünə, yurduna, xalqına kömək, xilaskar



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

şəxsiyyət axtarır, özünü ora-bura vurur, qəhərəmanlar yurdu olan Azərbaycanın, Qarabağın bu çarəsiz hala düşməsinin səbəblərini sorğulayır, axırda tarixə qayıdış edir…

Sonra XVIII əsrin böyük, əvəzsiz, misilsiz sərkərdələrindən biri, əvvəl Nadirqulu xan adı ilə  məhşurlaşan, sonra Muğanda böyük qurlutay çağırıb, Şərqdə ilk dəfə seçki yolu ilə, demokraitk üsulla hakimiyyətə gələn və Nadir Şah Əfşar titulu qazanan, türk oğlu türk olan, bütöv Azərbaycan yaradan tarixi şəxsiyyətə üz tutur, onun qəhrəmanlıq səhifələrini bir-bir şeir dli ilə göz önünə gətirir:

Bir mərd igid idin, Şahən-Şah oldun,
Ucaldın göylərə, Nadir Şah Əfşar.
Qarı düşmənləri lərzəyə saldın,
Səs saldın cahana, Nadir Şah Əfşar!

İmperiya qurdun bir yanı Bəsrə,
Bir yanı Uzaq Çin, bir yan Türküstan.
Adını həkk etdin əsrdən-əsrə,
Qarşında diz çökdü qoca Hindistan!

Beləcə, bütöv Azərbaycan yaradan, qoca Hindistanı diz çökdürən, Xəzərboyu bütün Azərbaycan torpaqlarını işğal edən Rusiyanı Xəzər sahillərindən kürüyən və ayağına gətirən Nadir Şah Əfşar (1688-1747) özü də xəyanətin qurbanı olur. Azərbaycan parçalanır, xırda xanlıqlar əmələ gəlir və bu xanlıqlar Rusiyanın işğalına qədər bir-biriləri ilə didişirlər və sonda qəvi düşmənə yem olurlar… Bütün bu tarixi həqiqətləri Şöhlət Əfşar şeirinin birinci hissəsində, bir neçə bənddə ümumiləşdirməyə müvəffəq olur…

Gözünü dünyaya yumduğun andan,
Xəyanət başladı xalqa, ölkəyə.
Məğribdən-Məşriqə bir Azərbaycan
Böləndü xanlığa, kiçik bəyliyə.

Kiçik xan oldular, balaca bəylər,
Dərbənddən Təbrizə şaqqaladılar.
Vətən böləndükcə lap kiçildilər,
İtdi şan-şöhrət də naçar qaldılar.

Tarixin bu ibrətamiz dərslərindən müasir «bəylər» də ibrət götür-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

məlidirlər, Vətənin ən ağır məqamında «xan-xan oyunu» qurdular, «balaca bəyliklərini» də itirdilər, Vətəni də, milləti də, özlərini də pis günə qoydular, naçar vəziyyətə saldılar…

Tarixi keçmişimizə bu cür poetik ekskurs edən Şöhlət şeirinin ikinci hissəsində Vətəninin, xalqının bu ağır məqamında Nadir Şah Əfşar kimi bir şəxsiyyət axtarır. «Hardasan, hardasan, Nadir Şah Əfşar?!!» nidalı sualı ilə həm müasirlərinə, həm də tariximizə müraciət edir:

Göyçə qara geyib, Qarabağ darda,
Düşmən əl uzadıb dörd yandan yurda,
Bəsdir tikə olduq biz acgöz qurda?!
Hardasan, hardasan, Nadir Şah Əfşar?!

Qalx, yandır yenə də məşəlimizi,
Gəl al qəsbkarın əlindən bizi -
Silinsin Vətəndən düşmənin izi!
Hardasan, hardasan, Nadir Şah Əfşar?!

Ədəbiyyat tariximizdə böyük dahi M.F.Axundovdan qalma belə bir örnək hamıya məlumdur ki, «senzura şəraitində tarixi mövzuya müraciətlə müasir məsələlərə tarixilik donu geydirməklə» problemi şərh etmək…

Azərbaycan ədəbiyyatı tarixində bu yolla bir çox sənətkarlar getmişlər. Tarixi şəxsiyyət olan Nadir Şah dövrünün hadisələrinə isə ilk dəfə əvəzedilməz ictimai xadim, nasir, dramaturq, publisist, müəllim və doktor Nəriman Nərimanov müraciət etmiş, 1899-cu ildə qələmə aldığı «Nadir Şah» faciəsi ilə ədəbiyyatımızda tarixi faciə dramın ilk nümunəsini yaratmışdır. Bütöv bir əsr heç kim bu mövzuya qayıtmamış, XX əsrin axrıncı onilliyinin başlanğıcında isə Şöhlət Əfşar ulu babasının möhtəşəm tarixi şəxsiyyətini xatırlamış və ilk dəfə poeziyaya onun obrazını gətirmiş, böyük şəxsiyyətin tarixi əhəmiyyətini və müasir dövrdə ona bənzər şəxsiyyətə əhəddi-ehtiyac olduğuna işarə etmişdir… Orijinallıq etmiş, tarixiliyə müasirliyin donunu geydirmişdir.

Və Şöhlət Əfşarın yaradıcılığında poetik epizmə, epik təhkiyəyə meylini nəzərə alaraq, buradaca qeyd etmək istərdim ki, o bu şeiri, bu mövzusu ilə samballı bir dramatik-epik poemanın bünövrəsini qoymuşdur və tarixi yaddaşları təzələyən belə bir əsəri yaratmaq imkanları onda var-dır…



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Mənə görə minilliklər boyu bizi məhv edən, sındıran, türkü parçalayan ən dəhşətli unutqanlığın biri «tarixi yaddaşın» olmamasdır. Tarixin yaddaşı torpaq, Vətən, yurd yaddaşıdır. Ulularımız, dədələrimiz Orxon Yenisey çöllərindən, Sibir yaylalarından tutmuş Don sahillərinə, Dəşti Qıpçağa qədər, Qafqaz dağları silsilələrindən tutmuş Rum ellərinə qədər, Altaydan tutmuş Ural silsiləsinə qədər «daş yaddaşı» silsilələrinə baxmayaraq, bizlər bu «daş yaddaşlarını», «torpaq yaddaşına» yəni Vətən – ulu, yenilməz, əyilməz, doğma Vətən yaddaşına çevirə bilmişikmi? Əsla…! Şöhlət Əfşarın bir vətəndaş kimi, bir türk oğlu kimi, bir azərbaycanlı qələm sahibi kimi ağrısı, yanğısı da buradan gəlir, –

Yenə qövr eləyib ürəkdə yaram,
Çarəsi tapılmır yaramı saram.
Haqqı harda gəzəm, harda axtaram,
Qarabağ inləyir zillət içində.

– deyərək, özü də bir vətəndaş - insan kimi inləyir, zillət çəkir…

Bu məqamda yenə də prof. Akif Bayramovun Şöhlətin yaradıcılığı haqqındakı bir fikrə istinad edirəm: «Onun lirik ruhlu şeirləri xüsusi ictimai siqlətlə səslənir və hazırki quruluşumuza məxsus nikbinliyin, həyata, insanların xoşbəxt sabahına inamın ümumiləşmiş ifadəsi kimi mənalanır. Onun poeziyasında cavan nəslə müraciət mühüm yer tutur. Bu şeirlərində şairin əsas məqsədi gələcək nəslin yüksək ideallı bir vətəndaş kimi ayıq və sağlam görməkdir.»

Şöhlətin kitabındakı «Azərbaycan-ürəyim, məmləkətim», «Eşqdir mehrabı uca göylərin», «Könlümdən qopan duyğular», «İthaflar», «Gəncliyin baharlı gülüstanından üç yarpaq» bölmələrində cəmlənən şeirlərin mövzularından asılı olmayaraq əksəriyyətinin, – bədii-estetik qayəsi ünvanlıdır, milli-mənəvi dəyərlərin gələcək nəslə aşılanmasına yönəlikdir…

Bununla bərabər Şöhlət Əfşar təbiətə, fərdi, insani məhəbbətə, «gəlimli, gedimli dünyaya»-bu bəşəri və insani, əbədi mövzulara öz baxışı, öz yanaşma bucağı olan, bunları mənalandırmağa çalışan qələm əhlidir.

Şöhlətin məhəbbət lirikasında özünəməxsus, öz yaşantılarına, duyumuna uyğun məna çalarları var – o da, ondan ibarətdir ki, Şöhlət saf, təmiz duyğusu ilə göstərir ki, dünyada hər şey dəyişsə də, bircə məhəbbət dəyişmir, öz mahiyyətini saxlayır, illər keçdikcə, yaş üstünə yaş gəldikcə təkcə məhəbbət dəyişmir, gözəlliyini itirmir. Şöhlət Ulu Nizaminin



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

«Eşqdir mehrabı uca göylərin» əbədiyaşar formulasını müasir anlamda təsdiqə çalışır, qəzəldə, qoşmada, gəraylıda ənənəvi obrazların məngənəsinə düşsə də, birdən ayılır, müaisr anlamın obrazlarına müraciət edir və «Cəbrə salmısan» təkin orijinal bənzətmələrə istinad edən müasir intelektual anlamda lirik şeir yaradır:

Sevgimə cavabı cəbrə salmısan,
Düsturunu elə işarət mənə,
Bir kilid vurmusan, düyün çalmısan,
Açmaq üsulunu gəl öyrət mənə.

Elə bir tənliyi qurmusan ki, sən,
Surəti, məxrəci, nə də kökü var,
Ha sistem qururam, cavab olmur tən,
Aç bu düsturunu, insaf elə, yar.

Qorxuram Bermuda salasan məni,
Xəbərsiz-ətərsiz batmaq qorxum var.
Cazibəndən çıxıb itirsəm səni,
Bil ki, meteoram, yanmaq qorxum var!

Məhəbbət, sevgi insanın özünüdərk yolunda ən dəyərli məqamlardan biridir. Biz məqam anlayışı zaman anlayışı yerində yox, fəlsəfi mahiyyətdə işlədirik. «Məqam» - «Muğam» bunlar deyəsən elə yaxın, doğma çalarlara malikdirlər. Məqamında gələn sevda – məhəbbət insan ömürlüyünün öznüdərk, müdrik, katarsis, çevrilmə mərhələsini təşkil edir və yaxşı ki, Şöhlətin hisslərinin həyati poetik dərkinin belə məqamları ilə qarşılaşırıq. Belə olmasaydı, Şöhlət «Bir əcəl kimiymiş sevgi də, Allah!», «Oxu, qoca çinar, oxu uca eşqin sevgi himnini», «Eşqinin oduna yanandan bəri, Dəyirman daşıyam, dərd üyüdürəm», «Ya Rəbb! Eşit məni bir diləyim var, Eşqin qanununu Sən yaz yenidən» yazmazdı, «qara sevda ilə qol-boyun olmazdı».

Bu məqamda tanınmış yazıçı, publisist Elçin Kamalın Şöhlət Əfşar haqqında yazdığı sözlər yadıma düşdü: «Şöhlət Əfşar sözə sevdalı şairdir. O sözə xəyanət etmir. Nədən yazır-yazsın, istər sevgidən, istər dərdlərimizdən yazsın, istərsə də təbiətdən, fərqi yoxdur bütün misralarda şair ürəyinin döyüntülərini eşidəcəyik. O duyğularında çox səmimidir. Buna görə də, ona inanırsan. Birsözlə, Şöhlət Əfşarın şeirləri kövrək hiss-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

lər oyada bilir».

Dərdə düşdüm bir ilahi sevdadan,
Sevda dərdi tükənməyə, bitməyə.
Qorxuram ki, ölüb gedəm dünyadan,
Bu dərdi çəkməyə ömrüm yetməyə.

«Sevda dərdi» Şöhlətin qəlbində tükənməzdir, bitməzdir. «Dərdə düşdüm bir ilahi sevdadan» poetik deyimi, fikri də elə-belə, boş yerə yaranmır və bu söz yükünün altında Şöhlət Əfşarın poetik düşüncəsinin tamamilə özünəməxsus qatları açılır, insanın daxili dünyasında, mənəvi aləmində baş verən hissi kolliziyadır, dəyişmələr, çevrilmələr baş verir və «bu dərdi çəkməyə bir ömür belə yetməyir». İnsanın qəlbində bəslədiyi ilahi sevgi yerdə qalan bütün sevgilərdən üstün olduğu, insanın insanı unutmağı asan olmaması şeir dililə aşağıdakı şəkildə sübuta yetirilir:

Bülbülün vəfası gül soluncadır,
Arının sevdası bal alıncadır,
Pərvanənin eşqi kül oluncadır!
Unuda bilmirəm, əlimdə deyil.

Bülbül də, Arı da öz eşqlərində, şairə görə vəfasızdırlar. Biri gül soluncaya qədər fəqan edir, digəri də şirə çəkib bal alıncaya qədər çiçəklərin başına dolanır.

Pərvanə isə eşqidə bunlardan fərqlənir, fədakardır, o yanıb kül olana qədər eşqində vəfalıdır.

Bax, bu ənənəvi obrazlara yeni baxışdır. Axtarıb, tapıb!!.... Amma, müəyyən hallarda, xüsusən məhəbbət mövzulu şeirlərində Şöhlət klassik poeziyada hazır şəkildə olan arxaik obrazları çox üstünlük verir, klassik məhəbbət obrazlarını müasir şeirə gətirir, elə bil axtarışdan yorulur yaxud da tüğyan edən sevgi, məhəbbət hisslərini öz obrazları ilə ifadə etməyə gücü çatmır, tükənməz hazır mənbəyə müraciət edir. Leyli–Məcnun, Yusif–Züleyxa, Əsli–Kərəm, «könlümün şahı», «qəlbimin hakimi», «ruh», «ismi-pünhan», «sayə», «dərgah», «mail olmuşam», «hilal-qaş», «abi-kövsər», «şahi-mərdan», «ay bimürvət», «uca dərgah», «niqab», «qəlbimi inlədən ox», «sinəmə dağ çəkdi», «qiyamət günü», «faili muxtar», «mina gərdən», «əlif-qədd», «könlümə sultan, fikrimə vəzir» qəbildən olan arxaizmlər onun şeirinin havasını da arxaikləşdirir, olduqca



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

müasir, səmimi hisslərə ekzotik muzey paltarı geydirir…

Amma, dediyimiz kimi axtaranda tapa bilir, «Ay zalım» şeiri də bu qəbildəndir. O, klassik obraza təzə yozum verir, ona orijinal baxış bucağından baxa bilir, arxaik obraza münasibəti yeniləşdirir:

Eşqin atəşinə atmısan məni,
Dar ağacı qurub, asmısan məni,
Qul edib, qullara qatmısan məni,
Leylinin nəyisən, söylə, a zalım?!

Bimürvətsən, ya insafsız, ya qansız,
Eşqin qatilisən haqsız, imansız.
Qəsdin yandırmaqdı odsuz, ocaqsız?
Əslinin nəyisən, söylə, a zalım?!

Bu şeirin poelinqivistik layı tamamilə ənənəvi şeirdən gəlsə də, «Leylinin nəyisən, söylə a zalım?!», «Əslinin nəyisən, söylə, a zalım?!» bədii sualları mahiyyəti təzələyir, münasibəti yeniləşdirir, klassik poetik situasiyanı müasirləşdirir, ənənəvi üslubun müasirlik ladı tapılır… Belə olanda Şöhlətin «Oxu, qoca çinar», «Ya Rəbb! Eşit məni», «Qısqanıram», «Sevəndən öyrən», «Həsrətin», «Yalvar Allahına», «Necə gizlədim», «Bəy gəlir, gəlin gəlir», «Bu qız gəlin köçəcək», «Sənin ala gözlərin» qəbildən şeirlərində müasir, həyati reallıqlara söykənmiş səmimi, inandırıcı, gerçəkdən yaşanmış səmimi hisslər oxucusunu inandırır, təsirləndirir, duyğulandırır… Toy adət-ənənələrimizə uyğun etnoqrafik detallar, insana məxsus sevinc, qohum qardaşın şadlığının milli mahiyyəti xüsusən son adlarını çəkdiyim şeirlərdə daha qabarıqdır.

Şöhlət Əfşarın bu kitabında «Könlümdən qopan duyğular» bölməsində toplanan şeirlər dostlara, yaxınlara, bir sıra müasir sənət adamlarına ünvanlanmış ithaflardır. Doğrusu, müasir şeirimizdə baş alıb gedən «umacaqlı» ithaflardan heç cürə xoşlanmıram və bunu mənfi hal kimi qiymətləndirirəm. Amma Şöhlət bu yolla getməmişdir. O, hörmət etdiyi, sevdiyi, şəxsiyyətini həqiqətən qiymətləndirdiyi gerçək insanların xarakterik obrazlarını yaratmış və müasir sosial mühitdə yaxşı insanların təqdir olmasının ictimai mahiyyətinə diqqət vermişdir… İnsan həyatını bəzəyən, zənginləşdirən, ona sevinc və Qürur gətirən faktları tərənnüm etmişdir.

Şöhlətin, bu tipli bu mövzuda qələmə aldığı şeirlərdə, onun bir



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

insan kimi başqa bir xüsusiyyəti də ortaya çıxır. Bu da ondan ibarətdir ki, o ətrafında, mühitində, həyatında baş verən hadisələrə biganə qalmır, xoş, nikbin, yaxud qəmli, kədərli hadisələrə həssas bir insan, şair kimi reaksiya verir, keçirdiyi hissləri, duyğuları, onlara münasibətini şeirlərilə ifadə edə bilir. Bu isə öz növbəsində onu yaşadığı zamana, mühitə sıx bağlayır, bir qələm sahibi kimi iç dünyasının istiliyini biruzə verir… Doğrudur bunların zəif, tutmayan, yerində səslənməyən notlarını da görürük, amma bütün bunların özü də insanilikdən, ətraf mühitə olan məhəbbətdən, istəkdən, humanizmdən irəli gəlir…

«Könlümdən qopan duyğular» bölməsindəki şeirlər də belədir. Həyatın toyu da, vayı da, sevinci də, qəmi də, itkisi də eyni dərəcədə Şöhləti düşündürür və Şöhlət fərdi yaşantılara, hisslərə sosial məna verə bilir və bu şeirlərin əksəriyyəti bu dünyadan köçənlərə duyğulu insan tərəfindən söylənən ağılardır. Həyatın və ömrün, olumun və ölümün üzərində fəlsəfi poetik düşüncələrdir ki, təbii olaraq hamımızı düşündürdüyü kimi Şöhləti də düşündürür.

Bu şeirlər kədərli notlar üzərində qurulsa da, gerçək olan budur ki, insan bu dünyada əbədi deyil və insan dünyasını dəyişməyə vədəlidir və bu vədənin də dərin dini-fəlsəfi mənası var.

Və Şöhlət şeirlərində sübut edir ki, insan insan olsa, insana layiq bir ömür yaşasa heç nəyin, ölümün belə qorxusu yoxdur. Şöhlət bunları xatırlamaqla («Çalmadı getdi» şeiri bu cəhətdən xüsusilə fərqlənir) insanı əslində həyata, yaşamağa, nikbinliyə, kişiliyə, mərdliyə çağırır, insanı yaşam tərzindən, işindən-gücündən əməlindən zövq almağa yönəldir… Onun lirikasının mojor havacatında da, bir minorluq özünü göstərir. Şöhlət əslində ən kədərli anlarında da nikbindir, həyatsevərdir…

Ümumiyyətlə insanın daxilində, iç dünyasında gizlənən ikili xarakter, psixoloji, əxlaqi mənəvi əskikliklər, çalxantılar ziddiyətlər Şöhləti bir şair, bir insan kimi həmişə düşündürür, narahat edir, onun lirik xarakteri, şair «mən»i öz potensialını həyat sirrinin poetik dərkinə daha çox sərf edir. Həmçinin, Şöhlət həyatın mənası üzərində dini-fəlsəfi yöndən düşünməyi daha çox xoşlayır. O həyatın həqiqətlərini, sirlərini bu yöndən dərkə cəhd edir. Məlum həqiqətlər üzərində düşünsə də, düşündürməyi bacarır, sirri dərkə çağırır…

«Dodaqdan könüllərə» Şöhlət Əfşarın ikinci kitabı olsa da, o müasir poeziyada öz bərkimiş addımlarının səsini duyurmaqdadır, öz sözü, öz səsi olduğunu inamla sübuta yetirməkdədir, öz sənət yolunu inamla tapmış söz əhlidir. Onun dodaqlarından pıçıltı ilə süzülən lirika, inanırıq



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ki, oxucularının könüllərində isti yuva tapa biləcəkdir… «Ələsgərdən dərs alıdm, Yunisə mehir saldım, Babam Mövlana kimi, Mən sözə sevdalıyam»- deyən Şöhlət Əfşara, onun istedadının potensialına inanıram. İnanıram ki, sevdalı iddiasında olan Şöhlət Əfşar könüllərin sevdasına çevriləcəkdir…

***P.S.*** *Bir gün, Şöhlət Əfşar mənə rəngbərəng, köhnə şagird dəftərindəki, orta məktəbdə yasəməni rənglə yazdığı şeirləri təqdim etdi.*

*Oxudum, heyrətləndim! Şeir texnikasının qüsurlarına baxmayaraq bu şeirlərdə bir bakirəlik, hissin gəncliyə məxsus səmimiyyəti, hadisələrə bir gəncin sadəlövh baxışlarının təmizliyi var. Xüsusən dahi Şəhriyarın «Heydərbabaya salam» poemasına nəzirə yazılmış, «Fərməştəpəyə salam» poeması (Fərməştəpə Laçın rayonunun Çalbayır yaylağında olan dağlardan birinin adıdır) məni təsirləndirdi….*

*Şöhlət Əfşarın şeir yaradıcılığının başlanğıcı və boyartımı barəsində dürüst anlayış yaratmaq üçün, müəllifin razılığı ilə onlardan bir neçə nümunə oxuculara təqdim etməyi məsləhət gördüm…*

***Qurban BAYRAMOV,***
*tənqidçi-ədəbiyyatşünas,*
*Azərbaycan Milli Elmlər*
*Akademiyasının Nizami Gəncəvi*
*adına Ədəbiyyat İnstitutunun*
*aparıcı elmi işçisi.*
*Mart-Aprel, 2008-ci il*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Башлайырам рящимли, мярщямятли
Бюйцк Аллащын адынын вя
Юзцнцн кюмяйи иля

## ДАЙАНДЫМ ЕЩРАМА

Тякдир Уъа Аллащ, айяляри щагг,
Яглим ишыг алыб Онун нурундан.
Елчиси Мящяммяд бяшяря майак,
Юйряндим Нябидян, эцъ алдым ондан.

Нурлу чешмясиндян шярбяти ичдим,
Бясирят дашындан сцзцлцб кечдим.
Цммятям, Исламын йолуну сечдим,
Дилядим ятаны Уъа Танрыдан.

Яли мяня ачды елмин гапысын,
Мящяммяд эюстярди шящрин, галасын.
Щцняри юйряндим Щцсейни-Шащдан,
Сафлыьы яхз етдим Ханым Зящрадан.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Дайандым ещрама, рукуйа ендим,
Баш гойдум мющцря, сяъдяляр етдим.
Дуалар охудум, арзуйа йетдим,
Алдым камалымы беш вахт Намаздан.

«Гуран»ла йетишдим црфана, елмя,
Иман зинят вурду мяним гялбимя.
Шющлятям, цн салдым кцллц-алямя,
Алдым шаирлийи Ярши-Яладан.

Бакы, 29 октйабр, 2007






Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**HAQDAN ALDIM BƏSİRƏTİ**

Ulu babam Dədə Qorqud –
Yol gəlirəm qədimlərdən.
Atam böyük Nizamidir –
Xatirəm var əsrlərdən.
Füzulidən dərs almışam,
Hikmətinə qul olmuşam.
Düşüb Leyli sorağında,
Məcnun kimi odlanmışam.
Nəsiminin tilsimində
Sac içində qovrulmuşam.
Haqqı deyib, söz üstündə
Diri-diri soyulmuşam.
Kədərdən, daşdan keçmişəm,
Zəmzəm suyundan içmişəm.
Özüm Məhəmməd ümməti,
Haqdan aldım bəsirəti.
Ehramına dayanmışam,
Yaradandan güc almışam.
Yoğrulmuşam dərgahında,
Odur ki, şair olmuşam!
Şair könlüm vəcdə gəlir,
Yerə, göyə eşq ələyir.
Vəsf edirəm sevənləri,
Sözüm qəlbə nur çiləyir.
Mehə dönüb hey əsirəm



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Gözəllərin saçlarında.
Damla-damla yaş oluram
Kipriyinin uclarında.
Bir arıyam, bəslənirəm
Gül-çiçəyin taclarında.
Dönmüşəm şeyda bülbülə,
Sevgi, məhəbbət dilimdə.
Ətir çəkib, bal süzürəm,
İnci yatır qələmimdə!

***25 fevral 2008***



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## ÜÇRƏNGLİ BAYRAĞIM

*Azərbaycan Respublikasının Prezidenti, zati-aliləri İlham Əliyev cənablarının tapşırığı əsasında Milli parkda və Şəhidlər xiyabanında ucaldılmış Azərbaycan bayraqları əzəmətlə dalğalanır…*

Ucalıb göylərə - bir daha enməz,
Azad istiqlalın məşəli sönməz,
Sənə məhəbbətim bitməz, tükənməz,
Üçrəngli Bayrağım, şöhrətim-şanım,
Mən sənə qurbanam, Azərbaycanım!

Yaşılın Tanrının, haqqın yoludur,
Mavi ulu Türkün polad qoludur,
Qırmızı millətin çağdaş yoludur,
Üçrəngli Bayrağım, şöhrətim-şanım,
Mən sənə qurbanam, Azərbaycanım!

Dalğalan - Cavadın ruhu oyansın,
Müşfiqin can evi nura boyansın,
Cavidin arzusu məşəltək yansın,
Üçrəngli Bayrağım, şöhrətim-şanım,
Mən sənə qurbanam, Azərbaycanım!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sənə laylay çalır mavi Xəzərim,
Eşqinlə kükrəyir Arazım-Kürüm,
Sən ey Məkkəm, qibləm, müqəddəs pirim,
Üçrəngli Bayrağım, şöhrətim-şanım,
Mən sənə qurbanam, Azərbaycanım!

Əbədiyyət aldın Ulu Heydərdən,
Yazıldın tarixə başdan, yenidən,
Qovuşdun millətə, fəxr etdi Vətən!
Üçrəngli Bayrağım, şöhrətim-şanım,
Mən sənə qurbanam, Azərbaycanım!

Cismimdə canımsan, damarda qanım,
Hazıram uğrunda odlara yanım,
Fədadır yolunda həyatım, canım,
Üç rəngli Bayrağım, şöhrətim-şanım,
Mən sənə qurbanam, Azərbaycanım!

***Bakı,***
***28 yanvar 2008***



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**SƏN ÜZÜLMƏ, AY ANA!**

Murov dağda, səngərdəyəm, ay Ana,
And içirəm şəhidlərin qanına,
Qoymaram ki, düşmən baxsın bu yana,
Sən üzülmə, heç üzülmə, ay Ana!

Düşmənlərin bağrına dağ basacam,
Kürüyəcəm, torpağımdan atacam,
Bayrağımı Qarabağda asacam,
Sən üzülmə, heç üzülmə, ay Ana!

Öz qanına bələyəcəm «yan»ları,
Barıt ilə doyuracam onları,
Ayaq altda əziləcək canları,
Sən üzülmə, heç üzülmə, ay Ana!

Ağ saçına, O, Kəbəyə and olsun,
Oğlun gərək düşmənlərdən öc alsın,
Əgər ölsəm, Vətən, başın sağ olsun!
Sən üzülmə, heç üzülmə, ay Ana!

Qartal kimi bir gülləyə tuş olsam,
Şəhid olub qızıl qana boyansam,
Ay-ulduzlu bayrağıma sarınsam,
Sən üzülmə, heç üzülmə, ay Ana!

***Ağcabədi, 16 oktyabr 2007***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**OXUMA, BÜLBÜL!**

Onsuz da boğullam dərdin əlində,
Belə dərdli-dərdli oxuma, bülbül!
Ürək pərişandı qəmin əlində,
Belə dərdli-dərdli oxuma, bülbül!

Qaçqınam, köçkünəm öz Vətənimdə,
Dərd ilana dönüb gəzir içimdə,
Qalmayıb taqətim, itib gücüm də,
Belə dərdli-dərdli oxuma, bülbül!

Nədən hüzün çöküb gözəl səsinə?
Ah-nalə etməkdə  söylə, qəsdin nə?
Bir dərd də gətirmə dərdim üstünə,
Belə dərdli-dərdli oxuma, bülbül!

Yoxsa, bir xəbər var Xarı bülbüldən,
Bəlkə bir səda var, Çormandan, Kirsdən,
Niyə zarıyırsan, dan söküləndən?
Belə dərdli-dərdli oxuma, bülbül!

İşim ahi-zardır, günlərim qara,
Həsrət varlığımı çəkibdi dara,
Vurma ürəyimə sən də bir yara,
Belə dərdli-dərdli oxuma, bülbül!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Oxuma, Sücayət oyanar birdən,
Bəhman məzarından qovzanar birdən,
Amandır, ürəyim dayanar  birdən!
Belə dərdli-dərdli oxuma, bülbül!

Budağında yanan gülə dönmüşəm,
Göz yaşım çay olub, Nilə dönmüşəm.
Şöhlətəm yanıram külə dönmüşəm,
Belə dərdli-dərdli oxuma, bülbül!

***17 fevral 2008***



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**SIZLAYIRAM, QARABAĞ!**

Qövr eləyib, yaralarım qan verir,
Günlərimi mən sayıram, Qarabağ.
Bağrım başı göyüm-göyüm göynəyir,
Həsrətindən sızlayıram, Qarabağ.

Səndən ayrı bu dünyanı neynirəm,
Səltənəti, taxtı, kanı neynirəm.
El-obasız din-imanı neynirəm,
Ağı deyib, bozlayıram, Qarabağ.

Əsir düşüb, ilham pərim itibdi,
Gözəl Şuşam - al səhərim itibdi.
Qibləm, Məkkəm, qoca pirim itibdi,
Çadırlarda tozlayıram, Qarabağ.

Dəlidağın baharını görmürəm,
Çəmənindən çiçəyini dərmirəm.
Sevgilimin saçlarına hörmürəm,
Şoranlıqda yazlayıram, Qarabağ.

Dünya baxmır nə naləyə, nə aha,
Şöhlət Əfşar əl götürüb dərgaha.
Ümidimi bağlamışam Allaha,
Ölməmişəm, gözləyirəm, Qarabağ!
Həsrətindən sızlayıram, Qarabağ!

***Ağcabədi,***
***17 noyabr 2007***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## A DAĞLAR

*(Almas İldırıma nəzirə)*

Zirvəni öpəndə ətirli bahar,
Dərəndə çağlayar sellər, a dağlar.
Yamyaşıl sinəni gəlintək bəzər
Al-əlvan çiçəklər, güllər, a dağlar.

Ləldir, cəvahirdir torpağın sənin,
Minbir şəfalıdır irmağın sənin,
Nədən yasa döndü növrağın sənin -
Hardan əsdi qara yellər, a dağlar?!

Başına çalmısan qara tirməni,
Nə vaxtdır görmürəm qarlı zirvəni,
Əlacı canımsa al, öldür məni!
Geyinmə qaradan tüllər, a dağlar.

Mənəm aşiqin də, mənəm qulun da,
Hər şeyə hazıram sənin yolunda,
Qurbanlar istəsən min də, milyon da,
Səndən əsirgəməz ellər, a dağlar.

Şöhlət həsrətindən solub – saralıb, ,
İllərdir gözlərim yollarda qalıb,
Dərdin ürəyimdə şikəstə olub,
Parçalanır, yanır dillər, a dağlar.

***27 iyun 2007***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**SİTƏM OLUB SƏNDƏN AYRI YAŞAMAQ**

Canım Şuşa, qəmli baxma uzaqdan,
Sitəm olub səndən ayrı yaşamaq!
Həsrət gözüm qan ağlayır nə vaxtdan,
Sitəm olub səndən ayrı yaşamaq.

Ömür keçir, hicran on beş il oldu,
Sinəm yara, dərd böyüdü fil oldu,
Ayrılıqdan yandı bağrım kül oldu,
Sitəm olub səndən ayrı yaşamaq!

Yollar bağlı, qonaq gələ bilmirəm,
Bir kimsə yox, dərdi bölə bilmirəm.
Heyhat, göz yaşını silə bilmirəm,
Sitəm olub səndən ayrı yaşamaq!

Yarası çox, nisgili çox Şuşanın,
Sinəsinə vurulub ox Şuşanın,
Şöhlət ölür, xəbəri yox Şuşanın,
Sitəm olub səndən ayrı yaşamaq!

***Bakı,***
***22 dekabr 2007***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**HARA GETDİ MARALIMIZ?**

*Turşsu olsun oylağımız,*
*Gözəl Şuşa yaylağımız,*
*Sən olaydın qonağımız,*
*Qarabağın maralı.*

***Xalq mahnısı***

Hanı Turşsu oylağımız?
Hanı Şuşa yaylağımız?
Niyə itdi növrağımız?
Hara getdi maralımız?

Əlim yetmir Qırxqızıma,
Cənnət İsabulağıma,
Ağlama, könül, ağlama,
Qara geydi maralımız.

Vurulubdur kürəyindən,
Örpəyi düşüb çiynindən,
Qan süzülür ürəyindən,
Yara yedi maralımız.

***Bakı,***
***12 Yanvar 2008***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## NECOLDU?

*Müdrik ağsaqqal, dəyərli ziyalı və şair Həsən Mirzənin «Hanı o səndəki el, Dərələyəz!» kitabında aşıq Mehdi ilə vətən həsrətini, el dərdini dilə gətirən «Deyişmə» adlı şerini oxuyarkən.*

Həsən Mirzə, dərd içimi yandırır,
Söylə görüm, el-obalar necoldu?
Köçkün ömür qürurumu sındırır,
Soğanlı dağ, göy yaylaqlar necoldu?

Darda qalıb Kirs ilə Corman qoşa,
Əsir düşüb Ağdam, Laçın, həm Şuşa,
Füzulidən - Yanıxdakı çal daşa,
Cənnət məkan o diyarlar necoldu?

Qarabağ yasdadır matəm içində,
Haqsızlıq olarmı belə biçimdə?
Göyçənin, Vedinin dərdi içimdə,
Cıdırdüzü, Dolayılar necoldu?

Tox durmuşuq - sanki xana vəzirik,
Deyib-gülüb, arsız-arsız gəzirik;
Baş açmıram, buna necə dözürük?
Arpa çayı, buz bulaqlar necoldu?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Söylə hanı İstisuyun Taxtası,
Niyə soldu çəmənində lalası,
Nə susmusan, a zalımın balası?!
Pəriçınqıl, sal qayalar necoldu?

Ömür keçir vüsal qalıb gümana,
Qul olmuşuq hər deyilən yalana,
Nə taleydir yazılıbdır alnına?
Dərələyəz, xal-xalçalar necoldu?

Harda qaldı elin o şən çağları?
Sarıyerin, Əyricənin dağları,
Nəbilərin, Horbadıqın bağları,
Yarpız bitən o irmaqlar necoldu?

Həsən Mirzə, ürəyini dağlama,
Sən ki, dağsan, möhkəm dayan, yıxılma,
Bir söz deyim, kədərlənib ağlama,
Ata yurdu, bəs gorgahlar necoldu?

Niyə susaq dərdimizi bölməyək,
Söylə görüm nə vaxtacan gözləyək?
Borc alaqmı Əzraildən, ölməyək?!
And yerimiz, o dərgahlar necoldu?

Ah-naləmiz bürüyübdü dünyanı,
Avropalı, AŞPA, ATƏT de hanı?
Özbaşına buraxmışıq «yan»ları,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İclaslarda hay-haraylar necoldu?
Həsən Mirzə, sən yanında bil məni,
Yalan desəm ürəyindən sil məni.
Vallah, qalxsaq tab gətirməz erməni!
Babək, Nəbi, Koroğlular necoldu?

Həsən Mirzə, sür atını saxlama,
Türkü deyən həm də çalar bağlama[1],
Çək qılıncı, «Con»lara bel bağlama,
Atillalar, Nadir şahlar necoldu?

Hoydu deyək, gözləməyək sabahı,
Şöhlət Əfşar götürər sağ cinahı,
Saxlamayaq qoburunda silahı,
Türk elləri, Oğuz xanlar necoldu?!

***Bakı,***
***31 Yanvar 2008***

[1] Bağlama – Türkiyədə saz alətinə deyilir



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## BAYATILAR

Əzizim sizdə qaldı,
Dəsmalım sizdə qaldı,
Qəlbim Türkman elində,
Canım Təbrizdə qaldı.

Əzizim dərd yandırır,
Sızladır, bərk yandırır,
Görmüşük su söndürər,
Araz bizi yandırır.

Əzizinəm yaralı,
Sonam göldə yaralı,
Ayırdılar Təbrizi,
Türkman qaldı aralı.

Əzizinəm de ağı,
Hönkür, ağla, de ağı,
Ellərə həsrət qalıb
Salvartının yaylağı.

Əzizinəm «ninni»si,
«Türkü»sü, həm «ninni»si,
Öldümü Türkman qızı?
Kəsilibdi «ninni»si!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Əzizinəm qalası,
Yoxdur dağın lalası,
Təbriz, Təbriz deyirdik,
Hanı Şuşa qalası?

Əzizim eldən getdi,
Ölənlər eldən getdi,
Təbriz o tayda qaldı,
Göyçə də əldən getdi.

Əzizim halət eylər,
Əcəl min halət eylər,
Məni çatdır Şuşaya,
Əzrail qələt eylər.

Əzizinəm qaradı,
Ömrüm, günüm qaradı,
Şuşa, Laçın deməkdən,
Dilim para-paradı.

Əzizim yaralıyam,
Köksümdən yaralıyam,
Fələyin çarxı dönsün,
Dağlardan aralıyam .

Əzizim Qarabağı,
Dərd sarıb Qarabağı,
Qorxuram ölüb gedəm,
Görməyəm Qarabağı.

***10 iyun 2007***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## BU YAZ BƏNÖVŞƏLƏR BARIT QOXUDU

*Erkən yazda sərhəddən gələn qara xəbər xalqımızı matəmə qərq etdi. Dörd nəfər igid əsgərimiz qəhrəmancasına döyüşüb şəhid oldular.*

Açıldı sərhəddə ölüm gülləsi,
Yenə canlar aldı düşmən hiyləsi,
Ucaldı göylərə ana naləsi,
Güllələr sinəmə kədər toxudu,
Bu yaz bənövşələr barıt qoxudu.

Bu səsdən titrədi qayalar, daşlar,
Diksinib çırpındı yuvada quşlar,
Axıb şırım açdı gözümdə yaşlar,
Güllələr sinəmə kədər toxudu,
Bu yaz bənövşələr barıt qoxudu.

Dənizdə dalğalar şahə qalxdılar,
Çılğın qağayılar şivən saldılar,
Yas tutub ağladı göydə buludlar,
Güllələr sinəmə kədər toxudu,
Bu yaz bənövşələr barıt qoxudu.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qaraya büründü nişanlı qızlar,
Daşlara çırpıldı işvələr, nazlar,
İçimdə hüznlər ney kimi sızlar,
Güllələr sinəmə kədər toxudu,
Bu yaz bənövşələr barıt qoxudu.

***Fevral 2008***



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## TURŞSUDA XƏYALA
## DALAYDIM, DAĞLAR

Nə olar yaradan qismət eləyə,
Yolumu sinəndən salaydım, dağlar.
Sarılıb boynuna öpəydim səni,
O sınıq könlünü alaydım, dağlar.

Bunca ayrılığa dözməkmi olar,
Dağıla buludlar, açıla yollar.
Qucaydı bir-birin həsrətli qollar,
Qoynunda mehnanın olaydım, dağlar.

Kaş çıxaydım Dəlidağın başına,
Boylanaydım Əyriqarın qaşına.
Dönüb torpağına, dönüb daşına,
Turşsuda xəyala dalaydım, dağlar.

Tale üzümüzə yenə güləydi,
Ceyran bulağında məclis olaydı.
Şəmşir, Səməd Vurğun qoşa gələydi,
Mən də telli sazı çalaydım, dağlar.

Mənim şikayətim İlahidəndir,
Dərdə əlac etmir, neyçün, nədəndir?!
Şöhlətin ürəyi zədən-zədəndir,
Ölüb qucağında qalaydım, dağlar.

***14 mart 2008***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## QALXIN, EY ƏRƏNLƏR

Bu gecə yuxuma gəlmişdi yaylaq,
Gördüm viran qalıb yurd yerlərimiz,
Sızlayıb ağladı ocaq daşları,
Sordular – bəs hanı o ellərimiz?

Baxdım Üçtəpədə daş qalaqlara,
Kədər süzülürdü divarlarından.
Çəmən həsrət qalıb alaçıqlara,
Nişanə qalmayıb at nallarından.

İtib köç yolları, itib cığırlar,
Sürü çəhlim salmır şehli çəmənə.
Murovdan Minkəndə qan ağlayırdı,
Əsir düşüb yaylaq yağı düşmənə.

Baxdım Dəlidağdan əngin səmaya,
Kövrəlib kipriyin sıxdı buludlar.
Uçub pərvaz etdim sal qayalara,
Qartallar qıy vurub, haray saldılar.

Əyildim yuyunub, içəm suyundan,
Gördüm quruyubdu Qiblə bulağı.
Öpüb, sığalladım bulaq daşını,
Çaylaqlar hönkürüb dedilər ağı.

Şöhlət dözə bilmir, ürəyi şan-şan,
Ayrılıq od salıb şair şəstinə.
Vətən intizarda, dağlar pərişan,
Qalxın, ey ərənlər, düşmən üstünə!

***3 aprel 2008***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**NƏ DEYƏCƏK**
***(Həsən Mirzəyə xitab)***

Həsən Mirzə, bir sualım var sənə,
El-obalar niyə qaldı viranə?
Biz dönməsək ana yurda, vətənə?!
Nə deyəcək şəhid olub ölənlər?!
Nə deycək bizdən sonra gələnlər?!

Torpaqları geri ala bilməsək,
Sinəmizdən dərdi, dağı silməsək,
Düşmənləri qırıb gora gömməsək,
Nə deyəcək şəhid olub ölənlər?!
Nə deycək bizdən sonra gələnlər?!

Həsrət qalsa Xan Göyçəyə elmiz,
Dəlidağa çıxmasa ağ sürümüz,
Atılmasaq döyüşə hər birimiz,
Nə deyəcək şəhid olub ölənlər?!
Nə deycək bizdən sonra gələnlər?!

Ata yurdu yol gözləyir illərdi,
Qarabağım, Dərələyəz, həm Vedi,
Miras qoysaq  gənc nəsilə bu dərdi,
Nə deyəcək şəhid olub ölənlər?!
Nə deycək bizdən sonra gələnlər?!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ermənini qaçhaqaça salmasaq,
Qanın töküb, ondan qisas almasaq,
Şuşamızın havasını almasaq,
Nə deyəcək şəhid olub ölənlər?!
Nə deycək bizdən sonra gələnlər?!

Daha bəsdir, çox yemişik dərd, acı!
Gəl olmayaq, özgələrə yavıncı,
Şöhlət dözmür, çəkib Misri qılıncı,
Nə deyəcək şəhid olub ölənlər?!
Nə deycək bizdən sonra gələnlər?!

***Ağcabədi,***
***11 fevral 2008***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## QARABAĞ İNLƏYİR

Yenə qövr eləyib ürəkdə yaram,
Çarəsi tapılmır yaramı saram.
Haqqı harda gəzəm, harda axtaram,
Qarabağ inləyir zillət içində.

Elə sarsılmışam, gülə bilmirəm,
Dərdimi kimsəylə bölə bilmirəm,
Ölmək istəyirəm, ölə bilmirəm,
Dilimiz gödəkdir millət içində.

Necə lənətləyim belə zamanı,
Tanrı niyə susub, ədalət hanı?
Şöhlətin damarda quruyub qanı,
İndi can üstədir illət içində.

***Ağcabədi, 21 oktyabr 2007***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## QƏRİBƏM VƏTƏNDƏ

Qarlı dağlar kimi dumandır başım,
Sel olub qurumur gözümdə yaşım.
Dərdi kimə deyim, kimə danışım?
Qəribəm Vətəndə sənsiz, Qarabağ!

El-oba həsrətdir Cıdır Düzünə,
Həqiqət çevrilib astar üzünə.
Qan gəlib millətin ağlar gözünə,
Qəribəm Vətəndə sənsiz, Qarabağ!

Nədən kəsilibdir, nədən dilimiz?
Niyə bağlanıbdır bizim qolumuz.
Ya olum, ya ölüm! – Birdir yolumuz!
Qəribəm Vətəndə sənsiz, Qarabağ!

Susub durdu millət, axır lal oldu,
Verilən vədələr yalan, fel oldu.
Yandı ayrılıqdan Şöhlət kül oldu,
Qəribəm Vətəndə sənsiz, Qarabağ!

***Bakı,***
***11 yanvar 2008***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**NADİR ŞAH ƏFŞAR**

*08 may 1992-ci il tarixdə Azərbaycanı acı xəbər sarsıtdı. Qarabağın tacı, qürur qalamız Şuşa şəhəri ermənilər tərəfindən işğal olundu… Vaqifin, Mir Möhsün Nəvvabın, Natəvanın, Cabbarın, Üzeyirin, Bülbülün ruhları nalə çəkdilər…*

**I**

Bir mərd igid idin, Şahən-Şah oldun,
Ucaldın göylərə Nadir Şah Əfşar.
Qarı düşmənləri lərzəyə saldın,
Səs saldın cahana Nadir Şah Əfşar!

İmperiya qurdun bir yanı Bəsrə,
Bir yanı Uzaq Çin, bir yan Türküstan.
Həkk etdin adını əsrdən-əsrə,
Qarşında diz çökdü qoca Hindistan!

Endi ayağına hər qaya, hər dağ,
Atını Arala sürdün suvardın.
Basdın yağıların sinəsinə dağ,
Təbrizdən tərpənib Körfəzə vardın!

Eyş-işrət içində həyat sürmədin,
Qalalar fəth edib, sərhədlər aşdın.
Bir tarix yaşadın, tarix yaratdın,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sən Vətən eşqilə kükrədin, coşdun.
Xain qəsbkara vermədin aman,
Vətən torpağından atdın, kürüdün.
Namərdi min kərə dirədin dara,
Neçə xaqanları yıxdın, sürüdün!

Bütöv Azərbaycan qurdun, yaratdın,
Bu yolda canını, qanını verdin.
Sünnü, şiəliyə son olsun deyib,
Biz eyni bədənik, bir ürək dedin.

Səni anlamadı cılız beyinlər,
İçini yedilər tac hərisləri…
(Vətənlə, millətlə öyünməyənlər,
Tarix əfv eləməz siz «varisləri»!)

Gözünü dünyaya yumduğun andan,
Xəyanət başladı xalqa, ölkəyə.
Məğribdən-Məşriqə bir Azərbaycan
Böləndü xanlığa, kiçik bəyliyə.

Kiçik xan oldular, balaca bəylər,
Dərbənddən Təbrizə şaqqaladılar.
Vətən bölündükcə lap kiçildilər,
İtdi şan-şöhrət də naçar qaldılar.

**II**

Durmadan döyüşdün otuz yeddi il,
Böyüdü Vətənin sərhəddi hər il,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İndi sərhəddimiz Sən qoyan deyil,
Hardasan, hardasan, Nadir Şah Əfşar?!
Düşmən yurdumuza hər gün daş atır,
Binamus, bişərəf murada çatır,
Aslan yuvasında çaqqallar yatır,
Hardasan, hardasan, Nadir Şah Əfşar?!

Vətən param-parça, ürəklər zədən,
Alıb ayırdılar Təbrizi bizdən,
Şuşa əsir düşdü daş səbrimizdən,
Hardasan, hardasan, Nadir Şah Əfşar?!

Göyçə qara geyib, Qarabağ darda,
Düşmən əl uzadıb dörd yandan yurda,
Bəsdir tikə olduq biz acgöz qurda!
Hardasan, hardasan, Nadir Şah Əfşar?!

Qalx, yandır yenə də məşəlimizi,
Gəl, al qəsbkarın əlindən bizi -
Silinsin Vətəndən düşmənin izi!
Hardasan, hardasan, Nadir Şah Əfşar?!

***10 may 1992***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**KƏPƏZİM**

Buludlar örpək tək çalıb başını,
Baxanın əlindən alır huşunu,
Bir kimsə bilməyir onun yaşını,
Dünyanın özündən əzəl Kəpəzim.

Nazlı bir gözəldir - saçları meşə,
«Ağsu» bulağının suları şüşə,
Cansıza can verir, ürəyə nəşə,
Qəlbimə nur saçan məşəl Kəpəzim.

Bir gözü Maralgöl, bir gözü Göygöl,
Ətəklər yamyaşıl, çiçək, qönçə, gül,
Sarmaşıb çəməndə süsənlə sünbül,
Dağların incisi gözəl Kəpəzim.

Gərdən çəkib baxır göylərə sarı,
Yayın ortasında əriməz qarı,
Ucadan ucadır, enməz vüqarı,
Yetməz zirvəsinə bir əl, Kəpəzim!

***Hacıkənd,***
***5 yanvar 2008***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**DAŞKƏSƏN**

Sığınıb qoynuna uca dağların,
Nazla cilvələnir gözəl Daşkəsən.
Qüdrətli əlilə mərd oğulların,
Bəzənib süslənir gözəl Daşkəsən.

Gecələr qərq olur işığa, nura,
Küçələr, meydanlar cənnətə dönüb.
Gözəllik görərsən, baxsan sən hara,
Xoş əməl arzuya, niyyətə dönüb.

Torpağı qızıldır, daşı cəvahir,
Hər qarış dəfinə, ləldir burada.
Mərməri, filizi tükənməz nəhir,
Dörd tərəf çiçəkdir, güldür burada.

Hayana baxırsan - meşə, çöl, çəmən,
Dağlarda bənövşə, nərgiz, yasəmən.
Gəlsən bu diyara səfa görərsən,
İçərsən «Narzan»dan şəfa görərsən.

Gərdən çəkib Qoşqar ilə yan-yana,
Havası dərmandır - canlara cövhər.
Arılar bal süzür pətəkdə şana,
Otları məlhəmdir, suları kövsər.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qoşqarın zirvəsi müqəddəs ocaq,
Gəl elə ziyarət, mətləbinə çat.
Məcundur, iksirdir «Yumurtabulaq»,
Neçə dərdlilərə veribdir həyat.

«Xoşbulaq» üstündə var başqa büsat,
Açılıb süfrələr, məclis qurulub.
Qaynayıb çağlayır azad, şən həyat,
Sevənlər cüt gəzir qolboyun olub.

Aşıqlar sazını basıb bağrına,
Açır könülləri yastı balaban.
«Cəngi» havalanır od saçır zurna,
«Şikəstə» oxuyur yamacda çoban.

Hər yanda coşqu var, gözəl təmtəraq,
Ürəklərdə fərəh, üzlərdə sevinc.
Gəlib Daşkəsənin xoşbəxt günləri,
Dillərdə nəğmələr, gözlərdə sevinc.

Şöhlət Əfşar tərif etdi hüsnünü,
Vəsf etdi könüldən, candan, Daşkəsən!
Hələ çox görəcək gözəl gününü,
Yazacaq şəninə dastan, Daşkəsən!

***13 yanvar 2008***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**XIZI**

Dörd yan dağlar, minbir rəngli, naxışlı,
Gah günəşli, gah buludlu, yağışlı,
Gözəlləri ahu, maral baxışlı,
İlham pərisidir, sehirdir Xızı.

Dağ arası «Cənnət bağı», Altıağac,
Havası dərmandır, dərdlərə əlac,
Nazlı bir gözəldir, zirvəsində tac,
Günəşlə oyanan səhərdir Xızı.

Dağların saçları yamyaşıl meşə,
Bumbuz bulaqları billurtək şüşə,
Qəlbə ilham verir, ürəyə nəşə,
Cənnətin qoynunda şəhərdir Xızı.

***31 iyul 2007***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**SALAMA GƏLSİN**

Yayda güzar etsən gözəl Xızıya,
Gedib Yarımcada sərinlən, qardaş.
Əgər seyrə çıxsan Qızılqazmaya,
Sənə salam verər hər qaya, hər daş.

Marallığın zirvəsini dolan, gəz,
İpək bulağından içməmiş olma.
Gecə qonaq qalsan o dağlarda sən,
Şehli çəmənlərdə gəzməmiş olma.

Gəz çölü, çəməni, dər çiçəkləri,
Qoxla bənövşəni, yanağından öp.
Toxu sevgilinə çiçəkdən çələng,
Düzüb saçlarına, dodağından öp.

İtilə bıçağı ocaq daşında,
Topla çır-çırpını tez ocaq qala.
Məclis qur dostlarla süfrə başında,
Seyrəngahın olsun çiçəkli tala.

Yağlı qabırğanı ağac şişə çək,
Duzla, səp üstünə kəklikotunu.
Köz üstə bişincə ətirli kabab,
Pendirlə dürməyin aşır onunu.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Aşıq dilləndirsin telli sazını,
«Baş Sarıtel» dalğa-dalğa ucalsın.
Qoy çəksin balaban sazın nazını,
«Sarı gəlin» həzin-həzin ağlasın.

Şöhlət, çək köksünə dağ havasını,
Ürəyin, qələmin ilhama gəlsin.
Şövqünən vəsf elə, cənnət Xızını,
Zirvələr ruhunu salama gəlsin.

***Bakı,***
***28 noyabr 2007***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**AĞSU AŞIRIMI**

Noyabrda burda büsat başqadır,
Ağsu aşırımı bir aləm olur.
Silsilə zirvələr bir tamaşadır,
Yamyaşıl meşələr saralıb, solur.

Şimalında dağlar bəyaz qar olar,
Cənubunda yaşıl zəmi, düzənlər.
Dolaylarda dəli sellər car olar,
Qırqovul dazıyıb kolda gizlənər.

Payız çeşni vurub meşəyə, dağa,
Təbiət bürünüb qızıl örpəyə.
Möcüzə görməyə tez gəl, ay qağa,
Bax nazlı turaca, xallı kəkliyə.

Duman pusqu qurar, sinər dərəyə,
Darıxar ki, axşam düşə, gün bata.
Gün əyildi, duman qalxar zirvəyə,
Yolçular tələsər mənzilə çata.

Hər döngədə xanə-xanə çayxana,
Hazırdır manqalı, həm simavarı.
Süfrələrdə neçə nemət yan-yana,
Alması, heyvası, güleyşə narı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Odlağında kömür yanıb köz olar,
Simavar oxuyar kamança kimi.
Dəm alar çaynikdə çiçəkli otlar,
Bürüyər ətiri bütün aləmi.

Köz üstə sulanar quzu kababı,
Pendir dürməyindən doya bilməzsən.
Armudu istəkan dolar, boşalar,
Beş vurar on beşə, saya bilməzsən.

Şöhlət, gəz Vətəni, sən diyar-diyar,
Gəz Mili, Muğanı, dolan Şirvanı.
Ağsu dağlarının başqa hüsnü var,
Bu cənnət məkana söylə tay hanı?!

***Ağsu aşırımı,***
***12 dekabr 2007***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## BAHAR ÇAĞIRIR BİZİ

Lalələr basıbdı göy çəmənləri,
Bənövşə qısqanır yasəmənləri,
Nərgiz məst eləyib ağ süsənləri,
Sevgilim, gəl, bahar çağırır bizi.

Quşlar bəhsə girib, sanki ney çalır,
Böcəklər çəməndən kamını alır,
Sarmaşıq gülləri kəməndə salır,
Sevgilim, gəl, bahar çağırır bizi.

Kəkliyin ayağı şehə batıbdı,
Kəpənək ləçəyə qonub yatıbdı,
Arı çiçəkləri dilə tutubdu,
Sevgilim, gəl, bahar çağırır bizi.

Gəl, nəğmə çiləyək dodağa, dilə,
Sevməyi öyrədək gülə, bülbülə,
Dönək buludlara qarışaq selə,
Sevgilim, gəl, bahar çağırır bizi.

Gözdən itək meşələrin qoynunda,
Çimək dərələrin gümüş çayında,
Güzgülənək bulaqların suyunda,
Sevgilim, gəl, bahar çağırır bizi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Keçək Dəlidağdan, aşaq Çilgəzi,
Baharın nəfəsi oxşasın bizi,
Dünyaya car çəkək saf eşqimizi,
Sevgilim, gəl, bahar çağırır bizi.

Şöhlət vurğunudur ana torpağın,
Çəmənin, çiçəyin, dağda irmağın,
Qoşa gülü olaq belə növrağın,
Sevgilim, gəl, bahar çağırır bizi.

***8 avqust 2007***



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**BULUDLAR**

Əngin səmalarda üzən buludlar,
Yerlə qovuşanda dumana dönər.
Gündüzlər dincini alıb dərədə,
Gah düzdə, gah da ki, dağda sürünər.

Gecələr süsləyib göyün üzünü,
Ayın gözlərində haləyə dönər.
Hərdən boşaltmağa qara sisini,
Uca zirvələrin başına enər.

Gah da leysan töküb ağlar buludlar,
Səpilər meşəyə, çölə, çəmənə.
Torpaq cana gələr, bərəkət artar,
Dolar yaşıl zəmi sünbülə, dənə.

Gah da kölgə olub isti yay günü,
Başımız üstündə çətirə dönər.
Bəzən elə tutar göyün üzünü,
İşıqlı gündüzlər axşama çönər.

Buludlar cəng edər, göylər gurlayar,
Sanarsan səmada atlılar çapar.
Gah şimşəyə dönüb ildırım olar,
Titrəyər yer üzü, vahimə qopar.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qışda ulduz-ulduz təzə qar olub
Bəyaza bürüyər dağı, dərəni.
Gecənin şaxtası billura bənzər,
Qırovu naxışlar bağı, çəməni.

Möcüzədir başdan-başa buludlar,
Bu dağdan o dağa mənasız ötməz;
Nədəndir, boz, qara, gah da ağ olar?
Buludun sehrini saymaqla bitməz.

***Bakı,***
***13 yanvar 2008***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**BAHAR**

Bəzədi düzləri, qalxdı dağlara,
Min rəngə boyadı bahar hər yanı.
Kövrəldib buludu endi sulara,
Yaşıla qərq etdi bahar dünyanı.

Hər tərəf al-əlvan, sünbüllər tel-tel,
Tarlaya, bağlara bərəkət gəlib.
Oyanıbdı qoca Muğan, qoca Mil,
Küllü-kainata hərəkət gəlib.

Çiçəklərdən naxış vurdu ormana,
Süsləyib meşənin saçını hördü.
Nazlı-nazlı yuxusundan oyandı,
Bənövşə nərgizi çəməndə gördü.

Qatar tutub karvan-karvan durnalar,
Qaranquşlar müjdə verdi hər yana.
Pöhrələdi gül qoxulu fidanlar,
Gölə qonaq gəldi yaşılbaş sona.

Dan söküldü, küllü-aləm şehlədi,
Günəş tezdən çəmənə zər ələdi.
Ənbər saçdı bağçalarda qızılgül,
Bülbül sevdalanıb nəğmə çilədi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Kəkliyin sədası düşdü dağlara,
Kəpənək oyandı şirin yuxudan.
Ağ çiçək ələndi yaşıl bağlara,
Budaqlar fatasın qoymuşdu çoxdan.

Arı çiçəklərə elçi düşübdü,
Dil tökür zanbağa, gah qonşusuna.
Gövhəri tovlayıb, inci deşibdi,
İndi də vurulub bir başqasına.

Süsən sevdalanıb, nərgiz naz edir,
Deyir hələ tezdir, tələsmə canım.
Süsən dərd əlindən xəyala gedir,
Deyir ki, nə qədər həsrətdən yanım?!

Şanapipik kölgələrdə nazlanır,
Özü tut eşqində, qulağı səsdə.
Salxım söyüd su üzünə sallanır,
Qırçın sular nəğmə deyir ahəstə.

Yaz yağışı ətirlədi hər yanı,
Daraqladı göy çəmənin telini.
Çimizdirib ala gözlü ceyranı,
Pardaxladı mavi Məxmərgülünü.

Fatma xala hanasını qurubdu,
Göyqurşağı naxışlayıb göyləri.
Çaylar coşub qayaları yarıbdı,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Çölə, düzə gətiribdi selləri.
Ey könül, bəstələ bahar nəğməni,
Daşlara həkk eylə, qayalara yaz.
O simfoniyadır:- həyatın himni,
Oxu bu nəğməni hər gələndə yaz.

O gələndə ömürlər təzələnir,
Qəlbi şəfqət dolu bir dayə gəlir.
Bizə həyat verən Uca Tanrıya,
Canlı da, cansız da, səcdəyə gəlir.

Cahana can verər, göydən eşq ələr,
Dünya qocalardı bahar olmasa.
Hər gələndə yer üzünü təzələr,
Dünya kül  olardı bahar olmasa.

***30 sentyabr 2007***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## PAYIZ

Payızın örpəyi qızılı, sarı,
Bürüyüb çəməni, çölü, meşəni.
Dəyişir rəngini yaşıl bağların,
Bəzəyir xəzəllə billur çeşməni.

Vida nəğməsini oxuyur quşlar,
Yellənir budaqda sonuncu yarpaq.
Səngiyir Günəşin odu, istisi,
Solur bağ-bağçalar, soyuyur torpaq.

Ağaclar üstündə heyva saralıb,
Əyilib barından narın budağı.
Durnalar Bağdada yenə yön alıb,
Müjdələr gözləyir Kərkük oylağı.

Qəribə aləmi vardır payızın,
Qovuşar köksündə sevinclə qübar.
Dərib bəhrəsini çiçəkli yazın,
Götürüb özüylə qışa aparar.

Ulduzlu, füsünkar, ılıq gecələr,
Yerini buz kimi ayaza verir.
Turşudur üzünü, qaralır göylər,
Buludlar zirvəyə təzə qar hörür...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Hər payız gələndə bilmirəm nədən,
Qəlbimi bir qərib kədər bürüyür.
Könlümmü, dünyamı qopur yerindən?!
Ömrüm şama dönüb, yanır, əriyir.

***Ağcabədi,***
***22 noyabr 2007***

**QIŞIN VİDASI**

Çıxdım təbiətə fevralın sonu,
Gördüm ki, çırpınır, can çəkir çillə.
Şövq ilə seyr etdim çöldə hər yanı,
Qış da kövrələrmiş qəm-kədər ilə.

Bir başqa görünür meşə, düzən, dağ,
Əriyir güneydə yavaş-yavaş qar.
Kükrəyib ormanlar, qabarıb torpaq,
Coşub cana gəlir quru hər nə var.

Kolların qoltuğu göm-göy tərləyib,
Çəmən çıxarıbdı yaşıl dişini.
Bahar gəlhagəldə, özün yetirib
Bitirəcək qara qışın işini.

Qarın sinəsini yarıbdı nərgiz,
Bənövşə şeh ilə yuyur başını.
Lalə açmasa da hələ gözünü,
Sürmələyib ləçək-ləçək qaşını.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Quşlar cikkə çəkib səmada süzər,
Hava ətirlənib ənbərə bənzər.
Dolub qara bulud leysan yağacaq,
Gülün qulağına sırğa taxacaq.

Təbiət silkinib, açıb gözünü,
Meşədə ağaclar tumurcuq vurub.
Dönüb yenə gəlir köçəri quşlar,
Söysöy budaqlarda yuvasın qurub.

Salxım söyüd bəzək vurub hüsnünə,
Saçlarını bahar yeli hörəcək.
Sərib tellərini irmaq üstünə,
Qırçın-qırçın sularını öpəcək.

Yenə yer üzünə bahar gələcək,
Zəmilər göyərib güllər açacaq.
Ürəklər sevinib üzlər güləcək,
Süfrədə bərəkət aşıb-daşacaq.

Yazın gəlişində qərib ahəng var,
Xeyir qalib gəlir zülmilə şərə.
Anlayan bu işdən çox ibrət alar,
Şükr edər Tanrıya gündə min kərə!

***Şamaxı-Ağsu aşırımı,Ağcabədi,***
***22 fevral 2008***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**QAYTAR O GÜNLƏRİ**

Dağların bağrından süzülüb gəlir,
Billurdur suları Sarıbulağın.
Hər yanı mənzərə, dağlar, dərələr,
Açılıb baharı Sarıbulağın.

Səpilib çəmənə ulduzlar kimi,
Zərif çiçəklərin sarısı, ağı.
Yamacda biçənək qalxıbdı dizə,
Dörd tərəf əvəlik, quzuqulağı.

Sağı SoltanHeydər, solu Üçtəpə,
Qərbdə Humayqaya gərdən çəkibdi.
Kürəyin söykəyib Dəlidağına,
Uca zirvələrə duman çökübdü.

Günəş dağlayanda dağın zirvəsin,
Köhnə qar tərləyib sellərə dönər,
Qovuşub suyuna Sarıbulağın,
Qıjhaqıj  qıjovla dərəyə enər.

Xəyala dalardım burda bir zaman,
Mən Sarıbulağın zümzüməsində.
Sular laylay deyib çalardı kaman,
Yatardım yamyaşıl çəmən üstündə.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ölüb xatirələr sanki olmayıb,
İndi ötən günlər nağıla dönüb.
Daha qovuşmağa güman qalmayıb,
Ümidlər şam kimi qaralıb, sönüb.

Ya Rəbb! Möcüzə et öz qüdrətinlə,
Qaytar o günləri, geriyə qaytar!
Göyərt millətimin arzularını,
Bizi bu nisgildən, bu dərddən qurtar!

***4 Aprel 2008***



Created with
nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

**CƏNGİ ÇÖLÜNDƏ**

Yayın ortasında Cəngi çölündə,
Gürzə fısıltısı gəlir hər yerdən.
Dəli bir sükutun vahiməsindən,
Titrətmə başlayır, üşüdür bədən.

Çiçəkli bahardan əsər qalmayıb,
Quruyub hər nə var cızdağı çıxıb.
Torpaq cadarlanıb, timsaha bənzər,
Şoran gölmələrin duzlağı çıxıb.

Hər addım atdıqca minbir həşarat,
Hirs ilə, hövlanak çöldə dazıyır.
Bəzisi sakitcə, vecinə almaz,
Özünə torpaqda yuva qazıyır.

Çöldə tək-tək daşlar miskin görünür,
Kədər səni boğar yanına varsan.
Yayın qızmarından payını alıb,
Daş səni yandırar əlini vursan.

Nadir gözəllik də görərsən burda,
Səhərlər çöllərin seyrinə çıxsan.
Bürüyüb hər yanı meyxoş qoxusu,
Yovşan dənizidir haraya baxsan.

***18 iyun 2008***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## GƏL, GÖR MƏNİ EŞQ NEYLƏDİ
***(Yunus İmrəyə nəzirə)***

Bir sevginin məzarıyam,
Özüm ona baş daşıyam.
Bilmirəm öləm, yaşayam?
Gəl, gör məni eşq neylədi.

Dərd əlindən gəldim zara,
Gecəm qara, günüm qara.
Bilməyirəm gedim hara,
Gəl, gör məni eşq neylədi.

Sən Tanrımsan, əcr eylə,
Dərgahında vəzir eylə,
Bircə baxış nəzir eylə,
Gəl, gör məni eşq neylədi.

Mən Şöhlətəm odlanıram,
Eşqi Günəşim sanıram.
Alov-alov hey yanıram,
Gəl, gör məni eşq neylədi.

***15 iyun 2008***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## SƏN YOXSAN

Sən yoxsan,
Ürəyim bomboş,
Könlüm sınıq.
Boğur məni intizar,
Dilimdə ahi-zar,
Açılmayır sabahlar.
Gecələr zülmət, uzun,
Ruhum fırtınalarda.
Qəlbimdə qüssə, kədər
İçimdə hüzn.
Ovutmayır heç nə məni,
Nə laciverd göylər,
Nə səyyarələr,
Nə də bədirlənmiş Ay.
Sənsiz bütün varlıqlar aciz, miskin,
Dünya əvəz etmir səni.
Qor çilənib gözlərimə,
Od ələnib üzərimə,
Köz bələnib sözlərimə.
Girib soyuq yatağıma,
Sarılıb soyumuş xəyallarıma,
Sənin qoxunu verən
Cansız balıncları basıram bağrıma.
Otağımda hər yan sapsarı -
Həsrətin rəngi kimi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sənsizlik dönüb ölümə,
Parçalayıb didir içimi.
Dəli düşüncələrin məngənəsində,
Ağlım kor kimi, dalğınam.
Fikirlərin yedəyində
Çarəsizəm, bayğınam.
Ayrılıq göyüm-göyüm göynədib,
Yandırır qəlbimi.
Yön tuturam səmalara,
Göylər əngin, intəhasız.
Çırpınıram mən fəzada
Qanadı qırılmış quşlar kimi.
Sən yoxsan,
Çırpınıram, çırpınıram
Sərgərdan, qərarsız.
İtirəm xəyallar içində
Mavi, sonsuz üfüqlər kimi.
Gah da dalıb dəryalara,
Dalğaları yara-yara,
Baş alıb hey üzürəm
Mayaksız, lövbərsiz,
Limanı olmayan gəmilər kimi!..

***Bakı,***
***8 yanvar 2008***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**QALMADI**

Həsrətin yordu məni, çəkməyə tabım qalmadı,
Çəkilib ərşə yuxum, gözümdə xabım qalmadı.

Sızladıb ürəyimi, gör saldın nə hala məni,
Sinəmdən dağlanmışam, cismimdə canım qalmadı.

Yalvardım pünhan tutaq, eşqimizi car eylədin,
Nə hacət, el yanında, dəxi imanım qalmadı.

Dərdindən xəstə düşdüm, dedilər ki, divanədir,
Binəva Məcnun kimi, vəslə gümanım qalmadı.

Fəxr eylə, ey vəfasız, Şöhləti nakam öldürdün,
Neyləyim  Fərhad kimi, özgə amanım qalmadı.

***Bakı,***
***30 oktyabr, 2007***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**GƏLMƏ MƏZARIMA**

Gəlmə məzarıma, öləndən sonra,
Sağ ikən dərdimə məlhəm olmadın.
Sevən ürəyimə çox vurdun yara,
Pərişan könlümə həmdəm olmadın.

İllərlə ağladım,düşdüm arxanca,
Göz yaşım ucaltdı səni göylərə.
Səni mələk sandım, dərgahda uca,
Sənsə vurdun məni yerdən-yerlərə.

Gəlmə məzarıma, daha nə fayda,
Gəlsən də bir çarə qılan deyilsən.
Şöhlət Məcnun oldu, dərdindən öldü,
Sən ki, Leyli olub ölən deyilsən.

***10 oktyabr 2007***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## AY QƏLBİMİN HAKİMİ

Vaxtsız köç eyləmə buludlar kimi,
Getmə, gedirsənsə, məni də apar.
Belə getmə, ay qəlbimin hakimi,
Getmə, gedirsənsə, məni də apar.

Yoxdur bir həmdəmim səndən savayı,
Sənsiz istəmirəm Günəşi, Ayı,
Getmə, ay ömrümün səadət payı,
Getmə, gedirsənsə, məni də apar.

Eşqimiz dillərdə əfsanə oldu,
Fələyin əlində bəhanə oldu,
Bədnəzərmi vurdu, sənə nə oldu?!
Getmə, gedirsənsə, məni də apar.

Kimsə verə bilməz sənin yerini,
Qəlbim sevə bilməz özgə birini,
Ruhum tab gətirməz çəkəm qəhrini,
Getmə, gedirsənsə, məni də apar.

Gecənin bağrında ulduztək axma,
Küllü-kainatı başıma yıxma,
Məni tənha qoyub, yalqız buraxma,
Getmə, gedirsənsə, məni də apar.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Mənə həyat idi odlu nəfəsin,
Qəlbə ilham idi sənin həvəsin,
Söylə indi, Şöhlət sənsiz neyləsin?
Getmə, gedirsənsə, məni də apar.

***6 avqust 2007***



Created with
nitroPDF® professional
download the free trial online at nitropdf.com/professional

**BAYATILAR**

Əzizim yara məni,
Öldürür yara məni,
Təbib gərəyim deyil,
Aparın yara məni.

Əzizim dara məni,
Əlçimlə, dara məni,
Əgər dönsəm əhdimdən,
Siz çəkin dara məni.

***10 iyun 2007***



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**SALAM SÖYLƏ SEVGİLİMƏ**

Yağış yağır narın-narın,
Yuxu qaçır gözlərimdən.
Gözü yaşlı buludların
Nur tökülür üzlərindən.

Yağış yağır həzin-həzin,
Nəğmə deyir ürəklərə.
Üzü gülür qızılgülün,
Şeh səpilir ləçəklərə.

Yağış yuyur, daraqlayır,
Göy çəmənin saçlarını.
İncilər düzüb süsləyir
Çiçəklərin taclarını.

Yağ, ey yağış, yağ ahəstə,
Ətir çilə sən qəlbimə.
Yağ, döyəclə pəncərəsin,
Salam söylə sevgilimə.

***Ağcabədi,***
***24 noyabr 2007***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**CƏBRƏ SALMISAN**

Sevgimə, cavabı cəbrə salmısan,
Düsturunu elə işarət mənə,
Bir kilid vurmusan, düyün çalmısan,
Açmaq üsulunu gəl öyrət mənə.

Elə bir tənliyi  qurmusan ki, sən,
Surəti, məxrəci, nə də kökü var,
Ha sistem qururam, cavab olmur tən,
Aç bu düsturunu, insaf elə, yar.

Qorxuram Bermuda salasan məni,
Xəbərsiz – ətərsiz batmaq qorxum var.
Cazibəndən çıxıb itirsəm səni,
Bil ki, meteoram, yanmaq qorxum var!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**OXU, QOCA ÇİNAR!**
***(Tahir Rzaya nəzirə)***

Oxu, qoca çinar, oxu ahəstə,
Süzülsün qəlbimə həzin nəğmələr.
Sənin hər qoşduğun ilahi bəstə
Mənim xatirəmə vurar ilmələr.

Oxu, qoca çinar, qoy ötən günlər
Canlansın gözümdə bir film kimi.
Bir anlığa dönsün geri o illər,
Vərəqləyim yarpaq-yarpaq təqvimi.

Yenə bircə sən ol, bir də ki, o qız,
Qaytar ilk eşqimi, qaytar özümə.
Yaman kövrəlmişəm, göynədir hər söz,
Axıt xan Arazı, axıt gözümə.

Oxu, qoca çinar, duyum səsini,
Titrəsin qəlbimdə kamanın simi;
Oxu, uca eşqin sevgi himnini,
Qoy yanım odlara pərvanə kimi.

Oxu, qoca çinar, oxu, qoy səsin
Ürəyimdə nalə çəksin, inləsin.
Qaytar gəncliyimin xoş avazını,
Şeyda bülbül kimi nəğmə çiləsin.

***27 sentyabr 2007***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**GÜLÜM**

Uca dərgahlarda qurbanlar kəssəm,
Dərib ulduzları zülfünə düzsəm,
Eşqinlə saralıb canımı üzsəm,
Söylə, yanarsanmı halıma, gülüm?

Düşüb ayağına, qadanı alsam,
Sənin gülşənində bir arı olsam,
Gülünə, ətrinə mehrimi salsam,
Söylə, dönərsənmi balıma, gülüm?!

Çıxsam zirvələrə səsləsəm səni,
Əlvan çiçəklərlə süsləsəm səni,
Sevirəm! Sevirəm!.. Söyləsəm səni!
Söylə, gələrsənmi yanıma, gülüm?

***2 sentyabr 2007***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**SEVGİ VƏ QÜRUR**

Sevgi də gözəldir, qürur da gözəl,
Hansından vaz keçim, bilmirəm, aman!
Sevən də gözəldir, məğrur da gözəl,
Sevgi ömrün tacı, qürur - şərəf, şan.

Sevgi canda ürək, qürur canda qan,
Ölərəm onlardan əl çəksəm əgər;
Sevmək ibadətdir, qürursa iman,
Birindən vaz keçmək mümkünmü məgər?!

Sevgiylə, qürurla yanan kəslərin,
Şərəfi, şöhrəti göyə ucalar.
Sevgisi, qüruru olan kəslərin,
Məqamı Tanrının yanında olar!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## QARA SEVDANLA

Nədən kədərlisən, belə qəmlisən,
Niyə gənc yaşında yaşlanmısan sən?
Əlinin xınası hələ solmayıb,
Çiçəyi burnunda tazə gəlinsən.

Hansı qədər salıb sənin yolunu
Hicranın, həsrətin yoxuşlarına?
Çıxmayır qoynundan gözəl əllərin,
Nədən hüzn çöküb baxışlarına?

Eşq sarmaşıb sənə, ey gözəl afət,
Qolboyun olmusan qara sevdanla.
Unudulan deyil uca məhəbbət,
Ürəyin olacaq yara sevdanla!

***2 iyul 2007***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## KÖNÜL KÖNÜLÜ

De, doymaq olarmı, baxmaqla yardan?
Can canı istəyir, könül könülü.
Xəstə şəfa tapmaz yeməsə nardan,
Can canı istəyir, könül könülü.

Dolansın boynuma ipək saçların,
Naz ilə oynasın kaman qaşların,
Ovutmaz qəlbimi yar, baxışların,
Can canı istəyir, könül könülü.

Qoy girim qoynuna, gülaba batım.
Kam alım doyunca, murada çatım,
Məst olum sinəndə uyuyum, yatım,
Can canı istəyir, könül könülü.

Şöhlətəm, düşmüşəm qara sevdaya,
Sevib-sevilməyə gəldim dünyaya.
Qurbanam səndəki naza, ədaya,
Can canı istəyir, könül könülü.

***4 iyul 2007***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**QAYIT GƏL, ƏZİZİM**

Gözümün alovlu baxışı sönüb,
Qəlbimdə eşqimin atəşi sönüb,
Ürək parçalanıb, şüşətək sınıb,
Qayıt gəl, əzizim, sənsiz olmayır.

Sən olmasan nurlu səhər açmayır,
Sənki yoxsan güllər ətir saçmayır,
Şeyda bülbül güllər üstə uçmayır,
Qayıt gəl, əzizim, sənsiz olmayır.

Zaman su tək axır, ömür əriyir,
İşıqlı dünyamı zülmət bürüyür,
Sənin həsrətindən canım çürüyür,
Qayıt gəl, əzizim, sənsiz olmayır.

***28 iyul 2007***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**ÖMRÜM YETMƏYƏ**

Dərdə düşdüm bir ilahi sevdadan,
Sevda dərdi tükənməyə, bitməyə.
Qorxuram ki, ölüb gedəm dünyadan,
Bu dərdi çəkməyə ömrüm yetməyə.

Səadətdir mənə sənin həsrətin,
Ondan məhrum olmaq ölümdən çətin.
İstərəm qurtulam bu əzablardan,
Qorxuram ürəyə əmrim yetməyə.

***2 avqust 2007***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**A ZALIM**

Eşqin atəşinə atmısan məni,
Dar ağacı qurub, asmısan məni,
Qul edib, qullara qatmısan məni,
Leylinin nəyisən, söylə, a zalım?!

Bimürvətsən, ya insafsız, ya qansız,
Eşqin qatilisən haqsız, imansız.
Qəsdin yandırmaqdı odsuz, ocaqsız,
Əslinin nəyisən, söylə, a zalım?!

***Bakı,***
***2 dekabr 2007***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**SƏNSİZ**

Sənsiz qərarsızam buludlar kimi,
Dar gəlir ruhuma bu nəhəng cahan.
Tək sənsən qəlbimin şahı, hakimi,
Eşqinlə Məcnunam, ay ismi pünhan.

Sayətək dolannam hər gün başına,
Mənim eşq evimin dərgahı sənsən.
Mailəm hüsnünə, hilal qaşına,
Eşqimə can verən abi-kövsərsən.

Sənsən bu dünyada yaşadan məni,
Ey şahi-mərdanım, sevdam, həvəsim.
Sevirəm, sevirəm, sevirəm səni!
Vuran ürəyimsən, canda nəfəsim.

***Bakı, 7 dekabr 2007***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## QISQANIRAM

Heç rəva bilmərəm ki,
Yad gözlər sənə baxsın.
Kiminsə baxışından
Gözündə şimşək çaxsın.
Qorxuram yad nəzərin
Üzündə izi qalsın.
İstərdim ömür boyu
Ürəyimdə olasan,
Sevda günəşi olub,
Eşqim ilə yanasan.
Bilirsən səni necə
Düşünürəm, anıram?
Saçlarını oxşayan
Mehə də qısqanıram.
Günəşə də baxma ki,
Üzünə ləkə salar.
Qoymaram bulud yağa,
Yanaqların islanar.
Pərvanə ol eşqimə,
Muma dönüb əriyim.
Sən hər iki cahanda,
Gərəyimsən, gərəyim!
Gülü də qoxlama ki,
Gül də səni qoxlayar.
Qorxuram dilə tutub,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ürəyini ovlayar.
Canım,qınama məni,
Sən güldən də zərifsən.
Ləçəklər əzər səni,
Ləyaqətsən, şərəfsən.
Göz yaşı axıtma ki
İslanar kipriklərin.
Ruhun - dağlardan uca,
Eşqin - dəryadan dərin.
Göz yaşını görəndə
Ona da qısqanıram;
Süzülər yanağından,
Süzülər aram-aram;
Yuyar şirin ləbini,
Bal- şəkərsiz qalaram.

Bir an da unutmuram,
Fikrimdən itməyəsən;
Gecələr yatmayıram,
Gözümdən getməyəsən.

Heç rəva bilmərəm də -
Tanrı  tanıya səni;
O, məni yaratsa da,
Vermərəm Ona səni.
Ona da qısqanıram,
İntizar üzür məni.
Qorxuram alar məndən,
Ruhun oynar tənindən;



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Şikara dönərsən sən,
Dərgaha gedərsən sən.
Onda neyləyərəm mən?
Dərgahdan üz çevirrəm!
Püskürüb dönərəm mən,
Məhşərin vulkanına.
Bütün yer, göy, aləmi,
Oda, atəşə verrəm!
Sən məndən ayrı düşsən,
Zülmətləri  yararam,
Göyün yeddi qatını -
Kainatı araram.
Səni tapa bilməsəm,
Qiyamət qopararam!
Qiyamət qopararam!!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## HƏSRƏTİN

Sənsiz həyat sitəm, ömür şursuzdur,
Vallah, öldürəcək həsrətin məni.
Sənsiz səma tutqun, Günəş nursuzdur,
Vallah, öldürəcək həsrətin məni.

Gözlərim yollara dikilib qalıb,
Çəmənlər saralıb, çiçəklər solub.
İlham bulağımın gözü kor olub,
Vallah, öldürəcək həsrətin məni.

Əllərim möhtacdır ipək telinə,
Qollarım möhtacdır incə belinə;
Möhtacam səsinə, tuti dilinə,
Vallah, öldürəcək həsrətin məni.

Seyr edə bilmirəm şux yerişini,
Sallana-sallana, yar, gəzişini.
Eşidə bilmirəm şən gülüşünü,
Vallah, öldürəcək həsrətin məni.

Yaylığımı götür, qoxla sevgilim,
Pəncərəni açıq saxla, sevgilim.
Gündüz olmaz, barı gecə qoy gəlim,
Vallah, öldürəcək həsrətin məni.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**YALVAR ALLAHINA!**

Deyirsən sevməyim, səndən əl çəkim,
Onda elə et ki, tutulsun gözüm;
İşıqlı dünyanı, səni görməyim,
Yalvar Allahına, kör etsin məni.

Ürək fərman bilməz, qorxmaz heç nədən,
Dönmərəm eşqimdən, keçmərəm səndən,
Əgər mümkündürsə, bu ürəyimdən,
Yalvar Allahına, itirsin səni.

Deyirsən, baxçanda tikan əkmisən,
Əlacsız məhkum tək nazın çəkmisən.
Gözlərəm, qoparıb tikan içindən,
Allah ürəyimdə bitirsin səni!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**SÖYLƏ MƏNƏ!**

Sənsiz içim zil qaranlıq,
Gəl, işıq saç can evimə.
Üzüb məni  bu tənhalıq,
Gəl, həyat ver ürəyimə!

Sən ki, yoxsan hər şey əskik,
Mənası yox bu həyatın.
Biz səninlə bir bütünük,
Duymaz məni hər salatın.

Qəlbim sənin əlindədir,
Xəncərləyib vurma yara!
Bəs deyilmi dağ çəkdiyin?
Çalma onu sərt daşlara!

Sevmədim unutmaq üçün,
Sənsizlikdən qəhr oluram.
Dərdli kaman olub hər gün,
İnləyirəm, qovruluram.

Bəsdir, əl çək sitəmindən,
Cövr eləmə aşiqinə!
Şöhlət ölsə yar eşqindən,
Nəfin nədir? Söylə mənə!

Sənsiz içim zil qaranlıq,
Gəl, işıq saç can evimə.
Üzüb məni  bu tənhalıq,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Gəl, həyat ver ürəyimə!

**NECƏ GİZLƏDİM…**

*Bir gözəlin iztirab dolu etiraf məktublarını vərəqlərkən… Onun duyğularının həzin nəğmələri bu nağılın yaranmasına vəsilə oldu. Onun diliylə…*

Hicrinlə yanıram, necə gizlədim,
Almısan əlimdən ixtiyarımı.
İllərlə ağ atlı oğlan gözlədim,
Tanrı gec göndərdi mənim yarımı.

Sən evli, mən evli… qızıl qəfəsdə
Qədər məhkumuyuq, əlac imkansız.
Neyləsin təbibsiz, çarəsiz xəstə,
Qovuşmaq gümansız, vüsal gümansız.

Barı gecələr gəl, röyalarıma,
Doyunca qoy görüm yuxuda səni.
Nə olar, uçub gəl xəyallarıma,
Qurtar iztirabın əlindən məni.

Bas məni bağrına yar, öpüşlərin,
Qoy bala döndərsin dodaqlarımı.
Bahar yeli kimi ılıq nəfəsin,
Oxşasın telimi, yanaqlarımı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Dönək mələklərə göylərə uçaq,
Gəl bir nağıl quraq, ovunsun ürək.
Səyyarələr kimi alışaq, yanaq,
Xəyallar içində bir ömür sürək.

Sən ol göylər oğlu, mən dəniz qızı,
Arzu, niyyət olaq saf diləklərdə.
Neyləyək, beləymiş  taledən yazı,
Əfsanəyə dönək biz ürəklərdə!

***23 sentyabr 2007***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**HEYRAN OLDUM**

Götürdü zülfünü gül camalından,
Sandım nur çilədi günəş dünyaya.
Məsti-xumar oldum xətti-xalından,
Heyran oldum üzündəki mənaya.

Töküb saçlarını beldən aşağı,
Cənnətə bənzəyir qoynu, qucağı.
Ona mehman oldum bir axşam çağı,
Heyran oldum gözündəki mənaya.

Eşqin badəsini içdim əlindən,
Sarılıb boynuna, öpdüm telindən.
Bal süzüldü şirin, tuti dilindən,
Heyran oldum sözündəki mənaya.

Onu görcək Leyli, Şirin utanır,
Züleyxa lal olur, Əsli qısqanır –
Eşqindən ürəyim alışıb yanır,
Şöhlətəm, aşiqəm belə sonaya.

***20 iyul 2007***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## DAĞ ARASINDA

Bəzənib çıxmışdı seyri-gülşənə,
Nazlı yarı gördüm bağ arasında.
Qovuşmur düymələr, açılıb sinə,
Gördüm şamamasın tağ arasında.

Alıbdı ağlımı o gözəl sona,
Eşqin atəşini salıbdı cana.
Bənzəyir kəkliyə, ahu ceyrana,
Sallanıb gəzirdi dağ arasında.

Aşiqəm gözünün mən qarasına,
İnan bu eşqimə, Şöhləti sına.
Sənə çiçəklərdən çələng yolladım,
Bir məktub qoymuşam bax, arasına.

***30 sentyabr 2007***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**SƏNİN ALA GÖZLƏRİN**

Göylər kimi dərindir,
Səba kimi sərindir,
İşvəlidir, şirindir
Sənin ala gözlərin.

Könlümdə qurub büsat,
Ulduzlu bir kainat,
Sevgi dolu şən həyat -
Sənin ala gözlərin.

Xilqətindən aladır,
Giləsi kəhrəbadır,
Eşqimin mehrabıdır
Sənin ala gözlərin.

Bənzər mavi dəryaya,
Gecə gümüşü Aya,
Məni salıb bəlaya
Sənin ala gözlərin.

Şöhlət Əfşar çaşıbdı,
Eşqim bahar açıbdı,
Ömrümə nur saçıbdı
Sənin ala gözlərin.

***3 fevral 2008***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**BİR GÖZƏLƏ AŞİQƏM**

Camalı Aya bənzər,
Hörükləri topuqda.
Ala gözlərin süzər,
Qoşa xallar buxaqda.
Ərşə çəkilib yuxum,
Xəyalım al yanaqda.
Qəlbimi məndən çalan
Bir gözələ aşiqəm.

Könlü könlümə yaxın,
Özü məndən aralı.
Həsrətindən yanıram,
Dəli ürək yaralı.
Qərarsızam sayə tək,
Ömrüm, günüm qaralı.
Məni odlara salan
Bir gözələ aşiqəm.

Getmir gözəl surəti,
Divanə gözlərimdən.
Adı əzbərim olub,
Düşməyir heç dilimdən.
Ondan ayrı yaşamaq
Betər imiş ölümdən.
Eşqi dərgahım olan
Bir gözələ aşiqəm.

***12 fevral 2008***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## SƏNSİZ HƏYAT YAŞANMAYIR

Günəş həmin Günəş,
Şəfəqlər eyni.
Səhər həmin səhər,
Rənglər eyni.
Səma həmin səma,
Üfüqlər eyni.
Dəniz həmin dəniz,
Ləpələr eyni.
Bahar həmin bahar,
Küləklər eyni.
Çəmən həmin çəmən,
Çiçəklər eyni.
Güllər həmin güllər,
Ləçəklər eyni.
Dünya həmin dünya,
Fələklər eyni.
Başımın üstündə Uca Yaradan,
Tanrı həmin Tanrı,
Mələklər eyni!
Həminkidir görüş yerimiz də,
Çinar həmin çinar,
Kölgələr eyni.
Bəs niyə yaşaya bilmirəm,
Nə olub mənə?!
Bəs niyə ölən kimi ölmürəm,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Nə olub mənə?!
Hər şey varlığımı çəkir dara,
Bu gözəl aləm gözlərimdə,
Bir heçdir,
Kül kimi qapqara.
Çəkisizliyə düşmüş kimi,
San ki, havadan asılmışam.
Çarəsiz kimsəsizlər kimi,
Boğur tənhalıq məni.
Qıvrılıb dərdimə qısılmışam.
Kədərimə yoxdur şərik,
Fikirlərim darmadağın,
Duyğularım didik-didik.
İçim soyuq, buz kimi,
San ki, hər yan zülmətdir,
Həsrət, hicran qoxuyur,
Hara baxsan.
Hər şey var,
Amma, bircə sən yoxsan.
Hər şey varsa da,
Hər şey olsa da,
Qəmli könlüm ovunmayır,
Sənsiz  həyat yaşanmayır!
Həyat sənsiz yaşanmayır!

***26 Aprel 2008***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## BU GECƏ

Xəyal pərvaz etdi ötən günlərə,
Xatirələr yada düşdü bu gecə.
Ağladım, sızladım bəlkə min kərə,
Xatirələr yada düşdü bu gecə.

Çəməndə gülümü özgələr dərdi,
Qəlbimdəki incə tellər titrədi,
Dəli könül yenə coşdu, kükrədi,
Xatirələr yada düşdü bu gecə.

İlk məhəbbət unudular sanmışdım,
Həsrət ocağıtək yandım, alışdım,
Əzabımı ulduzlara danışdım,
Xatirələr yada düşdü bu gecə.

O insafsız yara vurdu qəlbimə,
Ayrılıq dən saldı qara telimə,
Neyləyim ki, sözüm yetmir könlümə,
Xatirələr yada düşdü bu gecə.

Şöhlətəm, dərdliyəm gülməyir üzüm,
Kədərə bələnib söhbətim, sözüm,
Nə ürək ovundu, nə də ki, özüm,
Xatirələr yada düşdü bu gecə.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**GİZLİ XƏYALSAN**

Ələkdən keçirdim sözün mülkünü,
Səni vəsf etməyə acizdir sözlər.
Mislin, bərabərin yoxdur aləmdə,
Üzünün nurundan qamaşır gözlər.

Baxdım şəkillərə, aradım bir-bir,
Düşündüm bir rəssam çəkibdir səni.
Yox imiş fırçada elə bir qüdrət,
Çəkə bilməmişdir şah surətini.

Baxdım çəmənlərə, düzə, dağlara,
Hüsnünə bənzəyən çiçək görmədim.
Çıxdım kainatın yeddi qatına,
Bir sənə bənzəyən mələk görmədim.

Sən uca dərgahda ilahi nursan,
Cavabı olmayan min bir sualsan.
Nə rəssam, nə şair gəzməsin səni,
Sən mənim qəlbimdə gizli xəyalsan.

***Bakı,***
***3 mart 2008***



Created with nitroPDF® professional
download the free trial online at nitropdf.com/professional

**SEVDA YARASI**

Nə yaralar vursan, qəbulumdu bil,
Tək sevda yarası vurma qəlbimə.
Dözərəm çəksəndə gözlərimə mil,
Tək sevda yarası vurma qəlbimə.

Götür xəncər ilə doğra köksümü,
Köz bas ürəyimə, yandır cismimi,
Sındırıb könlümü, əzib hissimi,
Tək sevda yarası vurma qəlbimə.

Axıt al qanımı, heç uf deməərəm,
Çək şişə canımı, heç uf demərəm,
Yandır imanımı, heç uf demərəm,
Tək sevda yarası vurma qəlbimə.

Vara, sərvətə yox, gülədir meylim,
Dünya bir yanadır, bir yana leylim,
Məhəbbət yarası sağalmır neylim,
Tək sevda yarası vurma qəlbimə.

Həsrətin Şöhləti gətirib zara,
Qul eylə, satmağa çıxar bazara,
Öldür öz əlinlə, sən qoy məzara,
Tək sevda yarası vurma qəlbimə.

***4 iyun 2008***



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

**ÇİLLƏ ÇƏKİRƏM**

Sənsiz sabah olmur, gecə bitməyir,
Həsrətin vurduğu yaralar dərin.
Baxma gözlərimdən yaş süzülməyir,
İçim qan ağlayır yoxdur xəbərin.

Dəyişsin fəsillər ondan mənə nə,
Yazın ortasında çillə çəkirəm.
Bülbül öz gülünə nəğmə oxuyur,
Mən sınıq könlümə kədər əkirəm.

Dön geri, qoy Günəş yenidən doğsun,
Ömrüm bahar kimi tər güllər açsın.
Qovuşaq səmada buludlar kimi,
Eşqşimiz zəmitək sünbüllər açsın.

***28 mart 2008***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**GƏL, BİR GÖR HALIMI ...**

Baxma nəfəsim var, yaşamayıram,
Sənsiz bu həyatdan zövq almayıram;
Özümü ən bədbəxt aşiq sayıram,
Gəl, bir gör halımı, insaf elə sən.

Unuda bilmirəm ala gözünü,
Sənsiz istəmirəm bu yer üzünü.
Məni qəhr eləyib, üzmə özünü,
Gəl, bir gör halımı, insaf elə sən.

Mən dərdli deyildim, onu sən verdin,
Canıma atəşi, odu sən verdin;
Sehirləyib məni, bütə döndərdin,
Gəl, bir gör halımı, insaf elə sən.

Allah bu mərəzdən sənə də verə,
Səni də mənimtək edə biçarə,
Görərsən vüsalmı, ölümmü çarə?
Gəl, bir gör halımı, insaf elə sən.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**QAYITMA DAHA**

Ayrılıq oxuyur qəmli nəğməsin,
Daha soyuqlaşıb, yad olub səsin.
Bir vaxt hərarətin Günəş kimiydi,
İndi buza dönüb payız nəfəsin.

Bir zaman bahardın, güllü-çiçəkli,
Tez açıb, tez solub, xəzana döndün.
Yanardı gözündə eşqin məşəli,
Yağsız şamlar kimi qaralıb söndün.

Aldanıb gümana qayıtma daha,
İncitmə müqəddəs xatirələri.
Bir məzar daşısan indi qəlbimdə,
Dəfn etdim içimdə sənli illəri.

***17 mart 2008***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**DÖZMƏYİR ÜRƏK**

Ya Rəbb! Ədaları yandırır məni,
Sığmır yerə, göyə nazı bu qızın.
Durubdu qəsdimə canımı alsın,
Üstünə od, alov yağmır bu qızın.

Yerişi, duruşu dünya aləmdir,
Camalın görəndə qəlbim dayanır.
Çatmayır nəfəsim, dözməyir ürək,
Həsrətdən ciyərim qana boyanır.

İncə bel, gen sinə, əndamı gözəl,
Əzalar cismimi paimal edir.
Hər dəfə çalanda qara kipriyin,
Küllü ixtiyarım əlimdən gedir.

Etmisən Şöhləti özünə heyran,
Gəl vüsal bağının seyrinə çıxaq.
Bəsdir, sitəm etdin, ay nazlı ceyran,
Sən Kür ol, mən Araz qovuşub axaq!

***18 mart 2008***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## İSTƏMƏM

Aşiq olmaq çox dəhşətli bəladır,
Bir olmuşam, bir də olmaq istəməm.
Nə işim var Kərəm kimi odlanam,
Diri-diri yanıb ölmək, istəməm.

Nə qazandı Məcnun Leylini sevdi?
Mənsur qollarından dara çəkildi.
Fərhadın can evi vaxtsız söküldü,
Bir yanmışam, bir də yanmaq istəməm.

Qoy, sevda qəmini özgələr çəksin,
Yanıb alovunda göz yaşı töksün.
Şöhlət sinəsinə nədən qəm əksin?!
Çox cahiləm eşqi qanmaq istəməm.

***15 iyun 2008***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## CİHAD EDİRƏM

Eşqinin oduna yanandan bəri
Göyləri ahıma bülənd edirəm;
Sinəmdə açılıb qəmin dəftəri,
Dəyirman daşıyam, dərd üyüdürəm.

Fələk, lənət olsun sənin çarxına,
Məni tuş elədin eşqin oxuna;
Yıxılan deyiləm ayaqlarına,
Amma həsrətindən fəryad edirəm.

Mümkünmü buludlar dolsun yağmasın?
Dəli çaylar coşsun, sellər axmasın?
Gurlayan səmada şimşək çaxmasın?
Eşqinlə ömrümü bərbad edirəm!

Gecələr görəsən ahu-zarımı,
Taleyi yazana hayqırmağımı,
Unut, könlüm – deyib, yalvarmağımı,
Yazıq ürəyimlə cihad edirəm!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## DAHA NƏ SEVƏN VAR…

Könlüm evi yanıb oda qalanıb,
Nə bir dindirən var, nə də bir dinən.
Gənclik köç eləyib, ömür talanıb,
Daha nə sevən var, nə də sevilən.

Susmuş sinəmdəki kaman da, tar da,
Məndən üz çevirib nazlı nigar da.
Vermədi xoş günü  bu ruzigar da,
Nə bir güldürən var, nə də bir gülən.

Sənsiz bahar fəsli nəyimə gərək,
Eşqinlə döyünür sinəmdə ürək.
Gecələr röyama olmusan bəzək,
Sevgilim, tək sənsən yuxuma gələn.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## YA RƏBB! EŞİT MƏNİ!

*İctimai televiziya kanalı ilə istedadlı muğam sənətkarları Mənsum İbrahimovun və Aygün Bayramovanın iştirakları ilə musiqi sənətinin Günəşi, dahi bəstəkarımız Üzeyir Hacıbəyovun «Leyli və Məcnun» operasını seyr edərkən.*

Ya Rəbb! Eşit məni, bir diləyim var,
Eşqin qanununu Sən yaz yenidən.
Sevdalı bülbülü qoyma olsun xar,
Qıyma ayrı düşsün gül çəmənindən.

Qırılsın Keşişin sehri, tilsimi,
Qoy açıb Əslinin eşqi gül olsun.
Xilas et iblisdən yazıq Kərəmi,
Qoyma atəşlərdə yanıb kül olsun.

Qurtar yazıq Qeysi divanəlikdən.
Qoyma dəli bilib Məcnun desinlər.
Xilas et Leylini zülmün əlindən,
Qoyma ayrı düşüb nakam ölsünlər.

Ya Rəbb! Eşit məni, bir diləyim var,
Eşqin qanununu Sən yaz yenidən.
Sevdalı bülbülü qoyma olsun xar,
Qıyma ayrı düşsün gül çəmənindən!

***Bakı,***
***12 yanvar 2008***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## İNSAFSIZ

Anlaya bilmədin mənim eşqimi,
Güllü baharımı etdin qış kimi,
Qaldım dolaylarda yol azmış kimi,
Sevmədin, sevmədin, sən ay insafsız!

Naləsiz gündüzüm, gecəm olmadı,
Qəlbim bir kimsəyə mehir salmadı,
Daha gözləməyə gücüm qalmadı,
Gəlmədin, gəlmədin, sən ay insafsız!

Gecənin bağrında şimşəyə döndüm,
Mum kimi əridim, şam kimi söndüm,
Can verən eşqimi məzara gömdüm,
Bilmədin, bilmədin, sən ay insafsız!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**NİGAH EVİMİZ**

Səni sevmək günahdırsa,
Qoy yazılsın günahıma.
Qiyamətdə uf demərəm,
Götürərəm, daşıyaram,
Cəhənnəmdə olsam belə,
Onu çəkmək xoşdur mənə,
Baxma mənim əzabıma;
Bu günahla sorğulansam,
Sanaram ki, behiştdəyəm,
Qoy yazılsın hesabıma.

Nə zillət olsa da düşər, çəkərəm,
Təki bir anlığa məsud olaq biz.
Sənə qovuşmaqçün məhşər çəkərəm,
Cəhənnəm olsa da nigah evimiz.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## SEVƏNDƏN ÖYRƏN

Sən çalmaq istəsən eşqin sazını,
Kərəm çala bilmir, gəl məndən öyrən.
Yandırmaq istəsən eşqin şamını,
Alov yana bilmir, sevəndən öyrən.

Məcnun anlasaydı eşqin sirrini,
Düşüb səhralara heç inləməzdi.
O sevə bilsəydi öz Leylisini,
Yaşamaq var ikən inan ölməzdi.

Çay öz dəryasını axtarıb tapar,
Çıxar məcrasından, qayanı çapar.
Dönməz arzusundan, getdiyi yoldan,
Qovuşub ümmana vüsala çatar.

Eşqin şimşək kimi çaxsın ki, gərək,
Sevdiyin yandırsın, kamına yetsin.
Yalnız sevənlərdən qorxar bu fələk,
Bacarmaz  sevəni yolundan etsin!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**ƏRŞƏ ÇƏKİLSİN**

İçin alovlansın, od tutsun cismin,
Gecə yuxuların ərşə çəkilsin!
Həsrət dostun olsun, kədər həmdəmin,
Gecə yuxuların ərşə çəkilsin!

Atəşlərə düşsün qara gözlərin,
Tək sevilmək olsun çarən, gərəyin,
Səni də yandırsın, sevən ürəyin,
Gecə yuxuların ərşə çəkilsin!

Sitəmlər çəkəsən sevdiyin yardan,
Gözlərin asıla boş tavanlardan,
İmdad diləyəsən daş-divarlardan,
Gecə yuxuların ərşə çəkilsin!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## DAHA ÜMİD YOXDUR...

Xaliq, yaratdığın gözəl bir bəndən
Girib ürəyimə, içimdə gəzir,
Mənə şahlıq edir, sirr deyil səndən,
Könlümə sultandır, fikrimə vəzir.

Sinəsi, kipriyi əqlimi alıb,
Güdaza verəcək bu halət məni.
Bənd edib zülfünə, kəməndə salıb,
Vallah, öldürəcək bu afət məni.

Bilmirəm insandır, yoxsa mələkdir?
Gözüm tilsimlənib tamaşasına.
Həsrəti yay kimi Şöhləti əydi,
Daha ümid yoxdur yaşamasına.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**YALNIZ...**

Əzəldən yaranıb faili-muxtar,
Ucaldar saraylar, ucaldar taxtlar;
İstəsə dünyanı edər tarımar,
Yalnız məhəbbətə diz çökər insan.

Sirri nədədir ki, bu insan oğlu,
Yalnız məhəbbətin,quludur, qulu;
Xaliq elə qoyub qaydanı, yolu,
Yalnız məhəbbətə diz çökər insan.

Bəzən ələnsə də dərd ələyində,
Sınmaz gərdişindən lap fələyin də,
Fəqət, çox acizdir eşqin əlində!
Yalnız məhəbbətə diz çökər insan.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**QUCA BİLMƏDİ**

Vaxtsız bahar kimi gəldin ömrümə,
Gül qönçə bağladı aça bilmədi.
Çırpındım ruhunun səmasında mən,
Eşqim pərvazlandı uça bilmədi.

Bir neyə döndərdin yandım, sızladım,
Həsrət sardı məni dondum, buzladım,
Gecələr Zöhrə tək danı gözlədim,
İşıqlı sabahlar aça bilmədi.

Vaxtsız gələn eşqin taleyi qara,
Çarəsiz xəstəyəm, ürəyim yara,
İstədim sarılam o nazlı yara
Qollarım belini quca bilmədi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**MƏHƏBBƏT**

Çəkib dara məni, aldı canımı,
Gözümdə şimşək tək çaxdı məhəbbət;
Udum-udum içdi, sordu qanımı,
Sel tək damarıma axdı məhəbbət.

Ürəklə ağlımı qoyub üz-üzə,
Heç biri baxmayır dediyim sözə,
Bu qanlı döyüşə qəlb necə dözə?
Cismimi yandırıb-yaxdı məhəbbət.

Sağalmaz dərdlərə elədi düçar,
Sitəmlər içində qalmışam naçar,
İntizar çəkməkdən gözüm qan saçar,
Sinəmə qurşunlar sıxdı məhəbbət.

Bir əlində zəhər, birində şərab,
İlahi bir sirdir üzündə niqab,
Nücumun bilmirəm, tapmıram cavab,
Qəlbimi inlədən oxdu məhəbbət.

Sevən fəryad etdi, göz yaşı tökdü,
Neçə aşiqləri məhşərə çəkdi;
Xaqanlar önündə endi, diz çökdü,
Uca dərgahlarda taxtdı məhəbbət.

Sevgidir dünyada hər şeydən uca,
Onu dəyişmərəm sərvətə, taca,
Sevənlər Tanrıya gərək əl aça,
Müqəddəs duyğudur, haqdı məhəbbət!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**ASANMI SANIRSAN**

Asanmı sanırsan unutmağı sən?
Unuda bilmirəm, əlimdə deyil.
Qəlbimdə əbədi elə bitmisən,
Unuda bilmirəm, əlimdə deyil.

Həsrətdən yansam da, külə dönsəm də,
Mumtək ərisəm də, şamtək sönsəm də,
Eşqimi məzara qoyub gömsəm də,
Unuda bilmirəm, əlimdə deyil.

Bülbülün vəfası gül soluncadır,
Arının sevdası bal alıncadır,
Pərvanənin eşqi kül oluncadır!
Asanmı sanırsan unutmağı sən?
Unuda bilmirəm, əlimdə deyil.

***29 iyun 2007***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**AY DÜNYALAR GÖZƏLİ**

Al-əlvan geyinmisən,
Bəzənib süslənmisən.
Qırmızılar içində
Tazə bahar açmısan.

Tumar verib saçına,
Sığal çəkib qaşına.
Qoy dolanım başına,
Laləsən allanmısan.

Qəlbimdə açmısan gül,
Olmuşam şeyda bülbül.
Axıb şanıma süzül,
Çiçəksən ballanmısan.

Bulaq kimi axırsan,
Maral kimi baxırsan.
Yandırırsan, yaxırsan -
Canıma od salmısan.

Ay dünyalar gözəli,
Sözü meyli, məzəli;
Şöhləti etdin dəli,
Vallah, ağlın almısan!

***Bakı, 10 Yanvar 2008***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## PEŞMAN OLARSAN

*Heç kimi bəyənməyib, evdə qalıb qarıyan qızlara.*

Bəsdir, canlar alıb sitəm etdiyin,
Bir gün gələr, vallah, peşman olarsan.
Biləndə ömrünün bada getdiyin,
O daş ürəyinlə düşmən olarsan.

Keçər gözəlliyin, ağarar saçın,
Qəhrindən ölərsən yanıb-yaxılıb.
Odlanıb alışar həsrətdən canın,
Onda anlayarsan, dünyan yıxılıb.

Sönər gözlərində alovun, odun,
Daha heyran-heyran baxanın olmaz.
Könlünə yol salar qəmli bayatın,
Kimsə saçlarını öpüb oxşamaz.

İtər şux yerişin, nazlı duruşun,
Gözəl qamətindən bir əsər qalmaz.
Quruyar gözündə məhəbbət yaşın,
Qəlbində sevginin atəşi olmaz.

Quştək uçub gedər forslu günlərin,
Qızıl qəfəsində tənha qalarsan.
İztirab içində yanar ürəyin,
Nə fayda, sevməyi çox gec anlarsan.

***Bakı,***
***2 dekabr 2007***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**ANAN SEVİNSİN TOYUNA**

Qız, yaxanda gül olaydım,
Əynindəki tül olaydım,
İpək sapda hil olaydım,
Sarılaydım mən boynuna.

Gecə-gündüz öpüb səni,
Qoxlayaydım tər sinəni,
Gəl, bağrıma basım səni,
Mehman olum gül qoynuna.

Adın pünhan, Gəncə elin,
Sonasısan Maralgölün,
Mən bəy olum, sən də gəlin,
Anan sevinsin toyuna.

***29 iyun 2007***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## BƏY GƏLİR, GƏLİN GƏLİR

Aşıqlar sözlü, sazlı,
Balaban nazlı-nazlı,
Qoy, çalınsın «Vağzalı»,
Bəy gəlir, gəlin gəlir.

Yola xalı sərilsin,
Süfrəyə şam düzülsün,
Xınalı qoç kəsilsin,
Bəy gəlir, gəlin gəlir.

Müştaqdır bəyin halı,
Gəlin süslü, hənalı,
Yanaqda qoşa xalı,
Bəy gəlir, gəlin gəlir.

Üzərriklər od alsın,
«Yanar gözlər partlasın,»
Qoy düşmənlər çatlasın,
Bəy gəlir, gəlin gəlir.

İki könül qovuşur,
Yeni təməl atılır.
Ataların yurdunda
Təzə ocaq çatılır.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bəy-gəlin süzə-süzə,
Arzu-kama çatırlar.
Baxışırlar göz-gözə,
Səadətdən uçurlar.

Hamı sevinc içində,
El gülür, aləm gülür.
Ucalsın alqış səsi!
Bəy gəlir, gəlin gəlir!

***4 sentyabr 2007***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**BU QIZ GƏLİN KÖÇƏCƏK**

Yandırın çıraqları,
Bəzəyin otaqları,
Süsləyin yataqları,
Bu qız gəlin köçəcək.

Bürünüb bəyaz dona,
Əlləri qızıl həna,
Gözəllikdə bir sona,
Bu qız gəlin köçəcək.

Anası intizarda,
Qaynana vurhavurda,
Ürəyi guphagupda,
Bu qız gəlin köçəcək.

Qaynatası sədalı,
Qayınları ədalı,
Baldız telli-toqqalı,
Bu qız gəlin köçəcək.

Bəy şadlıqdan nəşəli,
Boy-buxunlu, cüssəli,
Yanır eşqin məşəli,
Bu qız gəlin köçəcək.

Qoy yolları nur olsun,
Yeri uca Tur olsun,
Allah ona yar olsun,
Bu qız gəlin köçəcək.

***28 iyun 2007***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**QADINLAR OLMASAYDI**

Ana kəlməsindədir,
İlahi vəzn – heca.
Anadır bu dünyada,
Cəmi varlıqdan uca.

Tanrı analar ilə,
Bizlərə verdi həyat.
Onların şərəfinə,
Yarandı bu kainat.

Çiçəklər ondan alıb,
Ətrini, təravəti.
Dağlar anadan alıb,
Qüruru, şərafəti.

Qadınlar vardır deyə,
Yarandı eşq, məhəbbət.
Qadın verir dünyaya,
Zövqü-səfa, ülviyyət.

Günəş onun eşqilə,
Hər gün alışır, yanır.
Zöhrə onun adıyla,
Özün bəxtəvər sanır.



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Dünya qərar tutubdu,
Ananın şəfqətindən.
Qucağı çox gözəldir,
Dərgahın Cənnətindən.

Yer oynardı yerindən,
Analar olmasaydı!
Dünyanın beşiyinə,
O, layla çalmasaydı.
Günəş parçalanardı,
Qara külə dönərdi.
Bir daha işıq saçmaz,
Əbədiyyən sönərdi.
Ay batıb qaralardı,
Zaman donub durardı,
Aləmi dərd sarardı,
Dünya nəyə yarardı?!
Analar olmasaydı!
Qadınlar olmasaydı!

***8 mart 2008***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## GƏL YAŞADAQ MƏHƏBBƏTİ

Elindir gözəl Borçalı,
Nədən düşmüşük aralı?
Eşqindən könlüm yaralı,
Gəl eyləmə, naz ay gözəl.

Göstərib mərmər sinəni,
Salmısan ovsuna məni,
Götür kağız, qələmini,
Dərdlərimi yaz, ay gözəl.

Tanrı verib bu qisməti,
Gəl yaşadaq məhəbbəti,
Dilindəki bal şərbəti,
Ürəyimə süz, ay gözəl.

Dağlardan dərdim gülləri,
Qoxladım, sərdim gülləri,
Sənə gətirdim gülləri,
Tellərinə düz, ay gözəl.

Mən çiçəklər üstə arı,
Sən Şöhlətin gözəl yarı,
Gətir ömrümə baharı,
Qoy açılsın, yaz, ay gözəl!

***15 iyun 2008***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**GÖZLƏRƏM YOLUNU…**

*Bir gözəlin iztirablarını dinlərkən …*

Söz vermişdin bahar gəlsin dönərsən,
Bənövşəni saçlarıma hörərsən,
İntizaram, harda qaldın, harda sən?
Gözlərəm yolunu, gəl, ay sevgilim.

Baharın yerini qarlı qış aldı,
Gözüm yol çəkməkdən soldu, saraldı,
Yuxum perik düşdü, gecəm il oldu,
Gözlərəm yolunu, gəl, ay sevgilim.

Saçlarımı çinləyərəm, yığaram,
Səndən ötrü bəsləyərəm, dararam,
Gəlsən səni, qollarıma sararam,
Gözlərəm yolunu, gəl, ay sevgilim.

***4 sentyabr 2007***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## AĞLADIR MƏNİ

Göynədir qəlbimi sənsiz günlərim,
Xəyalın gözümdə ağladır məni.
Od tutub alışır yanan ürəyim,
Xəyalın gözümdə, ağladır məni.

Mənim olmasan da hər bir an, hər dəm,
Yaşaya bilmərəm səni sevməsəm.
Qəhrimdən ölərəm səni görməsəm,
Xəyalın gözümdə, ağladır məni.

Xatirən yaş olub yanaqlarımda,
Nəğməyə dönmüsən dodaqlarımda.
O həzin pıçıltın qulaqlarımda,
Xəyalın gözümdə, ağladır məni.

Bu necə taledir, bu necə sitəm?
Fəğan eləyirəm – içimdə matəm.
Səcdənə dayanmış cansız bir bütəm,
Xəyalın gözümdə, ağladır məni.

***11 fevral 2008***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## HƏSRƏT QALDIM

Bülbül döndü yuvasına,
Durna döndü sırasına,
Ceyran döndü balasına,
Həsrət qaldım mən sənə.

Sellər yetişdi çaya,
Çay qovuşdu dəryaya,
Gül bitirdi daş-qaya,
Həsrət qaldım mən sənə.

Böyürtkən xal-xal oldu,
Ay doğdu hilal oldu,
Ürəyim bihal oldu,
Həsrət qaldım mən sənə.

Bir dəvəm var Ağmaya,
Bir gölüm var Urmiya,
Hamı çatdı arzuya,
Həsrət qaldım mən sənə.

***13 fevral 2008***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## GİZLİ XATİRƏN

Qədər tuş elədi, bizi bir zaman,
Yoxdur qovuşmağa vəslinə güman,
Sevən ürəyimi eləyib şan-şan
Qəlbimdə yaşayan gizli xatirən.

Köksündən oxlanmış körpə quş olub,
Həsrətindən mamır basmış daş olub,
Kipriyimdə damla-damla yaş olub
Qəlbimdə yaşayan gizli xatirən.

Nalə çəkib, sellər kimi çağlayır,
Xəzan olmuş güllər kimi ağlayır,
Parçalanmış dillər kimi ağlayır
Qəlbimdə yaşayan gizli xatirən.

***13 fevral 2008***

## SƏNSİZ OLMAYIR

Sənsiz sinəm altda qəlbim vurmayır,
Ürəyim şan-şandır, qayıt gəl, gülüm.
Hicranın yarasın heç nə sarmayır,
Halım pərişandır, qayıt gəl, gülüm.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Gəl, nazlı gözəlim, sənsiz olmayır,
Gəl ki, zülmət gecəm səhərə dönsün.
Sənsiz dünyam bomboş, yerin dolmayır,
Qoyma eşqin şamı qaralıb sönsün.

Könlümü sərmişəm ayaqlarına,
Gəl, yeri ahəstə, murada çatım.
Bal olub süzülüm dodaqlarına,
Zülfünün ətrində gülaba batım.

***16 fevral 2008***

## BİR ƏCƏL KİMİYMİŞ

Əgər yaxalarsa, yalvar əl çəkməz,
Daşı ətəyindən heç yerə tökməz,
Haradan gəldiyin sevənlər bilməz,
Bir əcəl kimiymiş sevgi də, Allah!

Zamanı bilinməz – nə vaxt gələcək,
Eşq oxu sinəni necə dələcək.
Öləndə bilməyir haçan öləcək,
Bir əcəl kimiymiş sevgi də, Allah!

İlahi bir sirdir – ayə tək gələr,
Onun hər rişəsi qayanı dələr;
Necə gəldiyni tək Tanrı bilər,
Bir əcəl kimiymiş sevgi də, Allah!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**TİKANA YAZDI**

Taleyi yazanın qələmi sınsın,
Nədən qızılgülü tikana yazdı?
Anlamaz hər zaman çatdı vüsala,
Aşiqin qismətin gümana yazdı.

Vəslə həsrət qoydu Leyli-Məcnunu,
Fidan ömürlərin məzara yazdı.
Fərhad anlamadı iblis oynunu,
Alıb öz külüngün qəbrini qazdı.

Şamın eşqi ilə fəğan eylədi,
Milyon kərə qanad çaldı pərvanə,
Vəslə yetmək üçün atəşə girdi,
Yandı alov-alov, yandı pərvanə.

Səhrada güllərin dodağı yanır,
Qamışın ayağı sudadır hər an.
Sellər ağuşuna alıb apardı,
Sarasız qəhr olub öldü Xançoban.

Taleyi yazanın qələmi sınsın,
Nədən qızılgülü tikana yazdı?!
Anlamaz hər zaman çatdı vüsala,
Aşiqin qismətin gümana yazdı.

***25 iyul 2008***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## OD İLƏ SU ARASINDA

Bilirəm, inciyib, küsürsən gözəl,
Girib aramıza başqa bir gözəl,
Sən ondan gözəlsən, o, səndən gözəl,
Qalmışam od ilə su arasında.

Sən ətirli gülsən, güllərin xası,
O, bir ahu ceyran, dağlar sonası,
Qəlbimi yandırır eşqin havası,
Qalmışam od ilə su arasında.

Sən səhər Günəşi, o, işıqlı Ay,
Sən tale yazımsan, o, bəxtimə pay,
Fikirdən, xəyaldan əqlim olub zay,
Qalmışam od ilə su arasında.

Sən şanım-şöhrətim, o, dağ vüqarım,
Sən təndə canımsan, o, şah damarım,
Gedibdir əlimdən hər ixtiyarım,
Qalmışam od ilə su arasında.

Şöhlətəm, sevmişəm, arzuma varım,
Bilmirəm neyləyim, kimə yalvarım?
Allahım, bu dərddən necə qurtarım?
Qalmışam od ilə su arasında!

***27 iyul 2008***



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## SƏR TELLƏRİNİ

Seyrə gəl  könlümün xanələrinə
Açmışam qarşında bir kitab kimi.
Oxşa gözlərinlə, bax vərəq-vərəq,
Oxu sətir-sətir, oxu sevgimi.

Eşq ilə vərəqlə qəlb kitabımı,
Hopsun əllərinin ətri ruhuma.
Bas bahar köksünə, öp kitabımı,
Sevginlə bəzək ol ömür payıma.

Könül gülüstanım sənindir, gülüm,
Gəz sinəm üstündə, dər güllərini.
Qollarım arası yerindir, gülüm,
Gecələr üzümə sər tellərini.

***20 iyul 2008***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## GEDİRSƏN ƏGƏR

Könlümü də apar, gedirsən əgər,
Sənsiz neynəyirəm, daha bu könlü?
Baxma yeriyirəm, nəfəs alıram,
Sənsiz yaşamıram, ölüyəm, ölü.

Gözümü də apar, gedirsənsə sən,
Sənsiz nəyə baxım mən bu dünyaya?
Çıxar gözlərimi, at ayaqlara,
De, kimə lazımdır qartalsız qaya?

Gedirsən, dünyamı gecəyə bürü,
Sənsiz keçən günü saya bilməyim.
Apar ağlımı da, apar sən Allah,
Sənin yoxluğunu duya bilməyim.

***31 iyul 2008***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**ÇARƏ DEYİL**

Ovutsa da, baxışların,
Can versə də, gülüşlərin,
Dindirsən də, şirin-şirin,
Olmuşam dəli, divanə,
Çarə deyil bunlar mənə.
Hicrindən yanıb titrəyir,
Könlüm könlünü istəyir.

Hər gün olsan da, yanımda,
Xoşsa da işvən, nazın da,
Təsəllidir salamın da,
Qəlbim yara, şanə-şanə.
Çarə deyil bunlar mənə.
Hicrindən yanıb titrəyir,
Könlüm könlünü istəyir.

Sən bulaqsan, mən təşinə,
Neyləyim, qovuşum sənə?
Düşüb eşqin atəşinə,
Hayqırıram dönə-dönə!
Çarə deyil başqa heç nə!
Hicrindən yanıb titrəyir,
Könlüm könlünü istəyir.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Könlüm sevdalanıb sənin könlünə,
Könlüm aşıq olub sənin könlünə,
Könlüm möhtac qalıb, sənin könlünə.
Lazım deyil, olsun hörmətin mənə,
Çarə deyil,  sənin şəfqətin mənə.
Hicrindən sızlayıb yanır, titrəyir,
Ay zalım, könlünü, könlüm istəyir!

***01 avqust 2008***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**TƏKLİYİN ƏZABIN BİLİRDİN, GÜLÜM!**

Bilirdin sevilmək, həm sevmək nədir,
Özünə öyrətmək, öyrənmək nədir,
İlqarından dönmək, tərk etmək nədir,
Sən ki, könül işin bilirdin, gülüm,
Niyə, qəlb evimə gəlirdin, gülüm?

Bilirdin limanda tək qlamaq nədir,
İztirab içində talanmaq nədir,
Həsrətin oduna qalanmaq nədir,
Təkliyin əzabın bilirdin, gülüm,
Niyə, qəlb evimə gəlirdin, gülüm?

Vəfasız donunu geymisən, əfsus,
Könlümün könlünə dəymisən, əfsus,
Şöhləti yay kimi əymisən, əfsus,
Sən ki, öz vəfanı bilirdin, gülüm,
Niyə, qəlb evimə gəlirdin, gülüm?!

***02 avqust 2008***



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

## GECƏLƏR AÇILMASIN

Bu gecə təlatümdəyəm,
Duyğuların dəli fırtınasında.
Tənhalıq basıb məni bağrına,
Çırpınıram bəyaz gecənin qoynunda.
Qəhrimdən od tutub içim yanır,
Düşmüşəm itmiş xəyallarımın
Qəribsəmiş, ot basmış, cığırlarına.
Baxışlarım sancılıb qalıb
Gecənin nurlu çırağına.
Nalə çəkib xatirələr
Göylər kimi kişnədi.
Sınıq, kimsəsiz qəlbim
Sızlayıb, göyüm-göyüm göynədi.
Danışdım aya sənsizliyimi,
Həsrətimi ulduzlara duyurdum.
Səssizcə, için-için ağlayıb,
Göz yaşımla buludları doyurdum.
Qucaqlaşıb, sarmaşdım,
Soyumuş buz kimi xatirələrimlə.
Oxşadım eşqimizin tək şahidi Xan Çinarı,
Saçlarına həsrət qalan əllərimlə.
Öpdüm qoşa gəzdiyimiz,
Üstünə ayaq izlərimiz naxış saldığı,
O yerləri nəmli gözlərimlə.
Əl açıb yalvardım Allahıma,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Gecələr açılmasın.
Yalvardım Tanrıma,
Hər şeyi alsın məndən.
Tək ümidim olan,
Məni ölüykən ovudub yaşdan,
Özü içimdə yarpaq-yarpaq,
Saralıb nağıllaşan xəyallarımı,
Məndən almasın.
Gecələr açılmasın!...

***9 avqust 2008***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**ŞAİR DÜNYASI**

Şair sözün sərrafı,
Sinəsi xəzinədir.
Arifdir, xridardır,
Şair bilir, söz nədir!
Söz əhli olmayanlar,
Yuxuya haram qatmaz.
Düşüb sözün sehrinə,
Şairlər gecə yatmaz.
Gecənin sükutunda,
Qələmə sarılarlar.
Cumub hikmət mülkünə,
Sözdən xərac alarlar.
Götürüb xəlbirini,
Sözü ələyər şair.
Dönüb şeyda bülbülə,
Nəğmə çiləyər şair.
Şair üçün sədd yoxdur!
Şair üçün hədd yoxdur!
Yoxdur nə uzaq, yaxın –
Atar hər yerə oxun.
İstər dərya içində,
İstər olsun lap Çində.
Xəyal atını minib,
Hər yerə səyridər o.
Xəyallar qanadında,
Meraca da gedər o.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Xəyalım gedən yerə,
Küləklər yetə bilməz.
Quşlar nə qədər uçsa,
Oraya çata bilməz.
Uçub yaşıl çəməndə,
Çiçəklərdə bal arar.
Gah qayalar içində,
Zərif çiçək axtarar.
Çıxar dağlara, düzə,
Gövhər düzər hər sözə.
Vəsf edər gözəlliyi,
Tanrıdan ilham alar.
Gah da qalxıb göylərə,
Buluda örpəy olar.
Kövrəlib buludlarla,
Nurlu leysana dönər.
Gah da haqqın uğrunda,
Şirə, aslana dönər.
Xəyalıyla fəth edər,
Göyün yeddi qatını.
Gah dağda, gah aranda,
Çapar köhlən atını.
Şair könül quludur,
Şair uca, uludur!
Şairlərin könlündə,
Çəmən, çiçək, bulaq var.
Şairin ürəyində,
Səfa, iman, həm haqq var!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Şair könlü möminə,
Bir Nəim Cənnətidir.
Ondan süzülüb gələn,
Tanrının nemətidir.
Şairin billur könlü,
Zülmə, şərə zindandır.
Şairin bahar könlü,
Ulu ülamələrin
Ruhuna məkandır.
Hüznləri yox edər,
Şairin çiçək könlü.
Dərdliyə şəfa verər,
Şairin mələk könlü.
Dediyi hər bir sözü,
Söyləməz hədər şair.
Könlünə Allah verən,
Gerçəyi, fəziləti,
Ehtiva edər şair!
Şöhlət ilhama gəldi,
Allahın izni ilə.
Şairliyin ərz etdi,
Söz ilə, qələm ilə!

***10 mart 2008***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## SORUŞUN MƏNİ

Bir gün köç eyləsəm mən bu dünyadan,
Gecə ulduzlardan soruşun məni.
Soruşun Günəşdən, soruşun Aydan,
Əngin səmalardan soruşun məni.

Dindirin gəzdiyim dərəni, dağı,
Şehli çəmənlərdən soruşun məni.
Dərin bənövşəni, üzün zanbağı,
Əlvan süsənlərdən soruşun məni.

Dinləyin çağlayıb coşan çayları,
Kükrəyən sellərdən soruşun məni.
Gəzin buz bulaqlı göy yaylaqları,
Aylardan, illərdən soruşun məni.

Baharda buludlar nur çiləyəndə
Ləçəkdə jalədən soruşun məni.
Bahar bağçalara gül ələyəndə
Çəməndə lalədən soruşun məni.

Dərib çiçəkləri, tutun dəstəsin,
Al yanaq güllərdən soruşun məni.
Dinləyin sevdalı, qəmli nəğməsin,
Şeyda bülbüllərdən soruşun məni.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Keçin Qarabağdan, keçin Şirvandan,
Şikəstə dillərdən soruşun məni.
Coşğun dəli Kürdən, dərdli Arazdan,
Həsrətli ellərdən soruşun məni.

Dindirin simini tarın, kamanın,
Sazdakı tellərdən soruşun məni.
Gəzin düzlərini Milin, Muğanın,
Ceyranlı çöllərdən soruşun məni.

Axtarın qoşmada, həm gəraylıda,
Dədə Ələsgərdən soruşun məni.
Baxın Fizulidə «Şəbi-hicran»a,
Məcnundan, Leylidən soruşun məni.

Çalıb sızladanda Habil kamanı
«Şüştər»dən, «Dügah»dan soruşun məni.
Yaqubun, Alimin qəmli səsində,
Ağlayan «Segah»dan soruşun məni.

Sakini köç etmiş, viranə olan
Bir soyuq yuvadan soruşun məni.
Göydə qatarından qırılıb qalan
Bir qərib durnadan soruşun məni.

Ruhum qovuşubdur ulu ruhlara,
Babam Mövlanadan soruşun məni.
Şöhlətəm, gedirəm üzü dərgaha,
Siz Uca Tanrıdan soruşun məni!



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

***Bakı,***
***29 noyabr 2007***

**FƏQƏT, ANLAMAQ ÇƏTİN…**

İstər doğul Şimalda,
İstər doğul Cənubda.
Fərqi yoxdur doğulaq,
Ya Qərbdə, ya da Şərqdə.
Doğulaq Ekvadorda,
Yada ki, uzaq Çində.
Hamı vücuda gəlir,
Eyni dəri içində.
Bu dərinin altında,
Damarın, ətin eyni.
Düzümləri bir qayda,
İşi, gücü bir qayda,
Əzalar bütün eyni.
Hamının çiynində baş,
Hamının ətdən dili.
İki ayaq üstündə,
Hamının bir cüt əli.
Başın da üzərində,
Qulaq, burun, göz, qaş.
Lazım olan andaca,
Hamının gözlərindən,
Axır gilə-gilə yaş.
Hamı ana bətnindən,
Doğular qız – qardaşa bacı,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ya da ki, oğlan – bacıya qardaş.
Hamı eyni cür yatır,
Hamı eyni cür durur.
Hamının Allahı bir,
Şəriksiz tək Yaradan.
Hamı da imdadını,
Diləyər o, Tanrıdan.
Nur saçır əqlimizə,
Gecə-gündüz hər zaman,
Haqqı ehtiva edən,
Allahın kəlamları,
O şanlı,Uca «Quran».
Yolumuz da İslamdır,
İman, səadət yolu,
O gözəl, şərəfli din.
Bəs nədəndir görəsən? –
Kimimiz müşrik, kafir,
Kimimiz saleh, mömin?!
Fəqət anlamaq çətin,
Həm işdə, həm əməldə,
Niyə yanlış yollarda,
Hərəmiz bir cürəyik?
Düzü əyri eləyən,
Əyriyə də düz deyən.
Qatığa qara deyib,
Haqlını söyüb, döyən.
Anlamaz, yolagetməz,
Bəzən də heyvərəyik!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Kimimiz iman əhli,
Faydalı, kamil insan.
Kimimiz şərçi, haqsız,
Dələduz, cahil, nadan!
Kimimiz saf, dumduru,
Xoş niyyətli mələyik.
Kimimiz acgöz, həris,
Dünyagir, nəfsin qulu.
Kimimiz qan çanağı,
İçimiz şübhə dolu,
Başdan-başa kələyik?!
Axı nədən, ey Tanrı!
Axı nədən özün de,
Belə fərqli oluruq?
Kimi kahin, sehrbaz,
Firon kimi oyunbaz,
Haqqa qarşı çıxırıq.
Özümüz özümüzə,
Qurulmuş tor, tələyik.
Əməlimiz həngamə,
Düsturu olmayan sirr…
Özün söylə ey Tanrı,
Söylə, səbəbi nədir?
Biz belə əllaməyik?!
Fəqət, anlamaq çətin!..

***4 may 2008***



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

# ATA

*Şərəfli ömür yolu keçmiş, kamil insan, atam Əşrəfin əziz xatirəsinə*

Ata, nə yatmısan, soyuq qəbirdə?
Oyan, qalx ayağa, qurbanın olum!
Çatmır imdadıma ah da, səbr də,
Oyan, qalx ayağa, qurbanın olum!

Sənsiz dünya bomboş, kainat qara,
Yoxluğun qəlbimə vurubdur yara;
Sən necə sığırsan bu dar məzara?
Oyan, qalx ayağa, qurbanın olum!

Həyat yollarımda gur məşəl idin,
Mənə nəfəs verdin, mənə can verdin,
Nə tez köç eylədin, bizi tərk etdin,
Oyan, qalx ayağa, qurbanın olum!

Sən gedəndən artıb dərdim, qubarım,
Əyilib qamətim, sınıb vüqarım,
Mən sənə möhtacam, ey tacidarım,
Oyan, qalx ayağa, qurbanın olum!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Gəl, qaytar özümə sənli günləri,
Dərd-qəm içindəyəm o vaxtdan bəri;
Gəl ki, yollarına düzüm gülləri,
Oyan, qalx ayağa, qurbanın olum!

Şöhlətəm, günüm yox qəmsiz, kədərsiz,
Bir Tanrım, bir də Sən - hər şeydən əziz;
Şahənşah olsam da, acizəm sənsiz,
Oyan, qalx ayağa, qurbanın olum!



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## OYAN, QARDAŞIM

*Həmişə ruhu mənimlə olan*
*qardaşım Şavahatın əziz xatirəsinə*

Hara köç edirsən səssiz-səmirsiz,
Əylə bu karvanı, dayan, qardaşım!
Bizi tərk eləmə vaxtsız, vədəsiz,
Qalx qara tabutdan, oyan, qardaşım!

Niyə sinəmizə dağlar çəkirsən,
Ömrün sarayını yıxıb, sökürsən?
Bizi yalqız qoyub hara gedirsən?
Qalx qara tabutdan, oyan, qardaşım!

Qardaşların beli bükük qalıbdı,
Bacıların başa qara çalıbdı.
Balaların şivən, haray salıbdı,
Qalx qara tabutdan, oyan, qardaşım!

Hələ oğul toyu görməmisən sən,
Hələ nəvə boyu sevməmisən sən,
Vallah, inanmaram, ölməmisən sən,
Qalx, qara tabutdan, oyan, qardaşım!

Ay bizi əlacsız dərdlərə salan,
Nə olar insaf et yuxudan oyan,
Yenə Günəş kimi üfüqdən boylan!
Qalx qara tabutdan, oyan, qardaşım!



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## HARAYA GEDİRSƏN?

Baş alıb yüyənsiz xam kəhər kimi,
Haraya gedirsən, haraya ömür?
Dönüb baxmayırsan yola, yoldaşa,
Haraya gedirsən, haraya ömür?

Qar tək əriyirsən, su tək axırsan,
Mənəm deyənləri əzib yıxırsan,
İlğıma dönürsən, yoxa çıxırsan,
Haraya gedirsən, haraya ömür?

Günlərimiz sayla keçir sənə nə,
Ahla keçir, vayla keçir sənə nə,
Tapdalayıb uzununa, eninə,
Haraya gedirsən, haraya ömür?

Gör neçə karvanı vaxtsız əylədin,
Şahların taxtını tarac eylədin,
Dağıtdın, sovurdun, qumtək ələdin,
Haraya gedirsən, haraya ömür?

Qəlbimi qalayıb alova, közə,
Hesabı salmısan gecə-gündüzə,
Şöhləti tez  büküb beş arşın bezə,
Haraya gedirsən, haraya ömür?
De hara gedirsən, haraya ömür?!

***7 iyun 2007***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**ANALAR**

Qolları ağrıyar, sonra ürəyi,
Şəfqətlə böyüdər bizi analar.
Qayğıdan, möhnətdən ağarar saçı,
Ülfətlə böyüdər bizi analar.

Sayılı ömrüylə saysız gecələr,
Yatmayıb yuxusuz çilələr çəkər.
Bizim ruhumuzu zinətləndirib,
Körpə qəlbimizə sevgilər əkər.

Ömrünün baharın pay verər bizə,
Qarlı sərt qışını özünə saxlar.
Böyüyüb çatsaq da neçənci yaşa,
Hər gecə oyanıb yataqda yoxlar.

Gözünün yağını yedirər bizə,
Hey qayğı göstərər, təmanna ummaz.
Qızdırıb üşütsək, ağrısaq bir az,
Sabahı dik açar, gözünü yummaz.

Bir arzumuz üçün yollara düşər,
Götürməz kimsədən minnət analar.
Xoşbəxt olaq deyə canından keçər,
Dərgahda məqamı Cənnət analar.



Created with
nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Üz qoyub öpəydim gəzdiyin yeri,
Əmrində müntəzir mələk olaydım.
Bitəydim ay ana, yollarında mən,
Ayaqların altda çiçək olaydım.

***31 may 2007***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## ÜRƏK DOSTLARIM

*Dostluğu qəlbimdə əbədi yaşayan*
*Sevindik Nəcəfovun əziz xatirəsinə*

Gəlmir sədaları, yoxdur bir xəbər,
Hüzünlü qəlbimi sarıbdı kədər.
Əcəldən aman yox, beləymiş qədər,
Köçdülər dünyadan ürək dostlarım.

Bir-bir ayrıldılar qoca karvandan,
Sanki olmayıblar başdan, binadan,
Şəkil olub asıldılar divardan,
Köçdülər dünyadan ürək dostlarım.

Ömür başlayıbdı qarlı qışına,
Baxmır gəncliyinə, baxmır yaşına,
Bir anda döndülər məzar daşına,
Köçdülər dünyadan ürək dostlarım.

Bilmədim, sel olub hara axdılar,
Bu fani dünyaya haçan baxdılar,
Quş kimi uçdular, yoxa çıxdılar,
Köçdülər dünyadan ürək dostlarım.

Əzrail baltasın vurdu dərindən,
Bezmişəm fələyin saxta mehrindən,
Şöhlət sitəm çəkir, ölür qəhrindən,
Köçdülər dünyadan ürək dostlarım.

***Bakı,***
***24 yanvar 2008***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**AYNALAR**

Heç zaman yanılmaz, nə də yanıltmaz,
Düz göstərər hər bir şeyi aynalar.
Nə də ki, aldanmaz, nə də aldatmaz,
Düz göstərər yeri, göyü aynalar.

Gözəldirsə gözəl, çirkinsə çirkin,
Əsla bir kimsəyə güzəşt eləməz.
Süleyman mülkünü versən də ona,
Ləkəli vicdandan ləkəni silməz.

Çiliklənib düşsə ayaqlar altda,
Yenə düz göstərər hər sifətləri.
Bürünsə qumaşa bir fayda verməz
Alçağın, əclafın qiyafətləri.

Axirətdən öncə gözəl aynalar
Özündə əks edər hər əməlləri.
Onun hikmətini aqillər anlar,
Müşriklərin topuq vurar dilləri.

Şöhlət Haqdan dilər özünə kömək,
Düz baxar aynaya, illah çəkinməz.
Öyrənib aynadan, alıbdı örnək,
Haqqı söyləməkdən usanmaz, bezməz.

***7 oktyabr 2007***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## AĞALAR QUL OLDU

Dünya, baş açmıram sənin işindən,
Kimini şah edib əzizləyirsən.
Qurtaran olmadı fitnə-felindən,
Gah da yerə vurub xar eyləyirsən.

Zər-ziba geyinib nadan şellənir,
Aqil möhtac qalıb zillət içində.
Neçə mərd oğullar evdə küllənir,
Gəda hökm eləyir millət içində.

Hatəmlik edirsən bəd əməllərə,
Yemin bol edirsən müf yeyənlərin.
Cirəylə pay verib sən adillərə,
Kəsirsən dilini haqq deyənlərin.

Bağlayıb ulağın dalına nədən,
Nər-nər dəvələri sən löhlədirsən?
Aslanı, pələngi əzib, sındırıb,
Tülkünün əlində əsir edirsən.

Kimi haqq yolunda çürüdür ömür,
Çatmır Yaradana ahı, naləsi.
Kimisi «Nuh deyir, peyğəmbər demir»,
Amma tikiş tutur zəhər iynəsi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Çox mənəm deyənlər döndü torpağa,
İtib məzarı da, nişanə yoxdur.
Ağalar qul oldu, nökərlər ağa,
Ey dünya, baş-ayaq işlərin çoxdur.

Həyat bir səhnədir, «ömür tamaşa»,
Dünya haldan-hala salır insanı.
Gah tutur ipəyə, tülə, qumaşa,
Gah da gürzə kimi çalır insanı.

Şöhlətin xəyalı düşüb yollara,
Dünyanın sirrini çözür, ələyir.
Fəqət, dünya işi bənzər Bermuda,
Bilməyir özünü nələr gözləyir.

***Ağcabədi,***
***23 noyabr 2007***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**AMAN, ZALIM ÖLÜM!**

Kamillik mülkünə gövhər düzəndə,
Ömrün pətəyinə balı süzəndə,
Gəlmisən canımı aparmağa sən,
Aman, zalım ölüm, bir az ara ver!

Əkdiyim gülləri dərməmişəm mən,
Yarın saçlarına hörməmişəm mən,
Doyunca bir ömür sürməmişəm mən,
Aman, zalım ölüm, bir az ara ver!

Hərissən yarpağı saraltmağa sən,
Pusquda durmağa, tor atmağa sən.
Gəlmisən günümü qaraltmağa sən,
Aman, zalım ölüm, bir az ara ver!

Qəlbimdə tər-təzə arzular çoxdur,
Qarabağ həsrəti sinəmdə oxdur,
Yolumu gözləyir Şuşa, Zəngəzur.
İnsaf et, sən Allah, məndən kənar dur,
Aman, zalım ölüm, bir az ara ver!

Eşqimin, sevgimin bal vədəsidir,
Vüsal meyvəsinin kal vədəsidir;
Bu ömür Şöhlətin demə bəsidir,
Aman, zalım ölüm, bir az ara ver!

***Bakı, Semaşko xəstəxanası***

***Sentyabr 2002***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**BU DÖVRANIN...**

Bulud  kimi qaralmışam,
Xəzan vurub saralmışam.
Vallah, daha yorulmuşam
Bu dövranın xislətindən.

Qəmlənmişəm, yaslanmışam,
Yağmurunda  islanmışam;
Min yerimdən budanmışam
Bu dövranın xislətindən.

Yordu məni badalaqlar,
Yarasalar,  yapalaqlar;
Faydalanır küt yaltaqlar
Bu dövranın xislətindən.



Created with
nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

**ÇÖZƏ BİLMƏDİ**

Yenə düşüncələr sarıb içimi,
Xəyalım sonsuza götürür məni.
Lövbəri olmayan gəmilər kimi
Dəryadan-dəryaya ötürür məni.

Hələ də fırlanır bu Yer kürəsi,
Keçir qərinələr, keçir əsrlər.
Yoxdur yaranışın heç fasiləsi,
Gəldilər, getdilər neçə nəsillər.

Hələ də çatmayır gecə gündüzə,
Axtarır aramsız biri-birini.
Niyə gəlməyirlər onlar üz-üzə?
Bir bilən olmadı Tanrı sirrini.

Gör necə qurulub əngin kainat,
Sayı bilinməyir göydə ulduzun.
Günəşsiz yox olar yerdəki həyat,
Gecə gah qısalır, gah olur uzun.

Torpaqdan yarandı Adəm babamız,
Biz də zərrəsiyik qara torpağın.
Torpağa dönərik sonda hamımız,
Günü sayılıdır hər bir yarpağın.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Dayandıra bilməz kimsə zamanı,
Dünya xəlbir kimi ələyir bizi.
Fironlar, Süleyman, İsgəndər hanı?
Neçə xaqanların qatlandı dizi.

Bu varlıq, kainat sirrli, müamma,
Dünya Yaradanın təntənəsidir.
Faili-muxtarlıq verilib ona,
İnsan da Tanrının nişanəsidir.

Şöhlət, gəl eləmə ömrünü fəna,
Fatehlər bir ulduz üzə bilmədi.
Nə Sokrat, nə Tusi, nə İbni-Sina,
Dünyanın sirrini çözə bilmədi.

***Bakı,***
***11 dekabr 2007***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**ÜRƏYİM**

Bədnəzərin nizəsinə tuş oldu,
Tərlan kimi yaralandı ürəyim.
Ömrün yazı dönüb qarlı qış oldu,
Şanə-şanə paralandı ürəyim.

Sinəm altda bir quş kimi çırpındı,
Çiliklənib şüşə kimi o sındı.
Buza dönüb damarımda qan dondu,
Közə düşüb sanki, yandı ürəyim.

Köksüm yandı, sızıldayıb inlədim,
Gecədirmi, gündüzdürmü bilmədim.
Baş ucumda nalələri dinlədim,
Oyum-oyum oyalandı ürəyim.

Qaysaqlanıb çapıq-çapıq bitişdi,
Xudam nicat verdi, əcəl ötüşdü.
Təbib-loğman mat qaldılar, nə işdi?!
Aram-aram sayalandı ürəyim.

Yolçu kimi yol üstəyəm hər zaman,
Ürək dözüb dayanarmı, yox güman?
Bu gün, sabah köç eləyər bu karvan,
Hal əhlidi, çox ürfandı ürəyim.

Ömr edirəm mən yaralı ürəklə,
Göz-göz olub fərqi yoxdur ələklə,
Can çəkişir Şöhlət qanlı fələklə,
Təlatümdə, pərişandı ürəyim.

***Bakı,***
***30 yanvar 2008***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## QIFILBƏND

Çox sevirsən qıfılbəndi, ay dostum,
Onu deyən gərək olsun huşiyar!
Bilirsənsə, qiyamətdə de görüm,
Bu göyləri neçə mələk daşıyar.

Söylə, kimdir cəhənnəmdə gözətçi?
Hansı kitab orda kimi gözləyir?
Hansı kitab qərar tutub Cənnətdə?
Bu dünyada kimlər haqqı bilməyir?

O, nədir ki, göydə gəzər su olar?
Hansı səsdən qulaq batar, kar qalar?
O, nədir ki, yaş olsa da od saçar?
Zərbəsindən torpaq yanar, yarılar.

Ölüm günü biz geymədən kəfəni,
Kim hazırlar bizi kəfən geyməyə?
İlk gecəni qəbr evində de kimlər
Sorğulayar bizi haqqı deməyə?

Söylə görüm, harda, hansı gecədə,
Quşlar yerdə sürüm-sürüm süründü?
Qanad açıb göydə uçdu qarışqa,
Görünməmiş başqa dona büründü.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Kimi əzizlədi şeytan Quttamə?
Nəyə zəhər sürtdü gecə min dəfə?
Sanki məhşər qopdu, yer, göy ağladı,
Hansı gecə qana bələndi Kufə?

Zülm əlindən kimlər hara qaçdılar?
Üç yüz il orada tamam yatdılar.
Kim hökm etdi, bunca yatıb qalanlar,
Üç əsr yuxudan sağ oyandılar?

***Bakı,***
***27 fevral 2008***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## EY İNSAN!

Ömrün keçdiyini anla, ey insan,
Əkin mövsümünü vermə əlindən.
Faydalı olmağa çalış hər zaman,
Qoy dünya bəzənsin saf əməlindən.

Nəfsin istəyinə qul olma ki, sən,
Batıb günahlara xar olmayasan.
Öyrən ki, «Quran»ın ayələrini,
Cəhalət içində kor qalmayasan.

Xeyirli işlər gör, yaxşı toxum səp,
Yararlan ağlından itməmiş huşun.
Nə fayda təpərin, gücün qalmasa,
Uçarmı qanadı olmasa quşun?

Ömür qazanarsan yaxşı ad qoysan,
Rəhmət oxuyaralar sonra gələnlər.
Çalış ki, haqq yolda zəvvar olasan,
Cəhənnəmə gedər müşrik ölənlər!

Dinlə dediyini, Şöhlət Əfşarın,
Bəsirət içində kamil olasan.
Səcdə et Allaha, ədalətli ol,
Hünər meydanında zəfər çalasan!

***Bakı,***
***2 mart 2008***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**MƏHŞƏRƏ KİMİ**

Yenə çağrılmamış qonaqlar kimi,
Kədər qəlb evimə yeriş elədi.
Qoparıb yaramın qaysaqlarını,
Gözümə dərd əkdi, qüssə çilədi.

İçimdə yad səslər verib ənginə,
Sökürlər cismimi karxana kimi.
Məni düşüncələr alıb cənginə,
Dağıdır dünyamı fırtına kimi.

Dayanıb üz-üzə, yenə başladı,
Ağılla ürəyin qanlı qovğası.
Arada qalıbdır biçarə canım,
Bilməyir hansıdır onun ağası.

Ürək dostu imiş iştahın, nəfsin,
Onlar nə istəsə o da diləyir.
Ağıl bəsirətdən alıb cövhərin,
Odur ki, ürəyə üsyan eləyir.

İnsan müəmmadır, Bermuda bənzər,
Tək Sirri - Xudadır onun hakimi.
Ürəklə ağılın qovğası bitməz,
Onlar döyüşəcək məhşərə kimi.

Şöhlətin dünyası sirrli bir düstur,
Açılmır min cürə tənlik qursam da.
Ürəyim ağlımla yola getməyir,
Xeyri yox Fərhadtək dağlar yarsam da.

***28 mart 2008***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**DÜNYAGİR OLMA**

Meylini çox salma dövlətə, vara,
Şəddadla, Firontək nadanlar kimi,
Əldən-ələ keçər qızıl, xəzinə,
Ayağı sürüşkən qadınlar kimi.

Kim sərvət əsiri oldu dünyada,
Onlar bu qumarda yandı, uduzdu.
Nərdtaxta oynadı çoxu fələklə,
Ha qoşa istədi, zəri verdi du.

Qaraxal atanlar lüt qaldı sonda,
Əl açıb küçədə çöküb diləndi,
Gəzib qapı-qapı o, xanələri,
Sahibsiz it kimi düşüb süləndi.

Ağlınla zəhmətə qatlaş, ey insan,
Nəfsin yedəyində dünyagir olma.
Əl aç Yaradana, mərhəmət dilə,
Şükr eylə qismətə, naümüd qalma.

Desin Şöhlət Əfşar, sən onu dinlə,
Bel bağla Allaha, güvən özünə.
Haqq yolda addımla, faydalı ol ki,
Taleyin, qismətin gülsün üzünə!

***5 aprel 2008***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**QULA QUL EDƏR**

Aldadıb yalandan üzünə gülər,
Qaldırıb ağ ata mindirər dünya.
Gah da ki, ağanı qula qul edər,
Şahları taxtından endirər dünya.

Gah tutar qumaşa, sərvətə, vara,
Salıb yağ gölündə üzdürər dünya.
Gah da ki, gününü eləyib qara,
Səni öz canından bezdirər dünya.

Kimini zülmətin əlindən alıb,
Od vurub çırağın yandırar dünya.
Kimini qırx arşın quyuya salıb,
Bir anda ocağın söndürər dünya.

Gah nərdivan qoyub çıxarar başa,
Hörmətə, izzətə sahib eləyər.
Gah da baharın döndərib qışa,
Təbibsiz, çarəsiz dərdə bələyər.

Fironu, Daranı atından saldı,
Yıxıb ayaqlarda sürüdü dünya.
Kimə nə vermişdi əlindən aldı,
Beş arşın kəfənə bürüdü dünya.

Çoxları fitnəsin, felin qanmadı,
Arxadan züy tutub çalandı dünya.
Şöhlət bu dünyadan vəfa ummadı,
Əzəldən bilir ki, yalandı dünya.
***22 fevral 2008***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**KİMİ**

Qopur ömrümüzdən fəsillər, illər,
Düşür durnaların lələyi kimi.
Üşüdür qəlbimi ömrün payızı,
Dağların sazaqlı küləyi kimi.

Qəmin körüyündə yanıb bişmişəm,
Yorğun yolçulartək əldən düşmüşəm.
Qaranlıq içində, küncdə qalmışam,
Nənəmin köhnəlmiş ələyi kimi.

Fələk can evimi tora salıbdı,
Əzrail adımı dilə alıbdı.
Daha son mənzilə lap az qalıbdı,
Ölçüsü bir əlin çərəyi kimi.

***2 Aprel 2008***



Created with
nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

## İBRAHİM

*Xalqımızın istetadlı oğlu, qızıl əllərilə min-min insanlara həyat vermiş cərrah, professor, bəstəkar, publisist, gözəl insan İbrahim Topçubaşovun əziz xatirəsinə…*

Əli şəfa verən Loğmanın əli,
Dili nəğmə deyən bəstəkar dili;
Tökdü qələmindən gövhəri, ləli,
Allahın bir lütfü, nurmuş İbrahim.

Zəkası, idrakı Haqqın bir payı,
Yoxdur sənətində onun heç tayı,
Kölgədə qoyubdur Günəşi, Ayı,
Elmin yollarında nərmiş İbrahim.

Gör neçə xəstəyə can, nəfəs verib,
Neçə ümidsizə haray, səs verib,
Skalperlə min-min möcüzə edib,
Ömrünü bizlərə vermiş İbrahim.

Odlu ürəyinin qalır istisi
Qəlbə nur çiləyir həzin bəstəsi,
Vətənin qüruru, xalq fədaisi -
Bəsirət içində sirrmiş İbrahim.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**QAYIDACAQSAN**

*İstedadlı bəstəkar Hikmət Mirməmmədlinin qəfləti ölümü, həyat yoldaşı Nailə Mirməmmədlini kədərə və üzüntüyə qərq etdi…*

Sonsuz bir nəğmədir adın dilimdə,
Qəlbimdə həmişə çağlayacaqsan.
Səba mehi kimi əsib telimdə,
Məni hər səhərlər oyadacaqsan.

Bu necə taleydir, bu necə qədər,
Sızlaram ney kimi, notlarım kədər,
Gözlərəm yolunu mən axşam, səhər,
Sanıram bahartək qayıdacaqsan.

Göymü parçalandı, Günəşmi söndü,
Nakam bəxtim vaxtsız yatdı, neyləyim?!
Hara köç elədin, səssiz-səmirsiz,
Dan ulduzum vaxtsız batdı, neyləyim?!

***25 may 2007***



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

## AĞLATDI BU GECƏ AYNALAR MƏNİ

Gecə sükut idi, baxdım aynaya,
Üzüm bənzəyirdi saralmış Aya.
Qürubun rəngi çöküb dünyaya,
Ağlatdı bu gecə aynalar məni.

Göstərdi özümə ağ saçlarımı,
Sinəmi dağlayan qırışlarımı.
Düzdü kipriyimə göz yaşlarımı,
Ağlatdı bu gecə aynalar məni.

Fələk, bu nə gündü, bu nə saatdı,
Qərq oldu can evim dəryada batdı.
Deyəsən karvanım mənzilə çatdı,
Ağlatdı bu gecə aynalar məni.

***9 iyun 2008***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## DÜNYA XƏLBİRLƏYİR DƏMADƏM BİZİ

Sanma qaçıb ondan can qurtararsan,
Əzrail izləyir, ey qafil səni.
Olsan da qalalar, qəsrlər içrə,
Yaxalar haqq əcəl naqafil səni.

Sayılı günlərin tamam olanda,
Bircə nəfəs artıq ala bilməzsən.
Sən özün istəsən dünyadan köçmək,
Tanrıdan xəbərsiz ölə bilməzsən.

Dünya xəlbirləyir dəmadəm bizi,
Hamı bu xəlbirin gözündən keçər.
Demə ki, kimsələr yer xəstəsidir,
Məsəl var: «yatan yox, yetirən köçər».

Şöhlət, çox dəm vurma, gah yerdən, göydən,
Demə başın çıxır «əlif»dən, «bey»dən.
Mərhəmət gözləmə qoca fələkdən,
Gün gələr ömrünü zəmi tək biçər.

***5 iyun 2008***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## MEŞƏBƏYİ

***(Hüseyn Arifə nəzirə)***

Açan kimi süfrəmizi,
Uzatmamış əlimizi,
Yemək üstə keyfimizi,
Gəlib pozdu meşəbəyi.

Tez yetirib zalım özün,
Lap turşutdu üzün-gözün,
Zəhər kimi dedi sözün,
Coşub, qızdı meşəbəyi.

Bığlarını eşə-eşə,
Çox danışdı şeşə-şeşə,
Dedi, peşkeş deyil meşə,
Aktı yazdı meşəbəyi.

Dedik, gəl ol qonağımız,
Sənsən dayımız, qağamız,
Həm bəyimiz, həm ağamız,
Hələ sazdı meşəbəyi.

Şirin-şirin tutduq dilə,
Axır düşdü bizim felə,
Saqqalını verdi ələ,
Baxdıq, qazdı meşəbəyi.



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Çapma süzdük arağını,
Tumarladı ağ bığını,
Götürdü çal papağını,
Gördük dazdı meşəbəyi.

Qoymadı xub közdə bişə,
On kababı çəkdi dişə,
Araq içdi iki şüşə,
Dedi, azdı meşəbəyi.

Daram çəkib toqqasını,
Dedi, aşıq al sazını,
Çaldırıb öz havasını,
Durub süzdü meşəbəyi.

Seyrə çıxdıq biz ormana,
Çiçək dərirdi bir sona,
Heyran-heyran baxdı ona,
Demə bazdı meşəbəyi.

Şöhləti köklədi bəmə,
Lap toxundu sarı simə,
Öz əlilə ürəyimə,
Adın yazdı meşəbəyi.

***24 iyun 2008***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**AY HƏKİM!**

Pəhriz saxla, canın çıxmaz deyirsən,
Kabab, plov, yağlı olmaz deyirsən,
«Borş»u, «sup»u, «qreçko»nu öyürsən,
Buna məndə yoxdu dözüm, ay həkim!

Tox olmasam qolum, qıçım titrəyir,
Gah dolaşır, ayaq tez-tez büdrəyir,
Görmürsənmi, yazıq canım əriyir,
Ac qarına necə gəzim, ay həkim!

Yaşamıram pəhriz olandan bəri,
Cana gəldim, vallah oldum sərsəri,
Qalmışam bir sümük, bir də ki, dəri,
Can üzülüb, batıb gözüm, ay həkim!

Analizi axşam, səhər eylədin,
Çox  şişirdib milçəyi nər eylədin,
Bu həyatı mənə zəhər eylədin,
Günahını hara yazım, ay həkim?!

Özün söylə, heç şam yağsız olarmı?
Qan olmasa ürək coşub vurarmı?
Eşq atəşi quru canda yanarmı?
Qalmayıbdı odum, közüm ay həkim!



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Dərmanları çeşid-çeşid düzmüsən,
Pəhriz ilə lap canımı üzmüsən,
Söylə görüm, sən də Əzrailmisən?!
Çoxum gedib, qalıb azım, ay həkim!

Baş açmıram sən qoyduğun qaydadan,
Məhrum etdin məni daddan, damaqdan,
Qısası de, cəhənnəm ol dünyadan,
Daha sənə yoxdur sözüm, ay həkim!

Sən de, göydən Ayı gətirim sənə,
De, küllü – Dubayı gətirim sənə,
Bircə pəhriz saxla demə sən mənə,
Ara, axtar başqa çözüm ay həkim!

Məhrum etmə məni zövqü-səfadan,
Qorxuram töhmətdən, el qınağından,
Deyəcəklər Vallah, öldü acından,
Öləndə də, qoy tox ölüm, ay həkim!

Şöhlət dərd əhlidir, sinəsində saz,
Çox deyirəm, amma dinləyirsən az,
Sən reseptə bundan sonra kabab yaz,
Qoy, günahkar olum özüm, ay həkim!

***18 iyun 2008***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**ÇALMADI GETDİ**

Can verərsən, çatar vida məqamı,
Fəqət, nitqin olmaz bir söz deyəsən.
Ölüm gələr əldə əcəlin camı,
Əlvida deyərsən bü dünyaya sən.

Uçar qara xəbər, hər yana çatar,
Gələr qohum-qardaş, cəm olar hamı.
Ocağın, növrağın matəmə batar,
Qaralıb kül olar, ömrünün şamı.

Doğmalar yığışar başın ucuna,
Ağılar, şivənlər göyə ucalar.
Ağ kəfən biçərlər gözəl boyuna,
Götürər yumağa usta qocalar.

Namaza durarlar, molla qabaqda,
Tələsik ayini vurarlar başa.
Gedərsən çiyində, taxta tabutda,
Ürəklər sinədə dönər bir daşa.

Yetişər torpağa qoyulmaq vaxtı,
Bütün əzizlərin geyinər qara.
Yıxılar, dağılar ömrünün taxtı,
Endirərlər asta-asta məzara.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Tək-tənha qalarsan soyuq məzarda,
Orda pişvazında əyanlar olmaz.
Dönüb dala baxmaz dost da, tanış da,
Nə qardaş, nə bacı yanında qalmaz.

Bağrını çatladar gor halətləri,
Dörd yanda gəzişər ilan, çayanlar.
Daha görməyərsən xoş sifətləri,
Bir də dönən deyil, o xoşbəxt anlar.

Hələ harasıdır, sonrası dəhşət,
Qiyamət günündə hesab çətindir.
Sorğu-sual günü başlayar vəhşət,
Məhşərdə verilən əzab çətindir.

Bir-bir vərəqlənər əməl dəftərin,
Əl-həzər, o dəftər sol əldə ola.
Kömək etməz varın, nə də sərvətin,
Gərəkdir imanın əməldə ola.

Olumla haqq ölüm iki qapıdır,
Çalış ki, birində görünməyəsən.
Keçsən birincidən ol ki, xəbərdar,
Mütləq ikincidən keçməlisən sən.

Necə ki, beşiyə qoyanda səni,
Soruşan olmadı səndən heç nəyi,
Öldünmü, bükərlər beş arşın bezə,



Created with
nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Səndən soruşmazlar kəfən geyməyi.
Axirət hikmətin qansaydı sağlar,
Dünyada müşriklər zalım olmazdı.
Meydan sulamazdı nadan, cəlladlar,
Qırğınlar, faciə, zülüm olmazdı.

Yalan dünya, üzə çıxıb paxırın,
Danəndələr kamın almadı getdi.
Puç elədin Şöhlətin də axırın,
Könlünün rübabın çalmadı getdi.

***Ağcabədi,***
***18 noyabr 2007***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**HƏR AN NİGARAN**

Sabaha gümansız ömr edirəm mən,
Hər gün səksəkədə, hər an nigaran.
Həsrətlə  dünyanı seyr edrəm mən.
Bilirəm qəflətən dayanar dövran.

Nəfəsim çatmayır hərdən gecələr,
Yaralı ürəyim aramla vurur.
Pozulur əhvalım, dəyişir halım,
Axmır damarımda, bəzən qan durur.

Zillət çəkib, hər ağrıya dözürəm,
Pənahımı bağlamışam Allaha.
Usanıram, gah canımdan bezirəm,
Sinəm yuva olub naləyə, aha.

Hələ nə görmüşəm mən bu dünyada,
İnsaf et, doyunca qoy ömür sürək.
Məni yarı yolda qoyacaqdınsa,
Niyə, can evimə gəlirdin, ürək?!

Şöhləti salmısan təlatümə sən,
Soyuyub qəlbimdə hər arzu, dilək.
Etdin ürəyimi para-para sən,
İşim səninlədir, ey çərxi-fələk!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

***31 iyul 2008***

**UŞAQ OLAYDIQ**

Bəzən düşünürəm keçən günləri,
Keşkə böyüməyib uşaq qalaydıq.
Qaytara biləydik ötən günləri,
Kaş ki, bir də dönüb uşaq olaydıq.

Bulaq kimi duru, zərif, saf, təmiz,
Uçaydıq göylərdə mələklər kimi.
Olaydıq qayğısız, kədərsiz, qəmsiz,
Coşaydıq dağlarda küləklər kimi.

Şənlənib güləydik bir ömür boyu,
«Gizlənpaç» oynayıb gözdən itəydik.
Həsrətlə gözləyib qonşuda toyu,
Mağarın dalında xəlvət süzəydik.

Yığıb əşyaları evcik quraydıq,
«Qonaq-qonaq» oynu oynayaydıq kaş!
Gah qaçıb, gah qovub yorğun qalaydıq,
Dönəydik obaya qaralanda qaş.

Qarğı atımızı çapaydıq yenə,
Qamçı düzəldəydik ipdən, kirişdən.
Obadan gen düşən quzu sürüsün,
Gedib qaytaraydıq çöldən, örüşdən.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qışda qar yağanda düşüb çöllərə,
Qarağan toplayıb ocaq çataydıq.
Qızıl köz üstünə düzüb fətiri,
Motal pendirini yağa qataydıq.

İlaxır çərşənbə, Novruz gələndə,
Gecə qapılara torba ataydıq.
Mərəkə düzəldib sabaha kimi,
Ürəkdə arzuya, kama çataydıq.

Kaş ki, bilməyəydik paxıllıq nədir,
Kindən küdurətdən uzaq olaydıq.
Bilməyəydik küsmək, cığallıq nədir,
Dost kimi yaşayıb, dost da qalaydıq.

Bəzən düşünürəm ötən günləri,
Keşkə böyüməyib uşaq qalaydıq.
Qaytara biləydik ötən günləri,
Kaş ki, bir də dönüb uşaq olaydıq.

***30 noyabr 2007***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## GETDİM QƏBRİSTANA

İstər əlli yaşa, istər yüz yaşa,
Bu həyat ölümlə yaranıb qoşa.
Çıxsan da ən uca zirvəni başa,
Bir gün o zirvədən enəcəksən, bil.

Şah olsan da inan haqq əcələ sən,
Əzrail baxmaz ki, kimsən, nəçisən.
Ya qismət, tapıla kəfən geyəsən,
Kəfənsiz də olsa köçəcəksən, bil.

Həyat bir səhnədir, dünya tamaşa,
Heç kim dünya işin vurmadı başa.
Döysən də başını qayaya, daşa,
Əcəl köhləninə minəcəksən, bil.

Başlasa olumla ölüm savaşa,
Baxmaz gözlərindən süzülən yaşa.
Bel bağlama taxta-taca, daş-qaşa,
Sıratdan lüt-üryan keçəcəksən, bil.

Getdim qəbristana kimsə dinmədi,
Səddad qımzanmadı, ta öyünmədi,
Süleyman, İsgəndər heç tərpənmədi,
Sən də o şərbətdən içəcəksən, bil.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Şöhlətin dediyin çalış qanasan,
Zalım olma, cəhənnəmdə yanasan,
Yalvar Yaradana, bağışlanasan,
Qaralıb şam kimi sönəcəksən, bil.

***Ağcabədi, 20 oktyabr 2007***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## ÜRƏYİMDƏSƏN

***Həyat yoldaşım Gülşən xanıma ithaf***

Bir xoşbəxt anasan, ellər timsalı,
Əməlin müqəddəs, zinətin iman.
Gözəl balaların şərəfli-şanlı,
Qoy üzün, ürəyin gülsün hər zaman.

Məni heyran edib yar, lətafətin,
Bir içim su kimi safsan, gözəlsən.
Qəlbimə qüvvətdir eşqin, ülfətin,
Bitib gül açmısan ürəyimdə sən.

Sən bir gülsən, ləçəyində mən şehəm,
Şirindir, şəkərdir sözün, söhbətin.
Ömrümə bəzəksən, ruhuma məlhəm,
Şöhlətə həyatdır saf məhəbbətin!

***15 fevral 2008-ci il***
***Bakı***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**AĞ SAÇLARIN HİKMƏTİ**

*Sevgili qızım Günay həyat yoldaşım Gülşən xanıma mənim saçlarıma ağ düşdüyündən üzüldüyünü bildirmiş və kövrəlmişdir…*

Eşitdim ki, sıxılmısan saçlarımı ağ görüb,
Heç üzülmə, ağ saçlarım nemətimdir, ay qızım.
Atan ömür köhlənini aran sürüb, dağ sürüb,
Sən üzülmə, ağ saçlarım sərvətimdir, ay qızım.

Məna dolu keçən ömrün gur səsidir ağ saçım,
Tər tökmüşəm, onun üçün illərimi vermişəm.
Bəsirətin, kamilliyin bəhrəsidir ağ saçım,
Bir bilsəydin, onun üçün nələrimi vermişəm.

Ağ saçlarım ürəyimin iztirabı, kədəri,
O qəlbimin sızıltısı , haqsızlığa üsyanım.
Zikr elədim hər an adın, söz demədim hədəri,
Ağ saçlarım Yaradana məhəbbətim, imanım.

Ağ saçlarım içimdəki sönməz eşqin odudur,
Ağ saçımdan övladlarım kamal alıb, nur alıb.
Qəlb sarayı kədər dolu, şair saçı ağ olur,
Saçlarımı gümüşləyən «Segah» olub, «Şur» olub.

Heç üzülmə, gözəl qızım, mənim bəyaz saçıma,
Uca dağın zirvəsində hər fəsildə qar olar.
Aldım dərsimi «Quran» dan, çatdım arzuya, kama,
Gözəl Cənnət  ağacının, üstü dolu bar olar.

***Ağcabədi, 18 oktyabr 2007***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## AY ƏFŞAR QIZI

Əlində şəmşirin, belində kəmər,
Çiynində aynalı, altında kəhər,
Tezdən oyanarsan yuxudan səhər,
Şəfqətli anasan, ay Əfşar qızı.

Ərinə arxasan, oğluna ana,
Ağılda bənzərsən Sara Xatuna,
Nigarsan qılıncı qoymazsan qına,
Koroğluya yarsan, ay Əfşar qızı.

Bərk ayaqda qorxu nədir bilməzsən,
Düşmənə, xainə aman verməzsən,
Burla Xatun kimi sən əyilməzsən,
Şərəfsən, qürursan, ay Əfşar qızı.

Tomrisin, Nadirin igid nəvəsi,
Köksündə bəsləyər Vətən sevgisi,
Yalçın qayalardan gələr gur səsi,
Həcərə bacısan, ay Əfşar qızı.

Nüşabədən aldın əqli, zəkanı,
Qeyrəti, isməti, şöhrəti, şanı,
Paklıqla qazandın gözəl imanı,
Xanımlar xasısan, ay Əfşar qızı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Məskənin Qarabağ, oylağın  dağlar,
Qəlbində od yanar, məhəbbət çağlar,
Səsinə səs verər uçan durnalar,
Yaşılbaş sonasan, ay Əfşar qızı.

Şöhlət dilər sənə firavan həyat,
Gül açsın növrağın, qurasan büsat,
Sənə gərək deyil, ləl-cəvahirat,
Gümüşsən, qızılsan, ay Əfşar qızı!

***Ağcabədi,***
***25 noyabr 2007***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## DOSTUMA

*Dəyərli alim, nəcib insan, əziz dostum*
*Akif Bayramın 70 illik yubiley günü münasibətilə*

Dağlar kimi vüqarlısan,
Zirvəsi gümüş qarlısan,
Çox mətinsən, qərarlısan,
Mərd oğulsan, Akif Bayram!

Əqli kamil, həm ürfansan,
Saf niyyətli bir insansan,
Dost yolunda pasibansan,
Əhli halsan, Akif Bayram!

Hər bir sözün hikmət dolu,
Düşünməzsən malı, pulu,
Getdiyin yol Allah yolu -
Haqqa qulsan, Akif Bayram!

Mərd kişilər timsalısan,
Dünya işindən halısan,
Türk oğlusan, Borçalısan!
Bir qalasan, Akif Bayram!

Heç dəyməsin oxun daşa,
Hər muradın çatsın başa,
Yaşa, qardaşım, min yaşa!
Sal qayasan, Akif Bayram!

***Bakı,***
***13 fevral 2008***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## QOŞABULAQ

*Əziz dostum Qurban Bayrama*
*bir zarafat*

Şamaxıda gözəl guşə,
Qoşabulaq suyu şüşə,
Dörd bir yanı yaşıl meşə,
Seyrə çıxdı Qurban Bayram.

İnsan seli hey axışdı,
Kababxana aşdı-daşdı,
Süfrələrə baxıb coşdu,
Demə toxdu Qurban Bayram.

Məşvərət etdik arada,
Əyləş dedik kresloda,
Onu seçdik biz tamada,
Taxta çıxdı Qurban Bayram.

Qızdı xidmətçi uşağa,
Köhnə dedi sarımsağa,
Təzə, ağappaq qatığa,
Qara dedi Qurban Bayram.

Günortaya bir az qala,
Dörd arağı saldı yola,
Beşincidə gəlib hala,
Dişin sıxdı Qurban Bayram.
O, kefləndi yavaş-yavaş,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Pullarını etdi şabaş,
Kababçıya açıb savaş,
Dara çəkdi Qurban Bayram.

Keçirdi bir yol aşığı,
Dirəndi ki, çal – "Qaytağı",
O, binəva kal aşığı,
Tora saldı Qurban Bayram.

Yeyib-içdik, itdi hesab,
Lap qarışdı, şişdi hesab,
Çox müşkülə düşdü hesab,
Çarə dedi Qurban Bayram.

Tel elədi, gəldi adam,
Əziz dostu, bəy Sərəncam,
"Şot"u verib qıldı əncam,
Şura gəldi Qurban Bayram.

Dedim, yorulmuşam, qadam,
Uzandım – çəməndə yatam,
Qoymadı bir çimir alam,
Nərə çəkdi Qurban Bayram.

Gün əyildi, qaraldı qaş,
Hamı getdi dostlar, yoldaş.
Dedim, biz də gedək, qardaş,
Hara, dedi, – Qurban Bayram!

***30 iyun 2008***



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## SAZIN SEHRİ

*İstedadlı sənətkar, ecazkar barmaqlar sahibi, aşıq Zülfiyyə xanıma ithaf*

Saz şimşəyə dönər od şəmşirindən,
Titrəyib oynayar yer məhvərindən,
Misir ehramları qopar yerindən,
Zülfiyyə «Kərəmi» çalanda, Allah!

Mizrabın çınqısı atəşi sarsır,
Axan çay dayanır, bülbüllər susur,
Saz yanır, alovu Günəşi qarsır,
Zülfiyyə «Kərəmi» çalanda, Allah!

Yer, göy bu ahəngə heyran kəsilir,
Yanan ürəklərə leysan səpilir,
Sanki səmalardan azan yüksəlir
Zülfiyyə «Kərəmi» çalanda, Allah!

Saz sehrinə salıb, ağlını alar,
Nitqini qurudar, canını alar,
Nicatın Tanrıdan imdada qalar,
Zülfiyyə «Kərəmi» çalanda, Allah!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Kül oldular sazın bir atəşindən,
Nişanə qalmadı Əsli, Kərəmdən.
Bu od Zülfiyyəni yandırmır nədən?!
Zülfiyyə «Kərəmi» çalanda, Allah!

Simlərdə nalələr, simlərdə ahlar,
Ərafat dağına düşür sədalar,
Ucalır Kəbədən  ərşə nidalar,
Zülfiyyə «Kərəmi» çalanda, Allah!

Şöhlətəm, xəyalım düşübdür çaşbaş,
Ürəyimdə kədər, gözlərimdə yaş,
Ellər cənazəmi qaldıraydı kaş,
Zülfiyyə «Kərəmi» çalanda, Allah!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## RUHUMU ÇƏKİRSƏN DARA

***İstedadlı xanəndə, muğamlarımızın ecazkar***
***və bənzərsiz ifaçısı, Azərbaycan muğam***
***sənətinin iftixarı Alim Qasımova ithaf***

Ay Alim, şikəstə oxuyub yenə,
Apardın de hansı aləmə məni?!
Elə bir dərgahda qərar tutmusan,
Sanıram övliya, ülamə səni.

Pərinin yurdunda nalə çəkirsən,
Cismimi, qəlbimi oyub sökürsən,
Qılıncsız, xəncərsiz cəlladmısan sən?!
Şikayət edəcəm aləmə səni.

«Segah»la ruhumu çəkirsən dara,
Sitəm eləyirsən kamana, tara,
Kərbala çölündə atıb odlara,
Salmısan ovsuna, tilsimə məni.

Sənsən padişahı uca muğamın,
Yayılıb cahana şöhrətin, şanın,
Şöhlət sənətindən alır ilhamın,
Sidq ilə mən aldım qələmə səni.

***30 iyun 2008***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**ALLAH ONA YAR OLSUN**

*Çox gənc ikən dünyadan köçən qardaşım Qəhrəmanın həyat yoldaşı Xuraman xanımın yadigarı Əşrəf qundaqda anasız qaldı. Maşal-lah, indi böyük oğlan olub…*

Xuramandan bir yadigar qalıbdı,
Atamızın gözəl adın daşıyır.
Nəslimizə əziz-xələf olubdu,
Sanırıq ki, atam yenə yaşayır.

İsmi Əşrəf, özü bizə iftixar,
Əsillik var damarında, qanında.
Əfşar adlı, şan-şöhrətli eli var,
Soyumuzun urf-adəti canında.

«Qağa» deyib, çağırırıq biz onu,
Batman gəlir oturuşu, duruşu.
Ağa deyib, şah sanırıq biz onu,
Bizə fərəh verir tərlan baxışı.

Ədəblidir, hazırcavab, həm kübar,
Xoşbəxt olsun, qoy yolları nur olsun.
Vüqarlıdır, onda qeyrət, iman var,
Ömür versin, Allah ona yar olsun!

***Bakı,***
***31 yanvar 2008***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## ATA NƏSİHƏTİ

*Sevimli oğlanlarım Anar və Şəmsiyə*

Ey oğul, diqqət et bu dünyaya sən,
Həyat fəlsəfəsin dərk eləyəsən.
Oxu, hər bir elmə talib ol ki, sən –
Dünyanın işini yaxşı biləsən.

Daima fırlanır bu çərxi-dövran,
Dayanmaz nə külək, bulud, Günəş, Ay.
Fərmandadır onlar hər an, hər zaman,
Odur ki, gecikməz payız, qış, yaz, yay.

Dərk etmək istəsən bu hikmətləri,
Keçirmə qəflətdə oğul, vaxtını.
Bilik dəryasına baş vur ki, müdam,
Fəth edə biləsən elmin taxtını.

İstəsən ki, könül torpağında sən
Bir kamal bağçası salasan əgər –
Onu sirab elə alın tərindən,
Çəkdiyin zəhmətlər getməsin hədər.

Sevgiylə torpağı dırmala, ov, əz,
Oraya mərhəmət, şəfqət gülü səp.
Kamal bağçasında ehtiramla gəz,
Üzüb iman gülün, məhəbbətlə öp.

Ağılın qüdrətin göstər orada,
Qoy elmin, əxlaqın təcəlla etsin.
Təvazökar ol ki, olsan da harda,
Adın könüllərdə, dillərdə bitsin.

İbtidası palçıq, üfunətli gil
Güllə həmyar olsa, ənbər qoxuyar.
Hər kim kitablarla olarsa həmdil,
Dilindən dürr tökər, inci toxuyar.

***20 İyul 2007***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## «OVQAT»IMIN

*İctimai kanalın hər bazar günü yayınladığı «Ovqat» musiqili–ədəbi məclis əsrarəngizliyi ilə ürəkləri fəth edir, ruha ilahi qida verir…*

Nazlı bahardır gəlişi, çiçəkli bir gülüstandır,
Məst eləyir al səhəri, gül səfası «Ovqat»ımın.

Əhli-ürfan məclisidir, nur çiləyər könüllərə,
Coşdurar dil, hal əhlini, eşq havası «Ovqat»ımın.

Gözləyirlər həsrət ilə Türkiyə, Təbriz, Urmiya,
Ün salıbdı kainata, xoş sədası «Ovqat»ımın.

Sevgi yağır, işvə yağır, hər məclisin qəmzəsindən,
Od salıbdı ürəklərə, ol «Nəvası» «Ovqat»ımın.

Nədir ki, o müşki-ənbər, ondan da gözəldir ətri,
Can verir aşiqlərə, rahiyəsi «Ovqat»ımın.

Şöhlət Əfşar tərif etdi sidq ilə hər hüsnü-halın,
İlahinin öz nurudur, Səyyarəsi «Ovqat»ımın.

***24 fevral 2008***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## MƏLƏKDİR BU QIZ

*İstedadlı hüquqşünas, jurnalist,*
*ilahi gözəl Aidə xanıma ithaf*

Allah, bir qız gördüm, tər güllər kimi,
Səhər şehi qonmuş, ləçəkdir bu qız.
Duruşu bir ahu, huri görkəmi,
İlk baharda açmış, çiçəkdir bu qız.

Allah, bir qız gördüm, incə, sərvi boy,
Kübar bir nazənin, əsli gözəl soy,
İşvəli, ədalı, şəkər, gözəl huy,
Gözəllər gözəli, göyçəkdir bu qız.

Allah, bir qız gördüm, özü göyərçin,
Əlləri göyərçin, gözü göyərçin,
Saçları çiynində dalğalı, çin-çin,
Pəridir, sonadır, mələkdir bu qız.

Gözəllik timsalı, Nigara bənzər,
Ötkəmdir qeyrətdə Həcərə bənzər.
Sara Xatun kimi məntiqdən pərgər,
Azəri, Türk qızı, qəşəngdir bu qız.

Arzusu, diləyi görüm çin olsun,
Bəxti göy üzündə, Günəştək yansın,
Doyunca yaşasın, arzu-kam alsın,
Bu gözəl dünyaya bəzəkdir bu qız!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## BİZİ QANA SALACAQ
*(zarafatyana)*

***İstedadlı müğənni Röya xanıma ithaf***

«Mersedes»i son model,
Özü incə, madmazel,
Ona heyran olub el,
Bizim Röya gözəldir,
Vallah, bu qız özəldir.

«Ulduz»dur, dinamikdir,
Səsi çox romantikdir,
Ətirli gül çiçəkdir,
Sənətdə şah olacaq,
Aləmə ün salacaq.

Kürəyində var yazı,
Pamadası qırmızı,
Öldüm, ay zalım qızı!
Başlara tac olacaq,
Bizi qana salacaq.

Saçlarını vızlayır,
«Mersedes»in qazlayır,
Küçələrdə tozlayır,
Göylərdə uçan quşdur,
Bizim Röya «avtoş»dur.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Həzin nəğmə söyləyir,
Könlümə nur çiləyir,
Baxışı od ələyir,
Bənövşətək kövrəkdir,
Göydən enib mələkdir.
Bizim Röya gözəldir,
Vallah, bu qız özəldir!

***14 iyun 2008***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## ORXANIM, RƏŞADIM, SABİRİM

***Sevimli nəvələrimə***

Dünyaya göz açdılar,
Gətirdilər nübarı.
Üstümüzdən atdılar,
Dərdi, qəmi, qübarı.
Yenidən çiçək açıb,
Ömrümüzün baharı.
Onlar həmi nəvəmdir,
Həm də dəvəmdir mənim,
Orxanım, Rəşadım, Sabirim!

Onlar ömür naxışım,
Gələcəyə baxışım.
Evimin yaraşığı,
Həm sultanım, həm şahım.
Qurduğum hanalarda,
Mən ərişəm, arğacam,
Onlar həvəm, kirkidim,
Orxanım, Rəşadım, Sabirim!

Böyüyün igidlərim!
Qoy sizdən uzaq olsun,
Qübar, qüssə, kədər, qəm.
Uğurunuz xeyir olsun,
Tanrı sizlərə həmdəm!
Qartal tək ayıq olun,
Vətənə layiq olun,
Hamıya dayaq olun,
Mən də baxım öyünüm,
Orxanım, Rəşadım, Sabirim!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**AY ŞƏFƏQİM!**
**(*Gözəl nəvəm Şəfəq xanıma…*)**

Göyçəklərin göyçəyisən,
Qızılgülün ləçəyisən,
Yaylaqların çiçəyisən,
Güllü yazım, ay Şəfəqim!

Buludların tülündəsən,
Durnaların telindəsən,
Bülbüllərin dilindəsən,
Körpə quzum, ay Şəfəqim!

Kəpənəyin xalındasan,
Arıların balındasan,
Aşıqların sazındasan,
Xoş avazım, ay Şəfəqim!

Gözəllikdə bir pərisən,
Qəlbimizin fərəhisən,
Sən babanın ürəyisən,
Mənim canım, ay Şəfəqim!

***5 iyun 2007***



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

**QAR ÇİÇƏYİ**

***Bu gün qarlı bir qış səhərində nəvəm dünyaya göz açdı.Qədəmlərin mübarək!!!***

Gözəl müjdə aldıq bu qış səhəri,
Qədəm qoyur evimizə bir pəri,
Tanrı bəxş eyləmiş bizə gövhəri,
Qar altından bir gül açdı bu səhər.

Dünyaya göz açdı bir qarçiçəyi,
Zərifdir, incədir bəyaz ləçəyi,
Mələkdir, qızların nazlı göyçəyi,
Küllü-aləm işıq saçdı bu səhər.

Gəldi ömrümüzün nübarı, dadı,
Əzbərim olacaq mübarək adı,
Gülşənin uçmağa yoxdur qanadı,
Evimizdə bahar açdı bu səhər.

Qədəri, taleyi qoy gözəl olsun,
Xoşbəxt olsun bəxti göyə ucalsın,
Dünyadan doyunca arzu – kam alsın,
Arzum qanadlandı uçdu bu səhər.

Ata – anasıyla həm dildar olsun,
Ayağı sayalı, bəxtiyar olsun,
Şərəfli, şöhrətli bir nigar olsun,
«Vağzalı» könlümdə coşdu bu səhər!..

***28 yanvar 2006***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**DOĞUM GÜNÜN MÜBARƏK!!!**

*Bu gün gözəllər gözəli nəvəm*
*Şəfəqin bir yaşı tamam oldu.*

Çatdın bir yaşına, şükürlər olsun,
Qoy səni xoş günlər qoynuna alsın,
Ürəyin sevinclə, fərəhlə dolsun,
Narçiçəyim, Qarçiçəyim - Şəfəqim.

Gözəlisən əlvan, gözəl güllərin,
Göyərçindir yumşaq, totuq əllərin,
Bal dadıyır «baba» deyən dillərin,
Narçiçəyim, Qarçiçəyim - Şəfəqim.

Gülüşləri bizi nura bələyir,
Hər gün qəlbimizə sevinc çiləyir,
Hərdən bənövşə tək boynunu əyir,
Narçiçəyim, Qarçiçəyim - Şəfəqim.

İncəsən, lətifsən, həm də ki, kövrək,
Babanın canısan ürək, ay ürək!
Mübarəkdir, doğum günün mübarək!
Narçiçəyim, Qarçiçəyim - Şəfəqim.

***28 yanvar 2007***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**XOŞ GƏLDİN, GÜLÜM!**

*Əziz Qurban bayramı günü*
*21 dekabr 2007-ci il tarixində,*
*gecə nəvəm dünyaya göz açdı.*

Gözəl müjdə gəldi gümüşü Aydan,
Bir nəvəm dünyaya gecə göz açdı.
Ulduzlar yanıma endi səmadan,
Körpə fidanımdan mənə söz açdı.

Zərifdir, incədir, güldən gözəldir,
Qışın çilləsində bahar açıbdı.
Allahın payıdır, o, çox özəldir,
Günəştək ömrümə işıq saçıbdı.

Yumşaq, ipək kimi simsiyah saçı,
Yaşılbaş sonadır, sular pərisi.
Evimə nur gəldi, Şəfəqə bacı,
Mələyə bənzəyir gözəl çöhrəsi.

Qədəmin mübarək, xoş gəldin, gülüm!
Dünyada səadət nemətin olsun.
Taleyin zərində şeş gəldin, gülüm,
Şan-şöhrət, ucalıq qismətin olsun!

***Bakı,***
***21 dekabr 2007 saat $4^{40}$***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**BAL DADIR**

Bəxtəvərsən, a Gülşən,
Oldun altı nəvəli.
Sonbeşik – adı Dərya,
Gözəllərin gözəli.
Gül üzündə min cürə,
Təbəssüm, ifadə var.
Ənbər saçır, bal dadır,
Şirin, şəkər, məzəli.
Onlar şərəfin-şanın,
Onlar sənin baş tacın.
Onlar cismində ruhun,
Onlar damarda qanın.
Amma çaşma, unutma!
Onlar sənin olmaqla,
Həm də mənim nəvəmdir.
Onlar ömrümün yazı,
Dövlətimdir, dəvəmdir.

***12 mart 2008***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## ONLAR HƏYATDIR BİZƏ

Altı gözəl nəvəm var,
Orxan, Rəşad, Sabir.
Rəmzi hələ körpədir,
Hamımıza əzizdir.
Toy-bayramdır hay-küyü,
Qəmi, kədəri qovan,
İlahi ündür, səsdir.
Qığıltısı, inqəsi,
Möcüzədir, nemətdir,
Lətafətli, ləzizdir.
Şəfəq, Dərya bir aləm,
Bir-birindən gözəldir.
Hər gün yığıb şeylərin,
Şəfəq evcik düzəldir.
Ay kimi saf üzləri,
Ulduz-ulduz gözləri.
Baxışları su kimi,
Əlləri dümağ qardır.
Hərəsi özü boyda,
Kəhkəşanlı bir dünya,
Gül-çiçəkli bahardır.



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Onlar ovqatdır bizə,
Onlar həyatdır bizə.
Tanrıdan diləyim var,
Onları hifz eləsin,
Gəlməsinlər heç gözə!
Gəlməsinlər heç gözə!

***12 mart 2008***

## XANIMLAR XANIMI

*Gözəl balam Fəridəyə*

Xilqətin nə gözəl yaradıb səni,
Camalı Günəşdən, Aydan almısan.
Qızlar bulağının gözündən içib,
Çiçəyi burnunda xanım olmusan.

Bir tazə baharsan, güllü-çiçəkli,
Qapqara saçların şəlalə kimi.
Al-əlvan laləsən qızıl ləçəkli,
Gözünün haləsi piyalə kimi.

Xanımlar xanımı gözəl Fəridə,
Allahdan dilərəm xoşbəxt olsan.
Ad qoyub həyatda Nüşabə kimi,
Küllü – kainata səda salasan!

***19 mart 2008***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**MAKİNAÇI QIZ**

Sakit bir otaq,
Gözəl bir qız.
Əyləşib makinada yazır,
Yanında çoxlu kağız.
Baxıram gözlərim dolu maraq,
Makina lokomotiv kimi çaqqıldayır –
Çaq, çaq, çaq, çaq…
Vərəqlər dolur bir-bir,
Amma qız yorulmayır,
Gözlərini bir an belə,
Makinadan ayırmayır.
Vərəq qoyub yenisini,
Tez-tez yazır.
Görmək olmur əllərini,
O, hey yazır.
Yazdıqca ipək saçları titrəyir,
San ki, cəngin simləridir inləyir.
Çıxıram otaqdan,
Könülsüz-könülsüz.
İllərlə dayanardım yanında,
Lal kimi, düm-düz.
Gedirəm,
Səsi gəlir makinanın.
Yenə qulaqlarıma,
Çaq, çaq, çaq, çaq…
Kim bilir hələ o,
Nə qədər yazacaq.

***Sentyabr 1968***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**MƏN, QIZ VƏ TELEFON**

Telefon zəng edir yenə aramsız,
Qaldırıram dəstəyi həyəcanla mən.
İncə, nəzakətlə soruşur bir qız:
Allo kimdir? Sevgilim, sənsən?!

Telefon söhbəti uzanır yenə,
Mən ona vurğunam, o, mənə vurğun.
Ecazkar bir arzu söyləyir mənə,
Bitməyir arzular, gecəsə uzun.

Gah susur, gah dinir şıltaq sevgilim,
Qıymayır o, mənə, yoruldun - deyir.
Xudafiz deməyə gəlməyir dilim,
Mən də qıymayıram, o, yenə dinir.

Əvvəl özü deyir, danış bir az da,
Qəlbimdə sevincim dünyaya dönür.
Sonra mən deyirəm, sən danış onda,
Sözümüz simlərdə mahnıya dönür.

Bu gecə hər bir şey gözəldir mənə,
Var olsun məhəbbət, yaşasın insan.
Telefon söhbəti uzanır yenə,
Bir şey danışmırıq əslinə baxsan.

***Avqust, 1974***



Created with
nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

## ƏSRİN XRONİKASI

Alo, Moskva! Alo!
Danışıram,
Eşidirəm.
Nə qədər xəbərlər verirəm,
Nə qədər xəbərlər alıram.
Bir anın içində,
Sanki, hər şeyi
Özüm görürəm.
Nə qədər hisslər vardır,
Bu kiçik dəstəkdə?
Xoş xəbər,
Sevinc,
Həyəcan!
Bu xəbərləri o verir mənə,
Ancaq özü sakitcə
Dayanıbdır əlimdə.

Uçuram…
Səsdən də iti gedirəm,
Səmanın ənginliklərində.
Təyyarəmin gümüşü qanadlarında,
Uçuram…
Babamın bir lidə getdiyi yolu,
Gedirəm tək bircə gündə.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Gecədir…
Ucqar bir kənddə
Oturmuşam sakitcə,
Tək-tənha evdə.
Amma dünya elə bir buradadır,
Bu möcüzə dolu işıqlı ekrandadır.
Düyməni basıram,
Ekran rəqs edib dayanır.
Rəqqasə məndən uzaqlarda,
Ancaq otağımda oynayır.
Görürəm
Uzaq şəhərləri,
Bakı, Moskva.
Hələ bax,
Paris, Sofiya!
Sanki oradayam,
Dünyanın o başını görürəm.
Gecə keçir, dan sökülür,
Ancaq hələ də,
Evimdə davam edir,
Xaricdən verilən interviziya.

Danışır, Bakı!
Son Xəbərlər…
Əhval tuturam,
Bu kiçik sandığımla
Hər yerdən.
Müxtəlif şərhlər, xəbərlər…



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Vyetnamda müharibə davam edir…
İsrail təcavüzkarlığını artırır…
Xunbveyinlər azğınlaşır!
Moskvada Sovet-Alman dostluğu sərgisi,
«Spartak» - «Neftçi»
Yoldaşlıq görüşü keçirir…
Diqqət! Diqqət!
İnsan kosmosa uçdu!
Luna – 10 Aya endi,
Avtomat stansiya Veneraya çatdı…
Dünya bu xəbərlərə heyran qaldı!
Hələlik Aya, Veneraya şəkillər göndəririk yadigar.
Yaxınlarda yəqin ki,
Uçacaq Aya  həm də insanlar,
Bax, gör vətənimdə,
Necə möcüzələr var!

***1972***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# MÜNDƏRİCAT

Ənənəvi üslubun müasirlik ladı .......................................3
Dayandım ehrama ...........................................................29
Haqdan aldım bəsirəti .....................................................31

## I
### *AZƏRBAYCAN-ÜRƏYİM, MƏMLƏKƏTİM*

Üçrəngli bayrağım ..........................................................33
Sən üzülmə, ay Ana! ........................................................35
Oxuma, bülbül.................................................................36
Sızlayıram, Qarabağ........................................................38
A dağlar...........................................................................39
Sitəm olub səndən ayrı yaşamaq......................................40
Hara getdi maralımız.......................................................41
Necoldu ...........................................................................42
Bayatılar..........................................................................45
Bu yaz bənövşələr barıt qoxudu.......................................47
Turşsuda xəyala dalaydım, dağlar....................................49
Qalxın, ey ərənlər.............................................................50
Nə deyəcək......................................................................51
Qarabağ inləyir................................................................53
Qəribəm vətəndə .............................................................54
Nadir Şah Əfşar...............................................................55
Kəpəzim ..........................................................................58
Daşkəsən .........................................................................59
Xızı..................................................................................61
Salama gəlsin ..................................................................62
Ağsu aşırımı ....................................................................64



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bahar çağırır bizi............................................................66
Buludlar..........................................................................68
Bahar...............................................................................70
Payız................................................................................73
Qışın vidası ......................................................................74
Qaytar o günləri ...............................................................76
Cəngi çölündə ..................................................................78

## II
## *EŞQDİR MEHRABI UCA GÖYLƏRİN…*

Gəl, gör məni eşq neylədi ................................................79
Sən yoxsan ......................................................................80
Qalmadı...........................................................................82
Gəlmə məzarıma .............................................................83
Ay qəlbimin hakimi .........................................................84
Bayatılar..........................................................................86
Salam söylə sevgilimə.....................................................87
Cəbrə salmısan ................................................................88
Oxu, qoca çinar ...............................................................89
Gülüm .............................................................................90
Sevgi və qürur .................................................................91
Qara sevdanla..................................................................92
Könül könülü ..................................................................93
Qayıt gəl, əzizim .............................................................94
Ömrüm yetməyə..............................................................95
A zalım............................................................................96
Sənsiz .............................................................................97
Qısqanıram......................................................................98
Həsrətin...........................................................................101
Yalvar Allahına...............................................................102
Söylə mənə......................................................................103
Necə gizlədim .................................................................104



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Dağ arasında ........................................................107
Sənin ala gözlərin...................................................108
Bir gözələ aşiqəm....................................................109
Sənsiz həyat yaşanmayır.........................................110
Bu gecə ..................................................................112
Gizli xəyalsan..........................................................113
Sevda yarası ..........................................................114
Çillə çəkirəm............................................................115
Gəl, bir gör halımı....................................................116
Qayıt daha ..............................................................117
Dözməyir ürək .........................................................118
İstəməm...................................................................119
Cihad edirəm...........................................................120
Daha nə sevən var ...................................................121
Ya Rəbb! Eşit məni...................................................122
İnsafsız ....................................................................123
Nigah evimiz............................................................124
Sevəndən öyrən........................................................125
Ərşə çəkilsin............................................................126
Daha ümid yoxdur....................................................127
Yalnız......................................................................128
Quca bilmədi............................................................129
Məhəbbət.................................................................130
Asanmı sanırsan.......................................................131
Ay dünyalar gözəli...................................................132
Peşman olarsan........................................................133
Anan sevinsin toyuna...............................................134
Bəy gəlir, gəlin gəlir ................................................135
Bu qız gəlin köçəcək................................................137
Qadınlar olmasaydı ..................................................138
Gəl yaşadaq məhəbbəti ............................................140



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Həsrət qaldım...........................................................143
Gizli xatirən ...........................................................144
Sənsiz olmayır...........................................................144
Bir əgəl kimiymiş...........................................................145
Tikana yazdı...........................................................146
Od ilə su arasında...........................................................147
Sər tellərini...........................................................148
Gedirsən əgər ...........................................................149
Çarə deyil...........................................................150
Təkliyin əzabın bilirdin, gülüm...........................................................152
Gecələr açılmasın...........................................................153

## III
## *KÖNLÜMDƏN QOPAN DUYĞULAR*

Şair dünyası ...........................................................155
Soruşun məni ...........................................................158
Fəqət, anlamaq çətin ...........................................................160
Ata...........................................................163
Oyan, qardaşım ...........................................................165
Haraya gedirsən ...........................................................166
Analar...........................................................167
Ürək dostlarım ...........................................................169
Aynalar...........................................................170
Ağalar qul oldu ...........................................................171
Aman, zalım ölüm...........................................................173
Bu dövranın...........................................................174
Çözə bilmədi...........................................................175
Ürəyim ...........................................................177
Qıfılbənd ...........................................................178
Ey insan...........................................................180



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Kimi ....................................................................184
İbrahim................................................................185
Ağlatdı bu gecə aynalar məni ..........................................187
Dünya xəlbirləyir dəmadəm bizi.........................................188
Meşəbəyi...............................................................189
Ay həkim...............................................................191
Çalmadı getdi..........................................................193
Hər an nigaranam.......................................................196
Uşaq olaydıq...........................................................197
Getdim qəbristana......................................................199

## IV

***İTHAFLAR***

Ürəyimdəsən............................................................201
Ağ saçların hikməti....................................................202
Ay Əfşar qızı..........................................................203
Dostuma................................................................205
Qoşabulaq .............................................................206
Sazın sehri............................................................208
Ruhumu çəkirsən dara...................................................210
Allah ona yar olsun....................................................211
Ata nəsihəti ..........................................................212
«Ovqat»ımın ...........................................................213
Mələkdir bu qız........................................................214
Bizi Qana salacaq......................................................215
Orxanım, Rəşadım, Sabirim...............................................217
Ay Şəfəqim ............................................................218
Qar çiçəyi.............................................................219
Doğum günün mübarək.....................................................220



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

V

***GƏNCLİYİN BAHARLI GÜLÜSTANINDAN ÜÇ YARPAQ***

Makinaçı qız....................................................................225
Mən, qız və telefon ..........................................................226
Əsrin xronikası.................................................................227

"НУРПАН" - 2008



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

***Nəşriyyatın direktoru: professor Nadir Məmmədli***

*Rəssam:* ***Vəfa İbrahimqızı,***
*Azərbaycan Respublikası Rəssamlar İttifaqının üzvü,*
*Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının baş müəllimi*
*Kompüter dizayneri:* ***Tural Bəxtiyar oğlu Əhmədov***
*Texniki redaktor:* ***Rövşanə Nizamiqızı***
*Kompüterdə mətni yığdı:* ***Naimə Valeh qızı Səlimova***
*Montajçı:* ***Rasim Hacıyev***
*Operator çapçı:* ***Elşad Hacıyev***

*Yığılmağa verilmiş 11.07.2008.*
*Çapa imzalanmış 05.09.2008.*
*Şərti çap vərəqi 4,2. Sifariş № 412.*
*Kağız formatı 60x84 1/16. Tiraj 500.*

*Kitab* ***«Nurlan»*** *nəşriyyat-poliqrafiya müəssisəsində*
*hazır diapozitivlərdən çap olunmuşdur.*
***E-mail: nurlan1959@gmail.com***
*Tel: 497-16-32; 050-311-41-89*
*Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional